www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 24 oktyabr 2014-cü il Cümə № 262 (5971) Qiyməti 40 qəpik


**Xəbər**

## Məhərrəmlik oktyabrın 26-da başlayır, noyabrın 4-ü Aşuradır

yazısı səh.6-da

**Gündəm**

### İşçi Qrupun yaradılmasına Qərbdən dəstək gəldi



ABŞ-ın Azərbaycandakı səfirliyi və Avropa Şurasının baş katibi Torbyorn Yaqland hakimiyyətin addımını təqdir etdi

yazısı səh.5-də

### ANS-də "ehsan davası"

yazısı səh.5-də

### Rauf Mirqədirovdan xəbər var

yazısı səh.3-də

### Şeyx və Dini Komitə sədrindən ilginc açıqlamalar

yazısı səh.6-da

*İsgəndər Həmidov:*

### "Allah eləməsin ki, Milli Şura ilə Müsavat bir yerdə mitinq eləsin"

yazısı səh.4-də

### "Milyarderlər İttifaqı" Dərbənd rəhbərinə qarşı

yazısı səh.10-da

### Avropa Şurasından hakimiyyətə qarşı yeni kurs...

yazısı səh.4-də

### Qarabağ məsələsində "böyük qardaş" dəyişir?

yazısı səh.11-də

### İŞİD-i dünya qadınları üçün cəlbedici edən əsrarəngiz səbəb

yazısı səh.13-də

### Azərbaycanda gizli "Ebola" virusu daşıyıcıları var?

yazısı səh.14-də

### Yeni qaydalar şadlıq saraylarına "toy tutacaq"

yazısı səh.15-də

### Ölən əsgərin atası fəryad qoparır

yazısı səh.15-də

### Rəsul Cəfərovun həbs müddəti uzadıldı

yazısı səh.3-də

# Sülh danışıqlarında təhlükəli "əl dəyişmə"

# PREZİDENTLƏRİN PARİS GÖRÜŞÜ İLƏ BAĞLI ŞOK GÖZLƏNTİ - XƏBƏR, ŞƏRH

Fransa paytaxtında konkret sənəd imzalanacağı haqda iddialar ciddiləşir; Rusiyanı fakt qarşısında qoymağı hədəfləyən Qərbin Qarabağa dair "şotland ssenarisi" üçün hüquqi baza yaratmağa hazırlaşdığı deyilir; diplomatik mənbə: "Vaşinqton və Paris Bakının üzərinə rəsmən separatçı rejimə öz müqəddəratını təyinetmə haqqı tanımaq öhdəliyi qoymaq niyyətindədir..."

yazısı səh.8-də

Pərvanə Nuriyeva



Günel Nuriyeva




# Əkiz bacısının başın kəsən qızla bağlı şok məlumatlar

Xətaidəki qətli törədən Pərvanə Nuriyeva: "Bacımın cinsi azlıq olduğu mənə təsir edirdi"

yazısı səh.13-də



*İslam Mahmudov:*

### "AXCP 3-4 söyüş söyənin əlində qalıb"

yazısı səh.7-də



### Hilal Məmmədov qızının toyuna görə həbsdən buraxıldı

yazısı səh.4-də



### Arif Hacılı "təmizləmə" aparmayacağını bəyan etdi

yazısı səh.9-da



# İlham Əliyev Almaniyanın xarici işlər nazirini qəbul edib

**Prezident İlham Əliyev oktyabrın 23-də Almaniyanın xarici işlər naziri Frank-Valter Ştaynmayeri qəbul edib. Dövlət başçısı Frank-Valter Ştaynmayerin səfərinin ikitərəfli əlaqələrin siyasi, iqtisadi, təhlükəsizlik və digər istiqamətlərdə inkişafı və görüləcək işlərlə bağlı müzakirələrin aparılması üçün yaxşı fürsət yaratdığını qeyd edib, əməkdaşlığın geniş sahələri əhatə etdiyini vurğulayıb.**

Nazir Azərbaycanla Almaniya arasında müxtəlif sahələrdə, o cümlədən təhsil, səhiyyə, informasiya və kommunikasiya texnologiyaları sahələrində əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanlar olduğunu bildirib.

AzərTAc xəbər verir ki, görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Erməni boksçu azərbaycanlı ilə döyüşdən imtina etdi

**Xorvatiyanın paytaxtı Zaqrebdə gənc boksçular arasında keçirilən Avropa birinciliyində yarımfinalçılar məlum olub. Apasport.az saytının məlumatına görə, Azərbaycan millisinin 2 üzvü - Məsud Yusizadə (52 kq) və Məhəmmədəli Tahirov (+91 kq) 1/4 finalda qələbə qazanmaqla, ən azı yarışın bürünc medallarını özlərinə təmin ediblər.**

Yusifzadə Gürcüstanı təmsil edən erməni əsilli Qaqik Pozoyan üzərində inamlı qələbə qazanıb - 3:0. Boksçumuz yarımfinalda bolqarıstanlı Daniel Asenovla üz-üzə gələcək.

Məhəmmədəli Tahirov isə 1/4 finalda Ermənistan boksçusu Qnel Muradyanla qarşılaşmalı idi. Ancaq işğalçı ölkə idmançısı rinqə çıxmaqdan imtina etdiyindən, həmyerlimiz yarımfinala yüksəlib.

Milli komandamızın üzvü yarımfinalda almaniyalı Peter Kadiru ilə üz-üzə gələcək.

# ARDNŞ: "4 nəfərin axtarışı davam edir"

**Oktyabrın 23-də saat 12.00 radələrində "Azneft" İstehsalat Birliyi N. Nərimanov adına NQÇİ-nin ərazisində yerləşən 441 saylı qəzalı meydançada təmir işləri aparılarkən uçqun baş verib. ARDNŞ neft meydançasında baş verən qəza ilə bağlı yaydığı məlumatda belə deyilir. ARDNŞ-dən APA ttps://apa.az/-ya verilən məlumatda bildirilir ki, uçqun nəticəsində meydançada olan vaqon evcik dənizə düşüb, meydançanın üstündən keçən 700 diametrlik boru kəməri qırılıb və yanğın baş verib. Saat 12.45 radələrində yanğın söndürülüb.**

Uçqun zamanı ərazidə cəmi 41 nəfər işçi olub. Hadisə baş verəndən dərhal sonra qəza xilasetmə briqadası tərəfindən görülən operativ tədbirlər nəticəsində 37 nəfər ərazidən çıxarılaraq "Orion-15" və "PSK-52" gəmiləri vasitəsi ilə sahilə gətirilib.

İşçilərin arasında müxtəlif dərəcəli xəsarətlər alan şəxslərə lazımi tibbi yardım göstərilir. Hazırda dənizə düşməsi ehtimal olunan 4 nəfərin axtarışı davam etdirilir.

Hadisənin araşdırılması məqsədi ilə xüsusi komissiya yaradılıb.

# Qəza "Vnukovo"nın rəhbər şəxslərinin istefasına gətirdi

**Moskvanın "Vnukovo" aeroportunun baş direktoru Andrey Dyakov və onun müavini Sergey Solntsev "Falkon" təyyarəsinin qəzaya uğramasına görə istefa veriblər. "Mediaforum" saytı xəbər verir ki, "Vnukovo"nın növbə direktoru, aeroportun istismar bölməsinin rəisi və həmin vaxt növbədə olan işçilərə rəhbərlik edən mühəndis də işdən çıxarılıb.**

Fransanın neft-qaz konserni "Total"ın prezidenti Kristof de Marjeri oktyabrın 21-nə keçən gecə Vnukovo" aeroportunda baş verən təyyarə qəzasında həlak olub. "Total" prezidentinin əyləşdiyi kiçik mühərrikli "Falkon" təyyarəsi uçuş zolağında qartəmizləyən maşınla toqquşub. Təyyarədə daha üç nəfər həlak olub.

Oktyabrın 22-də "Total"a yeni prezident və baş direktor təyin olunub. Tyerri Demarre "Total"da prezident, Patrik Puyanne isə baş direktor postunu tutub.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**


## Başsağlığı

**Müsavat Partiyasının başqanı Arif Hacılı və rəhbərliyi İltizam Əkbərliyə bacısının vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

# Ali Məhkəmə şikayətə baxacaq

**Noyabrın 11-də Ali Məhkəmədə Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin rəhbəri Anar Məmmədli, mərkəzin icraçı direktoru Bəşir Süleymanlı və Könüllülərin Beynəlxalq Əməkdaşlığı İctimai Birliyinin rəhbəri Elnur Məmmədovun apellyasiya şikayətinə ilkin baxış iclasının qərarından verilən şikayətə baxılacaq. Məlumatı "Media forum" saytına vəkil Elçin Sadıqov verib.**



**Vəkil qeyd edib ki, prosesə hakim Gülzar Rzayeva sədrlik edəcək:** "Bakı Apellyasiya Məhkəməsi apellyasiya baxışını qismən məhkəmə istintaqı ilə aparmaqdan imtina etdiyi üçün ilkin qərardan kassasiya şikayəti vermişik. Ümid edirəm ki, Ali Məhkəmə bizim kassasiya şikayətimizi təmin edib apellyasiya şikayətinə qismən məhkəmə istintaqı aparılmaqla baxılmasını qərara alacaq".

Mayın 26-da Bakı Ağır Cinayətlər Məhkəməsi Anar Məmmədlini 5 il 6 ay, Bəşir Süleymanlını 3 il 6 ay müddətinə azadlıqdan məhrum edib. Elnur Məmmədov isə 3 il 6 ay şərti həbs cəzası alıb.

İş külli miqdarda mənimsəmə, külli miqdarda gəlir əldə etməklə qanunsuz sahibkarlıq, xeyli miqdarda vergiləri və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma, vəzifə səlahiyyətlərindən sui-istifadə və vəzifə saxtakarlığı ittihamları ilə aparılıb.



# Sevinc Babayevada başqa hansı gizlinlər vardı?

## Pasportu üzə çıxaran mənbənin növbəti addımları nələr olacaq?

**"Yeni Müsavat"ın ötən sayında "mandat alveri" qalmaqalının əsas fiqurlarından olan, ötən ilin dekabrında İstanbulda dünyasını dəyişən Sevinc Babayevanın itkin düşən pasportunun surətini təqdim etmişdik. Yazıda qeyd etmişdik ki, pasportun kserosurəti redaksiyamızın ünvanına qeyri-müəyyən bir ünvandan gəlib. Biz onun mənbəyini dəqiqləşdirmək istəsək də, buna nail ola bilmədik.**

Amma bu fakt bizə sözügedən mövzu ilə bağlı xeyli gizlinlərin olduğu mesajını verdi. Bəllidir ki, S.Babayevaya aid bir çox sənədlər, faktlar hələ də gün üzünə çıxmayıb. Bundan başqa, daha öncə bizə mərhumənin sağlığında Elşad Abdullayev barədə danışdığı səs yazısını göndərən şəxslə bu kserosurəti göndərən şəxsin eyni olması ilə bağlı təxminlərimiz güclənir.

"Yeni Müsavat" bir daha xatırladır ki, S.Babayeva İstanbula gedəndən sonra mediada yayılan ən məşhur söhbət onun bəzi kompromatları da özü ilə birgə aparması idi. Bu kompromatların hakimiyyətin yüksək çinli məmurları barədə olması da həmin vaxt yayılan şayiələrdən idi. Həmin vaxt qəzetlər də yazırdı ki, S.Babayeva İstanbula gedən kimi pasportu əlindən alınıb və üzə çıxmaması üçün gizlədilib. Bu fakt aradan iki il keçəndən sonra təsdiqini tapdı. İndi sıra S.Babayevanın sağlığında əlində olan kompromatların "gizli əl" tərəfindən gün üzünə çıxarılmasındadır.

Güman edilir ki, son iki ayda iki faktı üzə çıxaran məchul mənbə növbəti faktları da açıqlamağa hazırdır.

**Bu, S.Babayeva və mandat qalmaqalında iştirak edən tərəflər arasındakı gizli anlaşmanın pozulmasına bir işarədir. Bu fakt isə ilk növbədə Azərbaycan oxucusu və ictimaiyyətinin marağındadır. Çünki anlaşma pozulduqca bu məsələdəki bütün gizlinlər də üzə çıxacaq. Səs yazıları, görüntülər, kompromatlar və hər şeydən öncə... ələhəzrət həqiqət.**

**❑ Sevinc TELMANQIZI**

# Qənimət Zahid məhkəməyə cəlb olundu



**Oktyabrın 23-də Yasamal Rayon Məhkəməsi vəkil Ələyif Həsənovun işi üzrə xüsusi ittihamı icraata qəbul edib. Bakı İstintaq Təcridxanasında hüquq müdafiəçisi Leyla Yunusla bir kamerada saxlanan Azərbaycan vətəndaşı Nuriyyə Hüseynova Ələyif Həsənovu böhtan və təhqirdə günahkar bilərək xüsusi ittiham qaydasında məhkəməyə verib.**

"Media forum" saytına açıqlamasında Ələyif Həsənov bildirib ki, onun hüquqlarını vəkillər Cavad Cavadov, Muxtar Mustafayev və dövlət hesabına təyin olunmuş daha bir vəkil müdafiə edəcək: "Mənə də, vəkilim Cavad Cavadova da prosesin bu gün saat 17-də başlayacağı deyilmişdi. Ancaq proses saat 12-də Muxtar Mustafayevin iştirakı ilə keçirilib. Xüsusi ittihamı icraata qəbul ediblər. İşə "Azadlıq" qəzetinin baş redaktoru Qənimət Zahid də cəlb olunub. Proses oktyabrın 29-da davam edəcək".

Bir müddət öncə Ələyif Həsənov müdafiəçisi olduğu Leyla Yunusa istinadla mediaya bildirib ki, Nuriyyə Hüseynova kamerada hüquq müdafiəçisinə fiziki və psixoloji təzyiq edir, qohumlarının gətirdiyi bəzi şeyləri onun əlindən alır, içəridə söyüş söyür, istirahət etməsinə, yunmasına imkan vermir. Bu açıqlama "Azadlıq" qəzetində də dərc olunub.

"Azadlıq" qəzetinin baş redaktoru Qənimət Zahid hazırda Fransada yaşayır.

# Dünya Bankı Azərbaycana 300 milyon dollar ayırdı

**Oktyabrın 22-də Dünya Bankı ilə Azərbaycan hökuməti arasında ümumi məbləği 300 milyon dollar təşkil edən üç yeni borc sazişi imzalanıb. Bankın Azərbaycandakı nümayəndəliyindən "Media forum" saytına verilən məlumata görə, maliyyələşdirmə ədliyyə xidmətlərinin müasirləşdirilməsi, kənd icmaları üçün infrastruktur xidmətlərinin təkmilləşdirilməsi və rayonlarda su-kanalizasiya şəbəkəsinin yenidən qurulması məqsədlərinə xidmət edəcək.**

Hökumətlə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihəsinə 100 milyon dollar ayrılır. Layihənin əsas məqsədi baza ədliyyə xidmətlərinə çatımın yaxşılaşdırılması, bu xidmətlərin göstərilməsində ədalətliliyin gücləndirilməsi və şəffaflığın təmin edilməsidir.

"Milli su təchizatı və kanalizasiya xidmətləri" üzrə ikinci layihə 150 milyon dollarlıqdır və onun məqsədi Siyəzən, Şabran, Ağsu, İsmayıllı, Lerik, Yardımlı, Masallı və Cəlilabad rayonlarında daha çox ailənin keyfiyyətli və davamlı su təchizatı və kanalizasiya xidmətləri ilə əhatə olunmasından ibarətdir.

"İkinci kənd investisiyaları" layihəsinə əlavə maliyyələşdirməyə dair borc sazişinin dəyəri 50 milyon ABŞ dollarıdır. Layihənin əsas məqsədi ölkənin kənd bölgələrində icma əsaslı infrastruktur xidmətlərinin göstərilməsini təkmilləşdirməkdir.

**Dünya Bankının Azərbaycanda hazırkı investisiya portfeli 18 layihədən ibarətdir. 1992-ci ildə Dünya Bankına üzv olduqdan sonra Azərbaycanın ümumilikdə 54 layihə üzrə öhdəlikləri 3,8 milyard dollar təşkil edir.**

# İran və Rusiya İŞİD-ə qarşı birgə əməliyyat qərargahı yaratdı

**İran və Rusiya İraqda İŞİD ilə mübarizə üçün birgə əməliyyat qərargahı yaradıb. "Trend"-in məlumatına görə, bu barədə İranın "Tasnimnews" xəbər saytı iraqlı mənbəyə istinadən xəbər verir. Məlumata əsasən, iranlı və rusiyalı hərbi ekspertlər iraqlı komandirlərə İŞİD ilə mübarizədə yardım edir: "Rusiya və İrandan 60-dan çox hərbi ekspert İraqın paytaxtı Bağdadda "Əl-Rəşid" hotelində birgə əməliyyat qərargahı yaradıblar".**

# Ramil Usubov səfiri qəbul etdi

**Oktyabrın 23-də daxili işlər naziri, general-polkovnik Ramil Usubov Birləşmiş Ərəb Əmirliklərinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Salem Xəlifə Məhəmməd Əl-Gaflini qəbul edib.**

Qonağı salamlayan nazir BƏƏ-nin müstəqilliyimizi tanıyan ilk dövlətlərdən biri olduğunu, beynəlxalq təşkilatlarda hər zaman Azərbaycanı dəstəklədiyini qeyd edərək ölkələrimiz arasındakı əlaqələrin uğurla inkişaf etdiyini bildirib.

Daha sonra DİN-in funksional vəzifələri və fəaliyyət istiqamətləri, müstəqilliyin ilk illərində ölkəmizdə hökm sürən gərgin ictimai-siyasi və kriminogen durum, ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə ali hakimiyyətə tarixi qayıdışından sonra həyata keçirilən islahatlar, sabitlik və əmin-amanlığın bərpa edilməsi, xarici investorların ölkəmizin iqtisadiyyatına sərmayə qoymaları üçün normal şəraitin yaradılması barədə məlumat verilib.

Səfir Salem Xəlifə Məhəmməd Əl-Gafli səmimi qəbula və ətraflı məlumata görə təşəkkür etmiş, paytaxt da daxil olmaqla ölkəmizin bütün bölgələrində yaradılmış təhlükəsiz və əmin-amanlıq şəraitindən məmnunluq duyduğunu, bundan sonrakı fəaliyyəti dövründə də ikitərəfli əlaqələrin dərinləşməsinə öz töhfəsini verəcəyini bildirib.

# Zakir Həsənov HDQ-nin döyüşə hazırlıq səviyyəsini yoxlayıb

**Müdafiə naziri general-polkovnik Zakir Həsənov əsaslı təmirdən çıxaraq daha güclü mühərrik və qurğularla təmin edilmiş Hərbi Dəniz Qüvvələrinin gəmilərində olub.**

Modern.az xəbər verir ki, hərbi gəmilərin daimi yerləşmə məntəqəsinə gələn müdafiə nazirini Hərbi Dəniz Qüvvələri komandanının vəzifələrini icra edən 1-ci dərəcəli kapitan Şahin Məmmədov qarşılayıb və gəmilərin hazırlığı barədə məruzə edib.

Gəmilərin ümumi vəziyyətini və şəxsi heyətin bacarıqlarını müsbət qiymətləndirən Müdafiə naziri bildirib ki, bütün bu nailiyyətlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqəti və qayğısı sayəsində əldə edilib. Nazir Hərbi Dəniz Qüvvələrinin döyüş hazırlığının daha da artırılması və gəmi heyətinin sosial şəraitinin yaxşılaşdırılması barədə müvafiq göstəriş və tapşırıqlarını verib.

# Oğul namus üstə anasını öldürdü

**Xırdalan şəhərində dəhşətli qətl hadisəsi baş verib. Axar.az xəbər verir ki, hadisə Xırdalan şəhəri, 27-ci məhəllə, Qalubiyyə küçəsində yeni tikilmiş binada baş verib. 1971-ci il təvəllüdlü Fatma Oruc qızı Qurbanova öz oğlu, 1992-ci il təvəllüdlü Hümbət Elşən oğlu Nağızadə tərəfindən öldürülüb. Onun anasını boğaraq öldürdüyü bildirilir.**

Anasını öldürən 22 yaşlı H.Nağızadə hadisədən dərhal sonra polisə təslim olub.

Faktla bağlı Abşeron Prokurorluğunda cinayət işi açılıb. H.Nağızadə qətli namus üstündə törətdiyini bildirib.

YENİ MÜSAVAT
N 262 (5971) 24 oktyabr 2014

# Tural Abbaslı: "Arif Hacılının siyasətini müzakirə etmək istəmirəm, amma..."

## "O, atacağı hər bir addımın siyasi nəticəsini də özü görəcək"

**Müsavat Partiyası başqanlığına keçmiş namizəd Tural Abbaslı redaksiyamızın qonağı olub. O, müsahibə zamanı Müsavatda baş verən istefalardan, narazılardan, tərəflərin mübarizəsindən, həmçinin bundan sonrakı fəaliyyətindən danışıb.(Müsahibənin geniş variantının musavat.com saytından oxuya bilərsiz).**



***- Tural bəy, Müsavatdan istefalar baş verir. Sizi də cəmiyyət narazı qismində qəbul edir. Narazısınızsa, siz də gedəcəksinizmi?***

- Yox, qətiyyən... Qeyd edim ki, son zamanlar partiyada baş verən hadisələrdən daha çox nigaranıq, nəinki narazı. Amma bizim narazılığımız və nigarançılığımız Qubad bəyin (Qubad İbadoğlu-red) narazılığı və nigarançılığından fərqlənir.

***- Nə ilə fərqlənir?***

- Çünki biz bəyan etmişik ki, seçkilərlə bağlı bir problemin olduğunu düşünmürük. Qeyd olunan miqyasda pozuntuların olduğunu düşünmürük. Seçkini qəbul edirik. Qəbul etməsəydik, biz də bu gün səsimizi qaldırardıq. Amma partiyadan istənilən halda getmək planım yoxdur, olmayacaq da. Çünki partiya bizimdir. Bizim dedikdə, müsavatçılarındır, əziyyət çəkən insanlarındır. Əgər bizim bəyənmədiyimiz nəsə olacaqsa, onların aradan qaldırılmasına çalışacağıq.

***- Partiyadan gedənləri xain hesab edirsinizmi?***

- Qətiyyən. Gedənlərin böyük əksəriyyəti ilə uzun müddət, bəziləri ilə qısa müddət mübarizə yolumuz olub. Heç birinə qətiyyən xain kimi və yaxud da xəyanətkar kimi baxmıram. Belə qiymətləndirməni də düzgün hesab etmirəm, uğurlu ifadə deyil. Sadəcə olaraq, oğul atadan necə inciyərsə, elə bir belə incimə var. Və mən əminəm ki, bir çoxları zamanında qayıdacaqlar.

***- Siz gedənlərlə söhbət etmisinizmi? Məsələn, Müsavat Gənclər Təşkilatının istefa vermiş sədri Əhliman Abbasla?***

- Təbii ki... Şəxsən istefa verən gənclərlə, Əhliman bəylə də, Amidlə, Raufla, dolayısı ilə Elçinlə, onun valideynləri ilə də danışmışam. Mən Əhliman bəyin gənclər təşkilatının sədri olmasından, fəaliyyətindən narazı ola bilərəm, bu, başqa məsələdir. Amma onun partiyadan getməyini itki hesab edirəm. Baxmayaraq ki, gedən insanların bir çox məsələlərdə siyasi mövqeləri mənimlə partiya daxilində üst-üstə düşmür, amma mən onları yenə də gərəkli insan hesab edirəm. Hamısından bir-bir demək olar ki görüşmüşəm. Hətta mən sizə bir nüansı qeyd edim. Gedənlərin bəziləri qurultay nümayəndələri idi, hansı ki, qurultaydan əvvəl onlarla görüşüb səslərini istəyə bilərdim, görüşmədim. Amma qurultaydan sonra partiya naminə biz görüşmüşük. Lazım olarsa, yenə də görüşərik.

***- Siz başqan olsaydınız, bu situasiyada necə hərəkət edərdiniz?***

- Əgər mən başqan seçilsəydim, elə seçilən anda verdiyim bəyanatla-istər tərəfdarlarımla qələbəmi qeyd etməyimdən tutmuş müsahibələrimə qədər çox barışdırıcı, birləşdirici mövqe tutardım. Mən indi Arif Hacılının siyasətini burada müzakirə etmək istəmirəm. O, özü bilər və atacağı hər bir addımın siyasi nəticəsini də özü görəcək. Amma hər halda mən əminəm ki, narazıları bir stol ətrafına yığsaydı, rəsmi şəraitdə, yaxud bir çay süfrəsi ətrafında yığılıb səmimi əqidə yoldaşı kimi söhbətlər olsaydı, narazılıqlara, nigarançılıqlara aydınlıq gətirilsəydi, bu qədər narazılıq olmazdı.

***- Sizə partiyada hansısa post təklif olunubmi? Müsavatda hələ təyinatlar olmayıb, Məclis sədri yeri boşdur, müavinlərin yerləri boşdur, Məclisin üzvləri yerinin xeyli hissəsi boş qalıb.***

- Xeyr. Ümumiyyətlə, belə təkliflər-filanlar olmayıb. Ya buna ehtiyac duymurlar, ya da ki, bilmirəm nə düşünürlər. İndiyə qədər mənə hətta Məclis üzvlüyü belə təklif olmayıb, çünki bu, seçki ilə olur. Təklif zatən gözləmirəm də.

***- Hansısa təklif olsa, razılaşarsınızmı yaxud nəyə razılaşarsınız?***

- İndiki halda çalışaram ki, təyinatlı postlarda təmsil olunmayım. Çünki təyinatlı postlar asılılıq yaradır. Yəni ki, öz fikrini demək, sərbəst mövqeyini ortaya qoymaq məhdudlaşır. Amma hər hansı seçkili orqanda yəqin ki, təmsilçilik ola bilər. Çünki seçkili orqan belədir ki, səni kütlə seçir. Kütlə də səni azad edə bilər. Burada öz fikirlərini, mövqeyini qoya bilirsən, nəinki təyinatlı vəzifədə. Odur ki, yəqin təyinatlı vəzifə təklif olunsa, qəbul etmərəm. İndiki rəhbərliyin xarakterinin mənim siyasi xarakterimlə düz gəlməyəcəyini təqribi hesabladığıma görə təyinatlı postda təmsil olunmaram.

***- Sabiq başqan İsa Qəmbərlə aranızda münasibətlər necədir?***

- Təbii ki... İsa bəy bizim başqanımızdır, başqan olaraq da qalacaq. Baxmayaraq ki, bizim müxtəlif dönəmlərdə, seçkiöncəsi ümumi münasibətlər siyasi baxımdan gərgin olub. Amma biz İsa bəyin partiyadaxili ağırlığını qəbul edirik, başqanımız kimi, böyüyümüz kimi həmişə də məsləhətləşirik. Bəlkə də qurultaydan sonra İsa bəylə daha çox məsləhətləşmələrim, görüşmələrim olub, nəinki Arif Hacılı ilə.

***- Müsavat daxilindəki vəziyyətdən istifadə edib cəbhəçilər, kənardakı fürsət gözləyənlər partiyanın üzərinə gəlirlər. Bunlara nə demək istəyərdiniz?***

- Bizə haqlı-haqsız hücum edən, məqamdan istifadə edib müxalifət sferasında öz mövqelərini gücləndirməyə çalışan partiyalara bir tövsiyəm, bir məsləhətim var. Elə düşünməsinlər ki, Müsavat zəifləyəcək, onlar güclü qalacaq. Yeni Müsavatı zəiflətməklə onlar özlərini zəiflədəcəklər, əgər istədikləri budursa. Çünki Müsavat zəiflədikdən sonra hədəf onlar olacaq. Bu gün birinci, ön cərgədə Müsavatdır. Müsavat yıxılacaqsa, növbəti onlar olacaq. İndiki məqamda əksinə, dəstək olmaq lazımdır, bir-birinə arxa durmaq lazımdır. Çünki həqiqi müxalif partiyalar çox az qalıb.

***- Bu partiya üçün, bu camea üçün ən çox əziyyət çəkənlərdənsiniz. Həbsdə olmusunuz, döyülmüsünüz, gənc, istedadlı, savadlı vətəndaş kimi iş yerini itirmisiniz. Həm başqan seçkisində, həm də iki Məclis seçkisində uduzdunuz. Özünüzlə tək qalanda heç olurmu ki, peşman olasız, qəmlənəsiz ki, mən nə etdim, əziyyət çəkdim, vuruşdum, həbs olundum, türmələrdə yatdım. Amma heç bir əziyyət çəkməyən müsavatçılar səslərini belə mənə qıymadılar. Belə peşmanlıqlar olurmu?***

- Təbii ki, olur. Hətta valideyndən belə küsürsən, qapını çırpıb gedirsənsə, təbii ki, partiyadan da, əqidədaşlarından da inciyirsən ki, hətta hakimiyyətin verdiyi qiymətdən belə aşağı qiymət verirlər. Bir də görürsən cəmiyyət, rəqiblər daha çox hörmət edir, daha çox layiqli bilir səni, yol yoldaşların, partiyadaşların, əqidə yoldaşlarınsa yox. İnciyirik, sınırıq və ən azı ailəmizdə, qohum-əqrəba yanında mövqelərimiz zəifləyir ki, budur sənə verilən qiymət? Amma çıxmışıq bu yola və davam edəcəyik...

❑ **Hazırladı: Röya RƏFİEYVA**
**Foto Nərgiz Liftiyevanındır**

---

# Rəsul Cəfərovun həbs müddəti uzadıldı

**Oktyabrın 23-də Nəsimi Rayon Məhkəməsində hüquq müdafiəçisi Rəsul Cəfərovun istintaq müddətindəki həbsinin uzadılması ilə bağlı məsələyə baxılıb. Reportyorların Azadlıq və Təhlükəsizliyi İnstitutunun hüquqşünası Günay İsmayılovanın "Azadlıq" radiosuna bildirdiyinə görə, məhkəmə Rəsul Cəfərov barəsində seçilmiş həbs-qətimkan tədbirinin daha 3 ay müddətinə uzadılmasına qərar verib.**

Rəsul Cəfərov avqustun 2-də həbs olunub və həmin vaxt Nəsimi Rayon Məhkəməsinin qərarı ilə onun barəsində 3 aylıq həbs-qətimkan tədbiri seçilib. İstintaqı Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsi aparır. Ona qanunsuz sahibkarlıq, vergidən yayınma və vəzifə səlahiyyətlərini aşma ittihamları irəli sürülüb.

# Vəkil Rauf Mirqədirovla görüşüb

**MTN-in istintaq təcridxanasında saxlanan jurnalist Rauf Mirqədirova baş çəkən vəkil Elmar Süleymanov "Mediaforum" saytına danışıb. Elmar Süleymanov Mirqədirovla oktyabrın 21-də görüşdüyünü deyib: "Səhhəti, saxlanma şəraiti normaldır. Yalnız bir az arıqlayıb. Hər hansı şikayəti yoxdur. Yeganə istəyi işinə ədalətli baxılması və tezliklə azadlığa çıxmasıdır".**

İstintaqın gedişinə gəlincə, vəkil bildirib ki, oktyabrın 17-də onların iştirakı ilə müəyyən istintaq hərəkəti aparılıb: "Konkret olaraq hansı istintaq hərəkətinin aparıldığını açıqlaya bilmərəm. İşin gedişatından asılı olaraq nə vaxtsa bu haqda açıqlama verməyimiz mümkündür".

---

# Leyla Yunusa çatmayan mükafat barədə bilmədiklərimiz

**Avropa Parlamenti Saxarov adına "Fikir azadlığı" Mükafatını Konqo Demokratik Respublikasından olan həkim-ginekoloq Denis Mukveqe verib. Bu barədə Avropa Parlamentinin sədri Martin Şults özünün Twitter səhifəsində yazıb.**




## 50 min dollarlıq mükafat və...

Təqdimetmə mərasimi noyabrın 26-da Strasburqda keçiriləcək.

Bildirildiyinə görə, 59 yaşlı Mukveqe müharibə zamanı seksual zorakılığa məruz qalan qadınların müdafiəsi yönündəki fəaliyyətinə görə bu mükafata layiq görülüb.

Mükafata namizədlər arasında Azərbaycandan hüquq müdafiəçisi, hazırda həbsdə olan Leyla Yunus, Ukraynanın "Avromaydan" hərəkatı (müğənni Ruslana Lıjiçko, Ukrayna özünü idarəedən tələbə assosiasiyasının prezidenti Yelizaveta Şepetilnikova və jurnalistlər Mustafa Nayem, Tatyana Çernovol) da olub.

Mükafat 1988-ci ildə təsis olunub.

Avropa Parlamentinin iki müvafiq komitəsi 2014-cü il üçün Andrey Saxarov mükafatına üç namizədi seçərək səs veriblər.

Qalibi diplomla yanaşı 50.000 dollar məbləğində pul mükafatı gözləyir.

## Qalib 40 min təcavüz qurbanını müalicə edib

"Yeni Müsavat" mövzunun aktuallığını nəzərə alıb, Saxarov mükafatı barədə bəzi detalları araşdırıb. Öncə builki qalib barədə. Məlum olub ki, Mukveqe müharibə zamanı cinsi şiddətə məruz qalan qadınları Bukavuda qurduğu Panzi adlı xəstəxanada çox effektli şəkildə müalicə edib. Ümumilikdə isə Mukveqe 1999-cu ildən bu günə qədər təcavüzə uğrayan 40 mindən çox qadını müalicə edib.

Müakafat hər il 10 dekabra yaxın bir tarixdə verilən insan haqları mükafatıdır. Sovet elm adamı və 1975-ci ildə Nobel Sülh Mükafatının sahibi Andrey Saxarovun adını daşıyan mükafat 1988-ci ildə Avropa Parlamenti tərəfindən həyatını insan haqları və müstəqilliklərini müdafiəyə həsr edən insanlara verilmək üçün təsis olunub.

Mükafatı bundan öncə alanlar arasında Nelson Mandela (1988), Plaza de Mayo Anaları (1992), Leyla Zana (1995), Ukrayna Qəzetçilər Birliyi (2004), Malala Yusafzayi (2013) kimi insan və təşkilatlar layiq görülüb.

## Ötən il Saxarov, bu il Nobel mükafatı...

Xatırladaq ki, ötən il Saxarov mükafatını Pakistanda Taliban tərəfindən başından vurulan Malala Yusufzay almışdı. O, bu il Nobel Sülh Mükafatının qalibi olub. Mükafatını Avropa Parlamenti rəhbəri Martin Şultun əlindən alan M.Yusufzay çıxışında ona verilən dəyərə təşəkkür edib və mükafatını Pakistandakı "adsız qəhrəmanlara" ithaf edib: "Bu nüfuzlu mükafatı Pakistanın adı eşidilməmiş qəhrəmanlarına və insan haqları üçün dünyanın dörd bir yanında mübarizə edənlərə həsr edirəm. Birliyimizdən və qərarlığımızdan son dərəcə ümidliyəm. Hədəflərimizi gerçəkləşdirə bilər və bizdən kömək gözləyən 57 milyon uşağa yardımçı ola bilərik. Bu uşaqlar iPhone, X-Box, PlayStation ya da şokalad istəmirlər. Tək istədikləri bir kitab və bir qələmdir".

Malala Pakistandakı qız uşaqlarının təhsili üçün verdiyi mübarizəyə görə Taliban tərəfindən başından vurulub və İngiltərədə gördüyü müalicədən sonra yenidən sağlamlığına qovuşub.

## 1998-ci ildən bu günə... qaliblər

Mükafatı ilbeil alanların siyahısı aşağıdakı kimidir:

Nelson Mandela (Cənubi Afrika) - 1988
Aleksandr Dubçek (Ukrayna) - 1989
Aung San Suu Kyi (Myanmar) - 1990
Adem Demaçi (Kosova) - 1991
Plaza de Mayo Anaları (Argentina) - 1992
Oslobodenje (Bosniya Hersoqovina) - 1993
Taslima Nasrin (Banqladeş) - 1994
Leyla Zana (Türkiyə) - 1995
Vei Jingsheng (Çin) -1996
Salima Ghezali (Əlcəzair) - 1997
İbrahim Rugova (Kosova) - 1998
Xanana Gusmao (Cənubi Timor) - 1999
Basta Ya (İspaniya) - 2000
Nurit Peled-Elhanan (İsrail), İzzet Qazzavi (Fələstin), Dom Zacarias Kamvenho (Anqola) - 2001
Osvaldo Paya (Kuba) - 2002
Birləşmiş Millətlər - 2003
Ukrayna Qəzetçilər Birliyi - 2004
Damas de Blanco (Kuba), Sərhədsiz Reportyorlar və Hauva İbrahim (Nigeriya) - 2005
Aleksandr Milinkieviç (Ukrayna) - 2006
Salih Mahmud Osman (Sudan) - 2007
Hu Jia (Çin) - 2008
Memorial (Rusiya) - 2009
Guillermo Farinas (Kuba) - 2010
Esma Mahfuz (Misir), Ahmed el-Senussi (Liviya), Razan Zaitouneh (Suriya), Ali Farzat (Suriya) və Muhammed Buazizi (Tunis) - 2011
Cəfər Pənahi və Nəsrin Sotoudeh (İran) - 2012
Malala Yusufzay (Pakistan) - 2013

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 262 (5971) 24 oktyabr 2014



# Qəbir daşları nə vaxt çat verir?

Hüseynbala SƏLİMOV

**Hamımız düşünürük ki, İlahi, nə olaydı, elə böyük sərvət sahibi olaydım ki, nəvə-nəticələrimin də bütün problemlərini həll edəydim... Məgər belə deyilmi?**

Amma nə qədər qəribə olsa da, Bill Qeyts uşaqları üçün sərvət qoymaq fikrində deyil. Hər halda, müsahibələrində özü belə deyib... Məni isə həmin bu mövzuya müraciət etməyə vadar edən bir məsələ oldu-biz yenə də toylarda dava salmağa başlamışıq. Bir müddət idi ki, belə şey yox idi. Hətta düşünürdük ki, yəqin belə hallar da keçmişdə qaldı. Amma yox, sən demə, biz mahiyyətcə ötən illərdəkindən bir o qədər də dəyişməmişik...

Bu, həm də israfçılıqla və təmtəraqla bağlı məsələdir. Mən elita nəzəriyyəsinin elə də tərəfdarı deyiləm. Amma bu günlərdə çox müzakirə olunan təmtəraq, dəb-dəbə, israfçılıq mövzusu və həm də azğınlıq haqqında düşünərkən ağlıma bir şey gəldi.

Bilirsiniz, təmtəraq və israfçılıq nə vaxt bitəcək? Buna o vaxt son qoyulacaq ki, varlılar buna son deyəcək, varlılar dəbdəbədən əl çəkəcək, israfçılıq və azğınlıq etməyəcək.

Məsələ kasıblara, imkansızlara qalsa, o, heç vaxt öz həllini tapmayacaq. Ona görə ki, cəmiyyətdə tonu, ab-havanı elita müəyyən edir.

Varlı dəbdəbəli toy və yas məclisi qurmasa, imkansızlar da, kasıblar da onlara baxıb deyəcək ki, bax, filankəsin imkanı vardı, çox dəbdəbəli mərasim, məclis də keçirə bilərdi, amma etmədi...

İndi nə baş verir? Bir varlı övladına təmtəraqlı toy edir. Hamı ona baxıb deyir ki, bax, əsl ata belə olar, gör bir, oğluna və ya qızına necə toy elədi?..

Və yaxud da hər hansı bir varlı atasına və ya anasına böyük ehsan məclisi təşkil edir. İnsanlar da yenə də qayıdıb deyirlər ki, bax, adam valideyninə belə qiymət verər, gör, necə məclis təşkil etdi!

Ona görə də nə qədər belə davam edəcək, cəmiyyətdə heç bir dəyişiklik olmayacaq, kasıblar və imkansızlar da lap dəridən-qabıqdan çıxıb varlılarla ayaqlaşmağa çalışacaq, necə deyərlər, dəstədən geri qalmamağa cəhd edəcək.

Ona görə də maarifçiliyi varlılar arasında aparmaq lazımdır. Ona görə ki, elita onlardır, onlar cəmiyyətin zövqünü müəyyən edir...

Əgər Amerikada və Avropada 60-cı illərdə gedən proseslərə baxsaq, lap bir az da əvvələ gedərək dünyada cərəyan edən böyük hadisələrə nəzər salsaq görərik ki, onlar da elitanın düşüncəsində baş verən dəyişikliklər hesabına mümkün olub-bəli, bir gün varlı ailələrin uşaqları arasında böhran başlayır və onlar öz ənənəvi həyat tərzlərindən imtina etməyə başlayırlar...

Avropada və Amerikada etiraz edənlər imkanlı gənclər idi. Elə sosialist inqilablarını da heç də deyildiyi kimi proletariat etməmişdi, proletariat sadəcə bir alət idi-inqilabı düşünənlər və onun ideologiyasını yaradanlar imkanlı insanlar idi...

Ona görə biz də öz təbliğatımızda “sarı simi” tapmalıyıq. Azərbaycanda hələ ki, bu proses müşahidə olunmur- hələ ki, varlı balaları qazanmadıqları milyonları göylərə sovurmaqla məşğuldurlar. Ona görə də bütün deyilənlər bu xüsusda heç bir dəyişikliyə gətirib çıxarmır...

Sadə və qənaətcil həyat tərzi... Bu da milli ideya olmağa layiq məsələdir. Bir gün gələcək ki, insanlar, xüsusən də varlılar bunu başa düşəcək...

İndi məsələ qəsdən dolşadırılır. O gün telekanalların birindəki diskussiyaya baxırdım. Deyirlər ki, demokratiya deyil? Bəli, mən varlıyam, imkanım var, uşağıma təmtəraqlı toy edirəm, sən isə kasıbsan, ayağını yorğanına görə uzat!

İlk baxışda bu, çox “məntiq”li görünür. Amma zahirən belədir. Əslində bu məntiq heç çürük bir qoza da dəyməz! Məsələ bundadır ki, kasıbın da uşaqları var və onlar da insandır...

Bu uşaqlar varlıların necə yaşadığını görür və başlayır öz valideynlərini qınamağa, onlardan tələb etməyə. Yazıq valideyn bu halda nə etsin? O da məcburdur ki, varlılarla ayaqlaşsın, desinlər ki, bəli, bu kişi də heç də geridə qalanlardan deyil, uşağına necə var, toy elədi...

Əslində varlılar uşaqlarının dəyişməsində maraqlı olmalıdırlar. Onların hər biri özünə sual verməlidir: mən bu var-dövləti kimə etibar edib gedirəm? Bu var-dövlət etibarlı əllərdə olacaqmı? Mənim övladlarım onun qədrini biləcəkmi?..

Əks təqdirdə heç əlləşib-vuruşmağa dəyməz. Pul, sərvət qazanmağın asan yolu yoxdur- bunu gərək etiraf edək. Sərvət çətinliklə qazanılır. Ən çətin və ən faciəli məsələ isə bu sərvətin etibarlı ələ düşməməsidir. O halda bir də görürsən ki, hətta qəbir daşları da çat verir...

**“Müxalifətin vəziyyətini qiymətləndirmək üçün gərək vəziyyət olsun. Nə vaxt müxalifət mən yox, biz özünü deyəcək onda vəziyyət də yaranacaq. İndiki şəraitdə xalqın müxalifətə inamı yoxdur. Onların hikkəsi, ambisiyası buna imkan vermir. Bir-birini qəbul etmirlər, aşağılar da onlara inanmır”.**




# “Allah eləməsin ki, Milli Şura ilə Müsavat bir yerdə mitinq eləsin”

## İsgəndər Həmidov: “Müxalifətin daxilində təmizləmə, saflaşma getməlidir”


İsgəndər Həmidov

Bu sözləri Azərbaycan Milliyyətçi Demokrat Partiyasının (AMDP) sədri İsgəndər Həmidov müxalif düşərgədəki situasiyanı təhlil edərkən bildirdi. Onun sözlərinə görə, müxalifətin daxilində təmizləmə, saflaşma getməlidir.

İ.Həmidov Müsavat Partiyasının daxilində qurultaydan sonra baş verənləri də ürəkağrısı ilə izləyir: “Mən istəməzdim ki, belə olsun. Hər iki tərəf dostumdur və seçkinin nəticələrinə də hörmətlə yanaşmaq lazımdır”.

AMDP sədri mitinqlərlə bağlı müzakirələrin gedişindən də danışdı: “Allah eləməsin ki, Milli Şura ilə Müsavat bir yerdə mitinq eləsin. Onlar yaxşısı üz-üzə gələndə hörmətlə salamlaşıb keçsinlər. İsti münasibətləri saxlasınlar və bir-birini təhqir etməsinlər. Müxalifətin yaranmış passiv durumdan çıxış yolu xalqa müraciətdir. Xalqa bəyan olsun ki, seçki boş bir söhbətdir, bu iqtidarın resursları seçkinin saxtalaşdıra bilir və tək yol əhalini təşkilatlandırmaqdır. Necə ki, Rusiyada inqilaba qədər xalqçılar hərəkatı var idi və onlar inqilabi situasiyanı yetişdirirdi. Bu gün müxalifət də xalqla işləməlidir. Mübarizənin yollarını, taktikasını araşdırmaq lazımdır. Əgər həbs təhlükəsindən qorxuruqsa, heç bu yola çıxmamaq yaxşıdır”.

İ.Həmidov ənənəvi müxalifət simalarının yerinə gəncliyin gəlməsi fikri ilə razılaşır: “Mən də arzu edirəm ki, gənclik qabağa çıxsın. Onlara kimsə mane olmur. Müxalifət kabinetdə oturmalı deyil, xalqın içində olmalıdır”.

Partiyanın qurultaya hazırlığından söz açan İ.Həmidov qeyd etdi ki, özündən başqa namizədlər də olacaq: “Qurultaya hazırlıq gedir və hələlik vaxtını təyin etməmişik. Qurultay keçirməklə iş düzəlmir. Xalq sənin yanında olmalıdır, rayonlarda görüşlər keçirməlisən. Biz də bunu düşünürük”. Xatırladaq ki, İ.Həmidov hakimiyyət partiyaya qurultay keçirmək üçün yer verməsə qurultayı meşədə keçirəcəklərini demişdi.

❑ E.SALAMOĞLU

# Avropa Şurasından hakimiyyətə qarşı yeni kurs...

## Elxan Şahinoğlu: “Sanksiya yox, dialoq yolu seçildi və İşçi Qrupun bərpası hökumətin özünün də xoşuna gəlib”

**Qərb Azərbaycan iqtidarı ilə münasibətlərində yeni bir kurs götürüb. Avropa Şurasının baş katibi Torbörn Yaqlandın prezident İlham Əliyevə zəngindən sonra İnsan Haqları üzrə İşçi Qrupunun fəaliyyətinin bərpası belə deməyə əsas yaradıb.**


Elxan Şahinoğlu

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu** Qərbin Azərbaycan hakimiyyətinə yeni baxışını müsbət qiymətləndirir. Politoloqun fikrincə, sanksiyalar iqtidarı daha da sərtləşdirirdi və dialoq yolu seçilməsi münasibətləri yumşaltmaq istiqamətində doğru addımdır.

Siyasi analitik hesab edir ki, Avropa Yay Oyunlarına bir il qalmış İşçi Qrupun bərpası hökumətin öz xoşuna da gəlib.

“İşçi Qrup 2005 -2008-ci illərdə fəaliyyət göstərdi, 177 nəfər məhbus azadlığa çıxdı, sonra buraxıldı. Bu boşluq dövründə həbslər oldu. Ancaq Avropa Şurası çox incə bir diplomatiya həyata keçirdi. Yaqland İlham Əliyevə zəng edərək İşçi Qrupunun bərpasını müzakirə etdi.

Beləliklə, təşəbbüs Avropa Şurasına keçdi. Siyasi məhbusların azadlığa buraxılması yolu sanksiya ilə deyil, dialoq imkanları hərəkətə gətirməklə seçildi. Bu da yumşaq siyasətdir.

Çünki Amerika Dövlət Departamentinin Leyla Yunusla bağlı bəyanatı oldu. Xarici İşlər Nazirliyi, daha sonra Novruz Məmmədov sərt cavab verdi, daxili işlərə qarışmaqda günahlandırdılar. Bu gün də Amerika ilə gərginlik davam edir. Avropa Şurası isə dialoq yolunu seçdi".

E.Şahinoğlu Olimpiya Oyunları ərəfəsində İşçi Qrupun bərpası hökumətə da kömək edəcək: “Hakimiyyət bir tərəfdən siyasi məhbus olmadığını bəyan edir, bir yandan da isə mübahisəli məhbus terminin qəbul edir.

Eyni zamanda hökumət özü də siyasi məhbus probleminin həlli yolunu axtarır. Yadınızdadırsa, Avroviziya oyunlarında Qərb mediası yarışmanı bir kənara qoyub mitinqlərdən, insan haqlarının vəziyyətindən reportajlar təqdim etdi.

İlham Əliyev də bu faktı çıxışında qeyd etmişdi ki, müsabiqədən çox, ölkədəki ictimai-siyasi vəziyyət işıqlandırıldı. Oxşar problemi gələn il yaşamaq istəmirlər. Odur ki, İşçi Qrupun bərpası onların ürəyincə olub.

Hökumət görür ki, Avropa Şurası rəsmi Bakı ilə hesablaşır, onun siyasətini tanıyır. Bu baxımdan dialoq yolu ilə tədricən siyasi məhbus probleminin həlli mümkündür. Bəzi dostlarımız İşçi Qrupun bərpasını faydasız olduğunu yazırlar, siyasi məhbusların azad edilməyəcəyini söyləyirlər.

Amma bir nümunə deyək ki, artıq nəticə var, Hilal Məmmədovu qızının toyuna buraxdılar. Konfutsinin təbirincə desək, fərq etməz ki, rəngi necədir, siçanları tuta biləsən. Madam ki, bir qrup adam azadlığa çıxacaq, onda imkan vermək lazımdır ki, işləsinlər. Sərt yol seçiləndə hakimiyyət də sərtliklə cavab verir. Ona görə də Avropa Şurası yeni bir xətt götürüb. Təki diskussiya yolu ilə ciddi addımlar atılsın".

❑ E.SALAMOĞLU

# Hilal Məmmədov qızının toyuna görə həbsdən buraxıldı


Hilal Məmmədov

**Oktyabrın 22-də Milli Məclisdə İşçi Qrupun ilk iclası keçirilib.**

İclasda qəbul edilən qərara əsasən, “Tolışi sədo” qəzetinin həbsdə olan baş redaktoru Hilal Məmmədova qızının toyunda iştirak etməyə icazə veriləcək. Artıq oktyabrın 23-də H.Məmmədov üç günlük azadlığa buraxılıb və ayın 24-də övladının toyunda iştirak edəcək. İşçi Qrupun üzvü, hüquq müdafiəçisi Səidə Qocamanlı bu qərarı fəaliyyətin ilk qaranquşu hesab edir. Hüquq müdafiəçisi “Yeni Müsavat”a bu qərarla bağlı danışarkən qeyd etdi ki, bu məsələ iclasda qaldırılmışdı və müsbət nəticəsi oldu:

“Prezidentin, Prezident Administrasiyasının, Ədliyyə Nazirliyinin səyləri nəticəsində Hilal Məmmədovun övladının toyuna buraxılması baş verdi. İndi evinə gedəcək və övladının xeyir işində iştirak edəcək. Biz bunu müsbət hal kimi qiymətləndiririk. Hesab edirik ki, qarşımıza qoyduğumuz işin ilk qaranquşudur və gələcəkdə də siyasi məhbusların problemləri ilə bağlı müsbət nəticələr əldə olunacağına ümid edirik”.

**Hilal Məmmədov 2012-ci ilin iyun ayında tutulub, 5 il müddətinə azadlıqdan məhrum edilib. Məhkəmə onu dövlətə xəyanətdə, milli ayrı-seçkilik salmaqda və narkotik ticarətində təqsirli bilib. O, Bakıdakı 17 saylı Cəzaçəkmə Müəssisəsində saxlanır.**

❑ EMİL


Torbyorn Yaqland

# İşçi Qrupun yaradılmasına Qərbdən dəstək gəldi

## ABŞ-ın Azərbaycandakı səfirliyindən və Avropa Şurasının baş katibi Torbyorn Yaqland hakimiyyətin addımını təqdir etdi

**Oktyabrın 22-də Azərbaycanda İnsan Haqları üzrə İşçi Qrup 6 ildən sonra fəaliyyətinin bərpa edilməsi ölkdə çox ciddi siyasi proseslərin anonsu kimi dəyərləndirilir.**

Son vaxtlar ictimai-siyasi təşkilatların fəaliyyətinin məhdudlaşdırılması, vətəndaş cəmiyyəti təmsilçilərinin ən müxtəlif ittihamlarla həbs edilməsi, bank hesablarının dondurulması fonunda 2005-2008-ci illərdə fəaliyyətdə olan, tərkibində hökumət, parlament nümayəndələri və hüquq müdafiəçilərini birləşdirən qrupun fəaliyyətinə "yaşıl işıq" yandırılması heç də gözlənilən deyildi. Düzdür, məhdud sayda ekspertlər - məsələn, "Turan" Agentliyinin direktoru Mehman Əliyev - ölkədə ciddi siyasi proseslərə start veriləcəyi barədə nikbin proqnozlar söyləmişdi və bu barədə "Yeni Müsavat"da geniş materiallar dərc olunmuşdu. Ancaq hətta ABŞ və Avropadan sərt basqıların intensivləşdiyi şəraitdə mövqeyində yumşalma olmayan hakimiyyətin indi proseslərə tam fərqli yanaşma ortaya qoyması xeyli cəlbedici görünür. Əksər müşahidəçilər bu fikirdədir ki, Azərbaycan hakimiyyəti bununla bir daha ölkədaxili problemlərin xarici təzyiqlə deyil, özünün iradəsinə uyğun şəkildə həll etmək iqtidarında olduğunu nümayiş etdirmiş oldu.

ABŞ səfirliyi Azərbaycan hökumətinin atdığı son addımları təqdir etməsi haqqında açıqlama yayıb. ABŞ səfirliyindən musavat.com-a gördərilən həmin açıqlamanın mətnində deyilir: "Birləşmiş Ştatların Azərbaycandakı Səfirliyi Azərbaycan hökumətinin dörd vətəndaş cəmiyyətinin fəalının azadlığa buraxılmasına dair 17 oktyabr tarixli və İnsan Haqları üzrə Birgə İş Qrupunun fəaliyyətinin bərpasına dair 22 oktyabr tarixli qərarlarını alqışlayır. Ümid edirik ki, bu kimi ruhlandırıcı addımlar yerli və beynəlxalq QHT-nin üzləşdiyi məhdudiyyətlərin aradan qaldırılması da daxil olmaqla, əlavə müsbət inkişafa təkan verəcək".

**Avropa Şurasının baş katibi Torbyorn Yaqland** da Azərbaycanda hökumət və vətəndaş cəmiyyəti fəallarının iştirakı ilə problemli məhbuslarla bağlı qrupun fəaliyyətini bərpa etməsini və prezident İlham Əliyevin sonuncu əfv sərəncamını müsbət qiymətləndirib. O, adı siyasi məhbuslar siyahısında keçən bir çox dustağın, o cümlədən REAL Hərəkatının lideri İlqar Məmmədovun azad edilməsinə çağırıb. "Turan"ın məlumatına görə, Yaqlandın bəyanatında xatırladılır ki, problemli məhbuslarla bağlı birgə qrupun fəaliyyəti onunla İlham Əliyev arasındakı razılaşma əsasında bərpa olunub. Yaqland qeyd edib ki, oktyabrın 22-də toplaşan və yenidən formalaşdırılan qrupun iclasında Avropa Şurasının nümayəndələri də iştirak edib.

Qrupda hüquq müdafiəçilərinin, deputatların və Prezident Administrasiyası rəsmilərinin təmsil olunduğunu bildirən Yaqland bunu Azərbaycanda hakimiyyət və vətəndaş cəmiyyəti arasında dialoqun bərpası, ölkədə insan haqları ilə bağlı indiki durumun yaxşılaşdırılması yolunda addım kimi qiymətləndirib.

**Politoloq Zəfər Quliyevin** fikrincə, son hadisələr növbəti dəfə bir şeyi təsdiq etdi ki, bizim hakimiyyətin bir xüsusiyyəti var: "Bütün sahələrdə, istiqamətlərdə faktiki olaraq bu xüsusiyyət özünü göstərir. Yəni hakimiyyət kənar təzyiqlə heç nə etmək istəmir. Hətta lap ən məntiqli, artıq yetişmiş bir məsələdə ona kənardan təzyiq edilirsə, hay-küylə, bəyanatlarla, tələblərlə həyata keçirilməsi məqsədi güdürsə, hakimiyyət əksinə, ya neqativ reaksiya verir, ya da susur, pauza götürür. Hakimiyyət tələb olunan sahələrdə bir çox işləri çox vaxt öz təşəbbüsü ilə həyata keçirtməyə başlayır. Siyasi məhbuslarla bağlı İşçi Qrupun yenidən bərpası onu göstərir ki, hakimiyyət hətta siyasi məhbus məsələsi kimi ən ağrılı bir məsələni öz daxili işi sayır. Eyni zamanda hakimiyyət hesab edir ki, öz istəyi, təşəbbüsü ilə bir qurum yaratmaqla və dialoq şəraitində bu problem tədricən özü həll edə bilər". Z.Quliyev hesab edir ki, əgər bu, deklarativ söz, formal addım olmayacaqsa, İşçi Qrupun fəaliyyəti ilə ən azı vəziyyətin yumşaldılmasına, gərginliyin götürülməsinə nail olmaq mümkündür: "Bir çox istiqamətlərdə bu, tək xarici yox, daxili qüvvələr də bir mesajdır ki, siz imdadı, köməyi həmişə kənarda, beynəlxalq təşkilatlarda, xarici ölkələrdə axtarırsınız, ancaq bir çox problemləri hakimiyyətin müxtəlif strukturları ilə həll etməyə çalışmalısınız. Əgər bütün bu mesajlar adi söz deyilsə, doğrudan da dialoqa çağırışdırsa, bunun müsbət perspektivləri ola bilər". Bununla belə siyasi şərhçi eyforiyanın tərəfdarı deyil: "Yeni eyforiyaya qapılmaq ki, İşçi Qrupu yaradılan kimi böyük amnistiya olacaq və bütün siyasi məhbus sayılan şəxslər hamısı azadlığa çıxarılacaq, ola bilsin bu, çox nikbin proqnozdur. Lakin tədricən, hissə-hissə bu problemi həll etmək olar".

**"Şərq-Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri Ərəstun Oruclu** isə fərqli fikirdədir: "İşçi Qrupu siyasi hakimiyyətə yalnız və yalnız vaxt udmaq, siyasi məhbus mövzusunu gündəmdən çıxartmaq, bu mövzunu arxa plana keçirtmək üçün lazımdır. Ona görə də bu qrup haqqında danışıb onu gündəmə gətirməyin tərəfdarı deyiləm. Mən hesab edirəm ki, bu, bizim diqqətimizi çəkən məsələ deyil".

**Hakimiyyətin ciddi siyasi açılıma hazırlaşmasına inanmayan Ə.Oruclu deyir ki, bunu zaman göstərəcək:** "Mən də düşünürəm ki, ciddi bir proses başlayacaq. Ancaq bu, nə dərəcədə nikbinlik doğuran proses olacaq, deyə bilmərəm". Politoloq dialoq gözləntilərinə də inanmadığını vurğuladı: "Bütün bunlar hamısı taktiki məsələlərdir, vaxt udmaq, sakitlik yaratmaq, tənqidi azaltmaq üçündür. Bunlar hakimiyyət üçün əhəmiyyətli məsələlərdir".

**Milli Məclisin deputatı Fazil Mustafanın** məsələyə reaksiyası aşağıdakı kimi oldu: "İşçi Qrupun fəaliyyətinin yenidən canlandırılmasını ümumiyyətlə, dialoq mühitinin yaradılması istiqamətində ciddi bir tendensiyanın başlanması kimi qiymətləndirmək olar. Bu istiqamətdə Fuad müəllim Azərbaycanın ən ciddi hüquqşünaslarından biridir və onun yanaşması da hakimiyyətin əsas mövqeyi kimi qiymətləndirilməlidir. Müsbət bir şeydir, bütün hallarda bu məsələnin yozumu belə olmalıdır. Gələcəkdə fəaliyyət mənzərəni daha açıq göstərəcək". F.Mustafa hesab edir ki, İşçi Qrupun tərkibində də yeniləşmə aparılmalıdır: "Bunun köhnə tərkibdə olması bir az doğru deyil. Daha fəal QHT-lərin prosesə cəlb olunması işin faydasına olardı".

İnsan hüquqları üzrə işçi qrupunun fəaliyyətinin bərpası Azərbaycan Prezidenti cənab İlham Əliyevin siyasi iradəsinin göstəricisidir və dövlət başçısının bilavasitə razılığı ilə bu qrupun fəaliyyəti bərpa edildi. Bunu "Trend"ə sözü gedən işçi qrupun üzvü, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri, deputat Azay Quliyev deyib. A.Quliyev bildirib ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev ilə Avropa Şurasının baş katibi Torbyorn Yaqland arasında bu məsələ müzakirə olunub və AŞ rəhbərliyi ilə bu qrupun bərpa edilməsinə dair razılıq əldə olunub: "Bu faktın özü Azərbaycan dövlətinin vətəndaş cəmiyyəti ilə dialoqa nə qədər önəm verdiyini bir daha nümayiş etdirdi və vətəndaş cəmiyyəti də öz növbəsində ümumilli məsələlərlə bağlı hakimiyyətlə konstruktiv əməkdaşlığa hazır olduğunu göstərmiş oldu".

**Xatırladaq ki, Azərbaycan vətəndaş cəmiyyətinin və hakimiyyətinin nümayəndələrindən ibarət birgə işçi qrupu Azərbaycan Prezidenti İlham Əliyevin və Avropa Şurasının baş katibi Torbyorn Yaqlandın təşəbbüsü ilə fəaliyyətini bərpa edib.**

❑ **Elşad PAŞASOY**

# ANS-də "ehsan davası"

## Televiziya proqramına qatılan Dini İdarə və Dini Komitə nümayəndələri ehsan mövzusunda mübahisə edib, QMİ ehsan qadağasına qarşı olduğunu açıq şəkildə nümayiş etdirib...



**Qəzetimizin ötən saylarında hökumətin ehsan qadağasının Qafqaz Müsəlmanları İdarəsi (QMİ) ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) arasında soyuqluğa səbəb olması haqqında yazmışdıq. Hətta "Yeni Müsavat" mənbələrə istinadən Şeyxin ehsan qadağasına etiraz olaraq ölkə rəhbərliyinə, DQİDK sədri Mübariz Qurbanlıya etiraz etdiyi haqda xəbər verib. Şeyxin qardaşı, deputat Cavanşir Paşazadə isə mətbuata müsahibəsində ehsan qadağasını repressiya adlandırmışdı.**

Ötən gün ANS televiziyasında "Günə baxan" verilişində qonaq qismində qatılan DQİDK və QMİ nümayəndələri arasında açıq şəkildə mübahisə düşüb. Mübahisənin mövzusu isə ehsan qadağası olub. Dini Komitə əməkdaşı Nahid Məmmədovla Dini İdarə təmsilçisi Surxay Məmmədli arasında söz dueli baş verib.

S.Məmmədli bildirib ki, ehsan verilməsini qadağan etmək olmaz. N.Məmmədov isə bildirib ki, DQİDK ümumiyyətlə, ehsan məclislərinin, israfçılığın əleyhinədir. "Halva, çay ehsan deyil" deyə sual edən N.Məmmədov əsas mübahisənin yas mərasimlərində yemək vermək olmadığını deyib. S.Məmmədli isə deyib ki, heç kim ehsan mərasimini yığışdıra bilməz: "Mən efirdən QMİ-nin nümayəndəsi kimi deyirəm: heç kim, heç zaman ehsan mərasimini yığışdıra bilməz. Bu birmənalıdır".

**Öz növbəsində komitə rəsmisi bildirib ki, hökumətin ehsan süfrələrini ləğv etmək niyyəti yoxdur:** "Biz bu məsələni birmənalı olaraq qoymuşuq ki, bu məsələ yalnız yas mərasimləri ilə bağlıdır və yasda israfın qarşısını almağa hesablanıb. Çünki bununla bağlı bizə şikayətlər gəlib. Bunun İmam Hüseyn (ə) məclislərinə, digər məclislərə aidiyyəti yoxdur. Yalnız israfın qarşısını almaq üçündür".

**S.Məmmədli:**

- Belə çıxır ki, bunun qarşısını almaqla bəzi fərdlər islamı zəiflətmək, yox etmək istəyir. İslamı yox etməklə milli-mənəvi dəyərlərimizi aradan aparmağa çalışırlar.

**N.Məmmədov:**

- Məsələ ehsan mərasimi deyil, məsələ yas mərasimlərindəki israf məsələsidir, qarşıdan gələn Məhərrəmlik aylarında veriləcək ehsanlara bu məsələnin heç bir aidiyyəti yoxdur.

**S.Məmmədli:**

- Ehsan ümumi anlayışdır, gözəllik, xeyirxahlıq mənasındadır. Bu gün mən İmam Hüseyn (ə) üçün, atam üçün ehsan süfrəsi açıram. Bizim ehsan verməkdə məqsədimiz Allahın razılığını qazanmaqdır.

Qeyd edək ki, veriliş boyu tərəflər bir-birinin sözünü kəsərək müdaxilə edib və haqlı olduğunu sübut etməyə çalışıb. Aparıcı Kamran Həsənli isə bildirib ki, bu gün Bakıda bir ölünün yuyulması diri adamın yuyulmasından baha başa gəlir. K.Həsənli Bakı məscidlərində meyitin 80 manata yuyulduğunu söyləyib.

Ümumilikdə hər iki tərəf sona qədər öz fikrində qalıb. Surxay Məmmədli ehsan ənənəsinin qalacağını bildirib. Əslində veriliş hər iki qurum arasında fikir ayrılığını açıq şəkildə ortaya qoyub. Məlum olub ki, QMİ rəhbərliyi ehsan qadağasını ölkədə dini fəaliyyətlərin bir hissəsi kimi görərək bunun qadağan edilməsinə qarşıdır.

**Bu məsələdə Dini Komitənin təklif etdiyi israfa qarşı mübarizə əslində QMİ-nin maraqlarına cavab vermir. Görünən odur ki, hər iki qurumun rəhbərliyinin mövqeyi televiziya verilişinə dəvət alan əməkdaşlara da sirayət edib.**

**Veriliş eyni zamanda daha əvvəl yazdığımız kimi, Şeyxlə komitə rəhbərliyi arasındakı münaqişəni bir daha açıq şəkildə təsdiqləyir.**

❑ **HÜSEYN**

YENİ MÜSAVAT
N 262 (5971) 24 oktyabr 2014



# İsrail səfiri "Khazar İslands"da olub

## "Xəzər adaları" layihəsi dünyanın siyasi və biznes dairələrinin diqqət mərkəzindədir



**Azərbaycanda akkreditasiya olunmuş diplomatik korpusun "Avesta" Konsernin həyata keçirdiyi "Khazar İslands" layihəsinə marağı və diqqəti artmaqda davam edir. "Avesta" Konsernin mətbuat xidmətindən musavat.com-a göndərilən press-relizdə belə deyilir. Məlumatda deyilir ki, Səudiyyə Ərəbistanı Krallığının fövqəladə və səlahiyyətli səfiri Müsaid bin İbrahim əs-Süleymd və Yaponiyanın səfiri Tsuquo Takaxasidən sonra İsrailin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri cənab Rafael Harpaz də "Avesta" Konsernin həyata keçirdiyi "Khazar İslands" layihəsi ilə yerində tanış olmaq üçün layihənin həyata keçirildiyi əraziyə səfər edib.**



Ailəsi ilə bərabər "Khazar İslands"a gedən səfir Rafael Harpazı "Avesta"ın prezidenti Hacı İbrahim Nehrəmli xanımı ilə bərabər qarşılayıb. Səfir Rafael Harpaza layihə haqqında geniş məlumat verən Hacı İbrahim Nehrəmli hörmətli qonağı görülən işlərlə də tanış edib. Səfir Rafael Harpaz "Khazar İslands" layihəsinin sədasının Azərbaycanın sərhədlərini aşaraq bütün dünyada səs saldığını qeyd edib. Gənc bir respublikada belə böyük layihənin həyata keçirilməsinin Azərbaycan dövlətinin sürətli inkişaf yolunda olmasının sübutu olduğunu qeyd edən səfir ölkəsinin iş adamlarının Azərbaycanda fəaliyyət göstərməkdə maraqlı olduğunu vurğulayıb.



"Avesta" Konserninin prezidenti Hacı İbrahim Nehrəmli də İsrail iş adamları ilə əməkdaşlığa hazır olduqlarını, bu əməkdaşlığın dövlətlərarası münasibətlərin daha da inkişafına müsbət təsir göstərəcəyini qeyd edib. Səfir Rafael Harpez İsrailə ilə Azərbaycan arasında münasibətlərin daha da inkişafına, iş adamları arasında əməkdaşlığın dərinləşməsi üçün əlindən gələni edəcəyini bildirib.

"Khazar İslands" layihəsi ilə bağlı səfir Rafael Harpezə geniş məlumat verildikdən və görülən işlərlə tanış edildikdən sonra "Avesta"nın prezidenti Hacı İbrahim Nehrəmli və xanımı hörmətli qonaqların şərəfinə nahar verib.

**Mətbuat xidmətindən musavat.com-a deyiblər ki, müasir dünyanın siyasi və iqtisadi proseslərinə istiqamət verən sənayecə inkişaf etmiş böyük 20 dövlətinin sırasına daxil olan üç ölkənin, Yaponiya, Səudiyyə Ərəbistanı və İsrailin ölkəmizdəki səfirlərinin "Avesta"ın həyata keçirdiyi "Khazar İslands" layihəsi ilə yerində tanış olmaları bu layihənin artıq dünyanın siyasi və biznes dairələrinin diqqət mərkəzində olduğunu bir daha təsdiqləyir. Yaponiya, Səudiyyə Ərəbistanı və İsrailin aparıcı şirkətlərinin "Khazar İslands" layihəsinə qoşulması istiqamətində ilk addımlar atılıb və tezliklə bu ölkələrin dünyaca məşhur şirkətlərini "Xəzər Adaları"nda görə biləcəyik.**

**Oktyabrın 23-də Qafqaz Müsəlmanları İdarəsində (QMİ) Məhərrəm ayının başlanması ilə bağlı müşavirə keçirilib. Müşavirədə QMİ sədri Şeyxülislam Allahşükür Paşazadə və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bir sıra maraqlı açıqlamalar veriblər. Öncə QMİ sədri günün ən aktual mövzularından olan ehsan məsələsindən danışıb.**



APA

# Şeyx və Dini Komitə sədrindən ilginc açıqlamalar

**Şeyx deyib ki, dövlət ehsanın əleyhinə deyil və ola da bilməz.** "Quranda bir neçə yerdə ehsan sözü qeyd edilir. Lakin bəzi insanlar bunu düzgün anlamır. Xalqımızın mentatlitetində belə bir şey var. Deyirlər ki, nə üçün o ehsan verir, mən verə bilmirəm? Gedir balalarının ruzisini kəsir, ehsan verir. O, Allah üçün ehsan vermir, şeytan üçün verir. Allah-Təala buyurur ki, varındırsa, ehsan ver, yoxundursa, vermə".

**A.Paşazadə bildirib ki, yas məclislərində ehsan həddində olmalı və israfçılığa yol verilməməlidir:** "Bəziləri deyir ki, məclisdə halva verilsin, şirinlik verilsin. Bu harda, hansı hədisdə yazılıb? Halva da vermək olar, aş da vermək olar, amma israfa yol verməmək şərtilə".

Onun sözlərinə görə, bir insanın doyması üçün bəs edəcək qədərdən artıq ehsan verilməsi artıq israf hesab edilir.

**Şeyx yaxınlaşmaqda olan Aşura günündə zəncir vurulmamasını xahiş edib:** "Baxın, İŞİD "Allahu-Əkbər!" deyib baş kəsir. Mən bunu başa düşmürəm. "Allahu-Əkbər" hara, baş kəsmək hara?! Onların dəstəkçiləri də Qərb dövlətləridir. Biz onlara imkan verməyəcəyik ki, burada da eyni vəziyyət yaratsınlar".

"Azərbaycanda radikal dini cərəyanların yayılmasına imkan verməyəcəyik. Onların iqtisadi bazasını məhv edəcəyik. İdeoloji bazası ilə mübarizə isə dindarların işidir". Bunu isə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin(DQİDK) sədri Mübariz Qurbanlı söyləyib.

**DQİDK sədri deyib ki, İslam dünyasının içində problemlər yaratmaq istəyən qüvvələr var. İslamın yayılmasını istəməyən qüvvələr müxtəlif vasitələrlə buna mane olmağa çalışıblar:** "Harda qan tökülürsə, orada müsəlman görürük. Dünyadakı münaqişələrin 60 faizi müsəlman ölkələrindədir. İslam ölkələrində radikal qruplar, yeni cərəyanlar yaradaraq İslamı içindən dağıtmaq istəyirlər. Onlar həm şiəliyə, həm sünniliyə, bütövlükdə İslama qarşıdırlar".

M.Qurbanlı "İslam Dövləti" terrorçularının əməllərinə də münasibət bildirib və onu yolverilməz adlandırıb: "Bizdə olan məlumatlara və kəşfiyyat məlumatlarına görə, İŞİD deyilən qruplaşmada kənardan gələnlərin içində azərbaycanlılar ən az sayda olanlardır".



**Allahşükür Paşazadə:**
"İŞİD-in dəstəkçiləri Qərb dövlətləridir"



**Mübariz Qurbanlı:**
"İŞİD-ə qoşulanlardan ən az azərbaycanlılardır"

Onun fikrincə, Azərbaycanda hamı, o cümlədən din xadimləri bu cür radikallığa qarşı çıxmalıdırlar: "Kimsə qan çıxarmaq istəyirsə, bunu Mübariz İbrahimov kimi etməlidir".

M.Qurbanlı deyib ki, İslamdakı iki böyük məzhəb Məhəmməd peyğəmbərin (s.ə.a.s) vəfatından sonra yaranıb, kiçik cərəyanlar isə sonrada ortaya çıxıb: "Çox təəssüf ki, bir sıra İslam ölkələrində müsəlmanlar bir-birinə qarşı tolerantlıq nümayiş etdirə bilmirlər. Çox şükürlər olsun ki, biz bunu Azərbaycanda edə bilmişik".

O qeyd edib ki, ötən əsrin əvvəllərində də Azərbaycanda şiə və sünni məzhəbləri arasında qarşıdurma yaratmağa çalışıblar. Lakin məzhəb liderlərinin müdrikliyi nəticəsində buna yol verilməyib: "Tarixlə savaşmaq lazım deyil. Tarixdən ibrət dərsi götürmək lazımdır. Azərbaycan tarixində bu günədək heç zaman şiələrlə sünnilər arasında qarşıdurma olmayıb".

M.Qurbanlı bildirib ki, Azərbaycanda dini sabitlik yüksək səviyyədədir və ölkədə dinə münasibət qanunlarla tənmzimlənir.

**Məhərrəm ayının başlanması və Aşura gününün qeyd edilməsi məsələsinə toxunan komitə sədri deyib ki, peyğəmbərin (s) nəvəsi İmam Hüseynə (ə.s) silah qaldırmış şəxsləri İslam dünyası bəyənməyib. Həmin şəxslər İslamın dəyərlərində özlərinə yer tapmayıblar, lakin Kərbəla şəhidləri İslamın dəyərlərində özlərinə yer tapıblar:** "Biz Kərbəladakı şəhidlik zirvəsini qeyd edərkən, Azərbaycanda Qarabağ müharibəsini, şəhidlərimizi də xatırlamalıyıq".

Bununla yanaşı, M.Qurbanlı deyib ki, din xadimləri Məhərrəmlik və Aşura haqqında danışarkən deyib ki, hissiyyata qapılmamalıdırlar. Çünki dində hissiyyata qapılmaq yolverilməzdir.

**Mübarız Qurbanlı** da İŞİD-ə qoşulan azərbaycanlılardan da danışıb: "Mən uşaq olanda Gəncədə İmamzadə məscidinə gedirdik. Bizə şərbət verirdilər. Yəni sovet dövründə təzyiqlər olsa da, xalqın bu inancını almaq olmadı. İndi də buna maneəçilik törədilmir. Amma bundan istifadə etməyə çalışanlar var. Biz buna imkan verməyəcəyik. Biz araşdırdıq, İŞİD-ə qoşulanlardan ən az azərbaycanlılardır, əksəriyyət isə xristian dövlətlərindən gəlib. Aşura günü mən və komitənin nümayəndələri məscidlərə baş çəkəcəyik. İctimai asayişi pozan şəxslər haqda tədbir görüləcək".



# Məhərrəmlik oktyabrın 26-da başlayır, noyabrın 4-ü Aşuradır

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılər Şurası Məhərrəm ayının başlanması ilə bağlı fətva verib.Publika.az-ın məlumatına görə, oktyabrın 23-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılər Şurasının iclası keçirilib. İclasda Məhərrəm ayının başlanması ilə bağlı fətva verib.**

QMİ-nin Qazılar Şurasının fətva verib ki, Hicri-qəməri təqvimilə 1435-ci il başa çatır. Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası nəzərinizə çatdırır ki, yeni hicri 1436-cı ilin başlanğıcı - Məhərrəm ayının 1-i miladi təqvimi ilə 2014-cü il oktyabr ayının 26-na təsadüf edir.

**Fətvada deyilir ki, Məhərrəm ayı hicri-qəməri ilinin ayları arasında müqəddəs aylardan biridir:** "Bu ay Həzrət Peyğəmbərin buyurduğu kimi, müharibələrin qadağan olunduğu aylardan biri olmasına baxmayaraq, Aşura günü İslam tarixinə İmam Hüseyn əleyhissəlam və Əhli-Beyt tərəfdarlarının haqq uğrunda şəhadətə yetişdiyi gün kimi daxil olub. Məhərrəm ayının 10-u - Aşura günü 2014-cü il noyabr ayının 4-nə təsadüf edir. Aşura mərasimləri məscidlərdə, ibadət ocaqlarında, habelə icazəli şəkildə ayrılmış xüsusi məkanlarda ictimai asayiş qaydalarına riayət olunmaqla keçirilməlidir. Kütləvi yürüşlər yalnız müvafiq dövlət qurumlarının icazəsi olmaqla təşkil oluna bilər. Təziyə məclislərində Kərbəla şəhidlərinin şəninə xütbələr oxunmalı, Vətənimiz uğrunda şəhid olanların əziz xatirəsi yad edilməlidir. Təziyə keçirilən məkanlarda nizam-intizam gözlənilməlidir. Qurşağadək soyunaraq zəncir, sinə vurmaqla qan çıxarmaq şəriətə uyğun deyil və qınağa səbəb olur. Əzadarlar özlərinə xəsarət yetirməməlidirlər".

Fətvada həmçinin bildirilir ki, son illər təziyə günlərində Qafqaz Müsəlmanları İdarəsinin təşəbbüsü ilə gerçəkləşən və xalqımız tərəfindən təqdir edilən tibbi ehtiyaclar üçün Kərbəla şəhidlərinin xatirəsinə qan verilməsi aksiyalarının təşkili ən münasib əzadarlıq nümunəsidir və bu örnək din xadimləri tərəfindən təbliğ edilməlidir.

# “AXCP 3-4 söyüş söyənin əlində qalıb”

## **İslam Mahmudov:** “Bu təşkilat nə qədər belə cılız, təhqir kampaniyaları ilə məşğul olacaqsa, elə yerində sayacaq”

**Əli Kərimlinin sabiq müşaviri Şakir Abbaslıdan sonra Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) daha bir stajlı üzvü partiyadan istefa verib. Təşkilatın Qubadlı şöbəsinin üzvü İslam Mahmudov mətbuata qısa açıqlamasında istefasının səbəblərini açıqlayıb.**

Sabiq cəbhəçinin bəyanatında deyilir ki, o, 1989-cu ildən AXCP-nin üzvü olub. “Bu gün AXCP-nin rəhbərliyinə daxil olan bir çox şəxslərin cəmiyyətin müxtəlif təbəqələrinə qarşı uğursuz savaş açdıqlarını müşahidə edirəm. AXCP sədri bütün bu yersiz kampaniyalara göz yumursa, o zaman cəmiyyətdə şübhə yaranır ki, kampaniyanın başında şəxsən özü dayanır. Sanki bu partiya məğlubiyyətinin qısasını xalqdan almaq iddiasındadır. Azərbaycanda şərəfli siyasi keçmişi olan bir partiyanın bu cür çirkin kampaniyada yer almasına etiraz olaraq AXCP sıralarından çıxdığımı bəyan edirəm”. Bəyanatda daha sonra bildirilir: “Onu da əlavə etməyi borc bilirəm ki, kimsə mənim AXCP üzvü olmamağım barədə cəfəng iddiaya düşməyə cəhd etməsin. Bunun şahidi olan bütöv bir rayon şöbəsi var. Sonuncu prezident seçkisi zamanı bu partiyanı məntəqə seçki komissiyasında təmsil etmişəm. Bu addımımla bağlı tənqidləri sayğı ilə qarşılayacağam. Amma onu da deyim ki, hər hansı təhqir olacaqsa, bunu edənlərin hər biri beş qatını öz payına alacaq”.

**AXCP təşkilat şöbəsinin müdiri Rafiq Daşdəmirli** facebook səhifəsində sabiq cəbhəçini aşağılayıb: “İslam Mahmudov adlı bir nəfər yazıb ki, AXCP Qubadlı rayon şöbəsinin üzvüyəm və partiyadan istefa verirəm. Təəssüf edirəm. Verirsən ver, kim sənə nə deyir ki. Amma partiya sıralarına gələndə heç belə hay-küylü gəlməmişdiniz. İndi isə bu partiyanın özəlliyi və gücünə bax ki, ordan çıxmaq necə də səsli-haraylıdır. Gedənə yaxşı yol deyərlər. Amma bil ki, sənin əvəzinə onlarla gənc Qubadlı şöbəsinə yeni üzv olub”.

**İstefasının konkret səbəbləri və partiya rəhbərliyinin son reaksiyaları barədə İ.Mahmudovun özü ilə danışdıq. Məlumat üçün deyək ki, sabiq cəbhəçinin istefasında qəzetimizə qarşı partiyada aparılan qaralama kampaniyası da mühüm rol oynayıb və o, açıq şəkildə buna etiraz edib. “Yeni Müsavat”a müsahibəsində Qubadlıda anadan olduğunu, orta məktəbi rayonda bitirdiyini bildirdi:** “İndiki Pedaqoji Universitetin hərbi fakültəsinə qəbul olunsam da, sonradan təhsilimi yarımçıq saxladım, uzaqlaşdım. Sumqayıt Texnoloji Texnikomunu bitirmişəm. Hazırda da işsizəm”.

***- İslam bəy, AXCP funksionerləri sizin istefanızı təşkilat üçün itki saymırlar. Rafiq Daşdəmirli deyib ki, əvəzində Qubadlı təşkilatına onlarla gənc gəlib. Bu barədə nə deyə bilərsiniz?***

- Mən bu fikirlərdən təəccüblənmirəm. Rafiq Daşdəmirli yəqin ki, Cəbhənin köhnə üzvlərindəndir. Ancaq o, AXCP-dən gedənlərin siyahısını qarşısına qoysun və görsün kimlər gedib. Onda itkinin nə olduğunu anlaya bilərlər.

***- Siz neçə illərdir AXCP sıralarında olduğunuz halda doğrudanmı partiyada tanınmayıbsınız?***

- Mən hərəkat başlayandan meydanlardayam. Təbii ki, məni tanıyırlar, şəhərdə rastlaşanda bir-birimizə salam da veririk.

***- Ali Məclisin üzvü olmusunuz?***

- Yox, mən heç vaxt Ali Məclisin üzvü olmamışam, Qubadlı təşkilatında sıravi üzv kimi fəaliyyət göstərmişəm.

***- Həm də Qarabağ döyüşlərinin iştirakçısınınız...***

- Bəli. Hazırda 50 yaşım var. Mən özünümüdafiə dəstələrində döyüşmüşəm. 1990-cı ildən 1993-cü ilin axırına kimi cəbhədə olmuşam. 93-ün axırında da prezident fərmanı ilə könüllülər ordudan buraxıldı. Ancaq mən döyüşçü olmağım barədə danışmağı xoşlamıram. O qədər torpaq itirən adam özünə döyüşçü deməz. Onu da deyim ki, sıravi əsgər kimi cəbhəyə getmişəm, bölük komandiri kimi tərxis olunmuşam.

***- Sizdən bir az əvvəl AXCP-dən istefa verən Şakir Abbaslı da keçmiş döyüşçülərdəndir. İstefa barədə qərarınızı müzakirə etməmişdiniz ki?***

- Yox. Mən Şakir bəyi 20-25 il əvvəl görmüşəm. O vaxt cəbhədə görüşmüşdük. Elə də yaxın tanışlığımız yoxdur. Döyüşçü olaraq tanımışam, sonra da Cəbhə hakimiyyəti dövründə icra başçısı olub. İstefa verərkən heç kimlə məsləhətləşməmişəm. Döyüşçü olmağımıza gəldikdə, nə bilim vallah, köhnə cəbhəçilər hamısı “satqın”, “xəyanətkar” çıxır.

***- Şakir Abbaslı deyib ki, AXCP və rəhbərliyi kənardan idarə olunur...***

- Orda normal insanlar çoxdur. Mənim partiyadan narazılığım yoxdur. Onlardan birinin statusunun altında yazdım ki, sovet hökumətinin zəncirlərini qıran, dörd ölkənin hərbi birləşməsi ilə üz-üzə dayanan, indiki hakimiyyəti diz üstə çökdürən AXCP görün nə hala düşüb, 3-4 söyüş söyənin əlində qalıb.

***- Kimdir partiyanı idarə edən söyüşcüllər?***

- Yox, ad çəkməyə ehtiyac yoxdur. Bir də ki, məlum məsələdir.

***- Niyə partiya sədri onları dayandırmır?***

- Nə bilim. Ya gücü çatmır, ya da ki...

***- Məgər Əli Kərimli də sizin kimi illərini partiyaya vermiş adamları itki hesab etmir?***

- Elə bilirəm sədr o adamları bir az durdurdu. Sizin həmkarınız Azər Rəşidoğlunun məsələsində.



**“Onlara da heç bir sözüm yoxdur; bir kəlmə deyirəm: Allah şəfa versin!”**

***- Bundan sonra fəaliyyətiniz nədən ibarət olacaq?***

- Yenə də həmin əqidədəyəm. Ancaq mövcud partiyaların heç birinə üzv olmadan fəaliyyət göstərəcəyəm.

***- AXCP-nin gələcəyini necə görürsünüz?***

- Təşkilat nə qədər ki, belə cılız, söyüş kampaniyaları ilə məşğul olacaqsa, elə yerində sayacaq.

***- Cəbhə daxilində Müsavatla bağlı nə baş verir?***

- Cılız söyüşmələr, başqa heç nə. Müsavat və AXCP elə bir təşkilatdır. Bütün cəbhəçilər müsavatçı, müsavatçılar cəbhəçidir. Mən köhnələrdən danışıram, təzələrdən yox. Bunların da davası hakimiyyətdən başqa heç kimə sərf eləmir.

***- AXCP-də “Yeni Müsavat”a qarşı qəzəbin kökündə nə dayanır?***

- Vallah, mən təkcə “Yeni Müsavat”ı demirəm, ümumiyyətlə, hər hansı bir partiyanın mətbuata qarşı savaş açması onun özünün məğlubiyyətindən başqa bir şey deyil.

***- Bildiyimə görə sizin istefanızı sürətləndirən həm də “Yeni Müsavat”a qarşı müharibəyə etiraz etməyiniz olub.***

- Bəli. Mən bu qəzetə, orda işləyənlərə böhtan atılmasına dözə bilməzdim. Normal insanın vicdanı bunu götürməz. Azər Rəşidoğlu kimi birisinə böhtan atmaq ən azından günahdır. Tənqidə dözməyənlər bu yola əl atır. Sevinmək əvəzinə ki, onları tənqid edən, qüsurları göstərən var, cılız kampaniyalar aparırlar. Bütün bu söhbətlərə görə mənim orda qalmağım mümkün olmadı.

***- Rəhbərlikdən kimsə sizinlə əlaqə saxlayıb istefa fikrinizi dəyişməyə çalışmadı ki?***

- Yox. Yenə də söyüş söyənlər oldu. Onlara da heç bir sözüm yoxdur. Bir kəlmə deyirəm: Allah şəfa versin!

❑ **E.PAŞASOY**

# İnamı sarsılan düşməndirmi?



**Azər RƏŞİDOĞLU**

**Siyasətdə mümkün olmayan nəsnə yoxdur. Artıq inanılmaz görünən tərfdaşlıqlar yenidən aktuallaşa bilər. Azərbaycan siyasətində “Qərb amili” mühüm rol oynayır. Müxalifətin əsas söz sahibləri üçün Qərbdən gələn mesajlar olduqca önəmli hesab edilir. Əgər, Qərb siyasi dairələri 2015-ci ildə yenidən Müsavat-AXCP blokunu formalaşdırmağı təklif etsə, hər iki partiya buna razı olacaq.**

Düzdür, indi çoxlarını başqa sual düşündürür - Qərb yenidən belə bir model üzərində düşünmək istəyəcəkmi, yoxsa növbəti parlament seçkilərinə tamamilə yeni, nisbətən gənc və birbaşa özündən asılı olan simaların iştirakını arzu edəcək? Bu sual hələ açıq qalır. Lakin istənilən halda köhnə model əsas elementlərdən biri kimi çıxış etməli olacaq. Odur ki, daxili savaşlarda balta silkələyənlər məslində bütün bunların nələrə gətirib çıxarda biləcəyini də anlamalıdırlar.

Seçkiyə çox qalmayıb. Bütün məqsədlər bu istiqamətdə atılmalıdır. Partiyadaxili və düşərgədaxili hay-küylər buna imkan vermir.

Məqsəd demokratik dəyişikliklərə səbəb olmaqdan gedirsə, hədəflər də bəlli olmalıdır. Artıq indidən seçkilərə ciddi şəkildə hazırlaşmaq daha məqsədəuyğun ola bilərdi.

Ümumiyyətlə, Azərbaycan siyasətində ən böyük çatışmazlıq ideologiya boşluğudur. İnsanlar siyasətə ideyalar naminə deyil, müəyyən simalara dəstək vermək üçün gəlirlər. Zaman keçdikdə isə liderlərə bəslənən inamlar sarsılır, rəğbət azalır.

İnamı qaytarmaq əvəzinə, inamı sarsılanı düşmənə çevirmək müşahidə edilir. İdeologiyaya rəğbət isə uzun müddət davam edir və bir həyat tərzinə çevrilir. Lider ətrafında deyil, ideya ətrafında birləşən insanlar proseslərə daha konseptual yanaşırlar. Elə bu səbəbdən də uğura daha yaxın olurlar.

Kimisə düşmən çıxartmaq, xəyanətdə suçlamaq maksimalizmin təzahürüdür. Bolşevikcəsinə dəyərləndirmə son dərəcə ciddi fəsadlara yol açır.

Liderlik missiyası birləşdiriciliyə xidmət etməlidir. Lider ideologiyaya söykənəndə onun ətrafında daha ardıcıl mübarizə tərəfdarı olanlar toplanır.

Müşahidə olunan vəziyyətin əsas səbəblərindən biri də cəmiyyətin siyasi savadının yetərincə olmamasındadır. Hər bir xalqın özünə layiq hakimiyyəti və müxalifəti olur. Demokratiyaya və rüşvətsiz yaşamağa hazır olmayan xalq kimlərinsə süfrəsinin bəzəyi olmalıdır.

Böyük dəyişikliklər böyük ideyalar müqabilində həyata keçirilir. Bu gün kardinal dəyişiklikləri həyata keçirmək ideyasında olanların özlərinin də dəyişməsi lazım gəlir.

Azərbaycanda siyasətçilərin əksəriyyətinin ciddi konsepsiyalar barədə anlayışı belə mövcud deyil.

Kimisə xəyanətkar adlandırıb, baş qatmaqla siyasi uğurlara imza atmaq mümkün deyil.

Xalqın siyasi mübarizəsini səmərəli edə bilməkdən ötrü ciddi konsepsiyalar ortaya qoyulmalı, mübarizənin taktiki gedişləri ilə yanaşı, strategiyası da hazırlanmalıdır.

Hazırkı durum xalq, iqtidar, müxalifət amilinə bir daha qiymət verməyi labüd edir. Bu məsələlərə dəqiq, soyuqqanlı qiymətin verilməsi əsasdır. Xalq son dərəcə zəifdir. Ortada xalqı birləşdirəcək bir ideologiya da mövcud deyil.

Proseslərə emosional yanaşmalar, konsepsiyaların hazırlanmaması acınacaqlı mənzərə yaradıb.

Daxili düşmən axtarışı ilə uzağa getmək mümkün deyil. Qarşıdan gələn mərhələdə siyasi mübarizəni daha konseptual aparmaq lazım gəlir. Bu isə artıq ideoloqların işidir. Siyasətçilər ideoloqların hazırladıqları ideologiyalar üzrə fəaliyyət göstərməkdən yayına bilmirlər. Odur ki, avtoritarizmə qarşı mübarizənin konseptual baxışlarını hazırlamaq üçün “beyin fırtınası”na ehtiyac yaranır. Azərbaycanda “beyin fırtınası” bir qayda olaraq “düşmən axtarışı” ilə məhdudlaşır. Belə siyasətin sonu isə acınacaqlı olmaya bilməz.

**Bu gedişatla parlament seçkilərinə qatılmaq uğursuzluqlara yol aça bilər. Artıq indidən əsas hədəf kimi parlament seçkilərini seçmək lazım gəlir. Müxalifətin bir-birləri ilə savaşa hələ vaxtı olacaq...**



# Qanadlı yumurta

Zamin HACI
zaminhaci@gmail.com

**Vasif müəllim Naxçıvandakı məşhur Əlincə qalasını təmir etdirir. Təmir deyəndə, əslində təzədən tikir, mən obyektin fotolarına internetdə baxdım, çox sevindim. Belə lazımdır. Qoy yadelli düşmənlər bilsinlər ki, biz istəsək azıxantropu bərpa edib Füzuli rayonuna icra hakimiyyəti başçısı qoya da bilərik. Buna hər cür imkanlarımız vardır.**

Elmi baxımdan da yaradıcı gənclər yetişir. Misal üçün, 21 oktyabrda Bakı Dövlət Universitetində “Red Bull” enerji içkiləri firmasının müsabiqəsi keçirilmişdir. Gəlin həmin xəbərin, Anadolu türkləri demişkən, özətini AzərTAc dövlət agentliyindən oxuyaq:

“İki istənilən cism bir-birini onların kütlələri ilə düz və arasındakı məsafənin kvadratı ilə tərs mütənasib olan qüvvə ilə cəzb edirlər. İsaak Nyuton tərəfindən açılmış ümumdünya cazibə qanunu məhz belə səslənir. Azərbaycan tələbələri bu iddiayla bəhsə girməyə və daha bir gündəlik həqiqəti - dünyada hər şeyin nisbi olduğunu əyani nümayiş etdirməyə qərar verdi.

AzərTAc xəbər verir ki, Bakı Dövlət Universitetinin ərazisində Yerin cazibə qüvvəsini keçməyə çalışan texniki ixtiraların hazırlanması üzrə, tələbə komandalarının arasında keçirilən “Red Bull Gravity Challenge” müsabiqəsi keçirilib. Tapşırığa əsasən gənclər çiy toyuq yumurtasını 15 metrlik hündürlükdən Yer səthinə, sınmadan endirə biləcək kreativ aparat yaratmalı idilər.

“Red Bull Gravity Challenge” müsabiqəsində, hər biri üç nəfərdən ibarət olan 26 komanda iştirak etdi. Müsabiqədə Bakı Dövlət Universitetinin, Azərbaycan Dövlət Neft Akademiyasının, Azərbaycan Dillər Universitetinin, Azərbaycan Dövlət İncəsənət Akademiyasının, Azərbaycan Texniki Universitetinin, Azərbaycan Dövlət İqtisadiyyat Universitetinin, Dövlət Aviasiya Akademiyasının, “Qafqaz” Universitetinin, Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun və Azərbaycan Turizm İnstitutunun tələbələri iştirak etdilər.

Küləkli hava iştirakçıların qarşısında qoyulmuş məqsədi çətinləşdirsə də, əksər komandaların çıxışları müvəffəqiyyətlə sona çatdı. Müsabiqədə 22 bal ilə BDU-nun “Cats Avengers” komandası qanadlı yumurta şəklində tunc kubokun və 150 AZN mükafatın sahibi oldu. 25 bal toplamış ADNA-nın “Android” komandası gümüş kubokun və 300 AZN mükafatın sahibi oldu. “Red Bull Gravity Challenge” müsabiqəsinin qalibi, 450 AZN mükafatın və qızıl kubokun sahibi rekord 28 bal toplamış BDU-nun “Wingers” komandası oldu”.

Bəh-bəhE Mən 3-4 gündür bu hadisənin təəssüratları altındayam, özümə gələ bilmirəm. Görün bizim universitetlərdə necə savadlı tələbələr yetişir, yumurtanı qanadlandırırlar, cazibə qüvvəsini “sındırırlar”. Fəxr ediləsi uşaqlardır. Bu gənclər sabah Qarabağı da alacaqdır!

Universitetlərimizin çiy yumurtanı sağ-salamat yerə endirməsi elmi-praktik cəhətdən çox səmərəli hadisədir. Misal üçün, görürsən tələbə kənddən Bakıya gəlir, valideynləri ona kənd toyuğu yumurtası payı qoyurlar, yolda bunlar sınır, intellektual nəqliyyatımız bulanır. Sovet dövründə kəndlilər belə yumurtaları qəzet kağızına bükürdülər, ancaq indi qəzet satışı demək olar ləğv edilibdir, qəzet oxuyan tələbə isə qar bəbiri kimi nadir canlıdır. Bəs nə etməli? Kənd yumurtasını universitetə necə çatdırmalı? Gördüyünüz kimi, tələbələrimiz, türkün sözü, öz yumurtalarını qanadlandırmağı bacarırlar. Bu gün yumurta uçurdan, sabah toyuq tükündən raket qayırar. Elmimiz hər cür inkişaf edir, bu münasibətlə hamınızı sevinməyə çağırıram.

**“Red Bull” universitetlərimizi “qanadlandırır”, indi gərək başqa şirkətlərin də elmi təcrübələrinə ali məktəblərimiz cəlb olunsunlar. Misal üçün, deyilənə görə “Coca Cola” ülgücü əridir. Tələbələr arasında ülgücü əritmədən “Cola”dan çıxartma yarışları qayırılsa, millətimiz çox şad olmazmı? Sonra həmin ülgüclə imkansız ailələrin uşaqlarını sünnət eləmək layihəsi həyata keçirilməsi üçün prezident yanında Qeyri-Hökumət Təşkilatları Şurasına müraciət oluna bilər, nəticədə bir daşla iki quş vurular.**

# Sülh danışıqlarında təhlükəli “əl dəyişmə”



# Prezidentlərin Paris görüşü ilə bağlı şok gözlənti - xəbər, şərh

## Fransa paytaxtında konkret sənəd imzalanacağı haqda iddialar ciddiləşir; Rusiyanı fakt qarşısında qoymağı hədəfləyən Qərbin Qarabağa dair “şotland ssenarisi” üçün hüquqi baza yaratmağa hazırlaşdığı deyilir; diplomatik mənbə: “Vaşinqton və Paris Bakının üzərinə rəsmən separatçı rejimə öz müqəddəratı təyinetmə haqqı tanımaq öhdəliyi qoymaq niyyətindədir...”

**Azərbaycan və Ermənistan prezidentlərinin Paris görüşünə sayılı günlər qaldı. Fransa prezidenti Fransua Olandın təşəbbüsü ilə, oktyabrın 27-də reallaşacağı gözlənilən yüksək səviyyəli təmasla bağlı son günlər müxtəlif təxminlər və versiyalar səslənməkdədir. Onların arasında informasiya xarakterli olanlar təbii ki, daha çox diqqət çəkir.**

“Əsas odur ki, Paris görüşü hesabına Qarabağ münaqişəsi tərəfləri arasında etimad yaransın”.

Musavat.com-un erməni KİV-lərə istinadən verdiyi xəbərə görə, bunu dünən İrəvandakı mətbuat konfransında Fransanın bu ölkədəki səfiri Anri Reno Paris görüşündən dolayı gözləntiləri şərh edərkən deyib.

“Yaxın günlərdə Parisdə İlham Əliyev-Serj Sərkisyan görüşü olacaq. Diplomatik təfərrüatlara varmadan qeyd edim ki, görüş nizamlama prosesinə konfliktin həllinə yönəlik yeni impuls verəcək. Vacib olan odur ki, hər iki tərəf etimad atmosferi yarada bilsin”, - deyə diplomat qeyd edib diplomat.

Onun sözlərinə görə, Paris zirvəsi həmçinin problemin dinc yolla həllinə alternativ olmadığının təsdiqi olacaq. Ardınca diplomat danışıqların “şifrələrini” açacaq maraqlı bir cümlə işlədib. Əlavə edib ki, müzakirələrin əsasında üç prinsip duracaq: “Ərazi bütövlüyü, millətlərin öz müqəddəratını təyinetmə haqqı və güc tətbiqindən imtina”.

O da diqqətçəkicidir ki, görüş ərəfəsi Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov qəfildən Bakının “Böyük Sülh Sazişi” üzərində işi bərpa eləməyə hazır olduğunu bəyan edib. Yerli və xarici təhlilçilər bu xüsusda prezidentlərin Paris görüşünü həm situativ, həm təşəbbüskarlıq, həm də produktivlik baxımından əvvəlkilərdən kifayət qədər fərqləndiyi qənaətindədir.

****

“Azərbaycan və Ermənistan prezidentlərinin yaxın günlərdə Parisdə baş tutacaq danışıqlarında Dağlıq Qarabağ münaqişəsinə dair birgə bəyanatın imzalanması gözlənilir”. Bunu isə virtualaz.org-un məlumatına görə, erməni mətbuatı yazıb. “Aykakan Jamanax” qəzetinin diplomatik qaynaqlara istinadən yaydığı xəbərdə bildirilir ki, Fransa prezidenti İlham Əliyevlə Serj Sərkisyanın birgə bəyannamə imzalamasına nail olmağa çalışır.

**Lakin birgə bəyanatın imzalanması məsələsinin hələ ki, açıq qaldığı da deyilir. Bildirilir ki, Fransua Olland əvvəlcə İlham Əliyevlə və Serj Sərkisyanla ayrılıqda görüşəcək. Daha sonra görüşlər üçtərəfli formatda davam edəcək. Minsk Qrupu həmsədrlərinin də prezidentlərin görüşü ilə bağlı Parisə çağırıldığı xəbərlər sırasındadır.**

****

Xatırladaq ki, 20 ildir davam edən danışıqlar ərzində Azərbaycan və Ermənistan prezidentləri tərəfindən münaqişəyə dair imzalanan yeganə sənəd 2008-ci ilin payızında Moskvada imzalanmış Mayndroff bəyannaməsidir. Həmin vaxt Rusiya prezidenti Dmitri Medvedyevin vasitəçiliyi ilə bir araya gələn prezidentlər münaqişənin yalnız sülh yolu ilə nizamlanmasının vacibliyi, güc tətbiqindən çəkinməyə çağırışlar və tərəflər arasında etimadı artırmaq üçün humanitar mahiyyətli addımların atılması haqda müddəaların yer aldığı birgə bəyannaməyə imza atmışdılar. Bu, danışıqlar prosesində imza atılmış ilk birgə sənəd olduğu üçün xeyli müzakirə olundu. Lakin münaqişənin nizamlanmasına dair razılaşmanın əldə edilməsinə gətirmədi.

Fransalı səfir Renonun açıqlamasından isə aydın olur ki, indi də ABŞ və Fransanın timsalında Qərb sülh prosesinin hazırkı mərhələsini konkret sənədlə yekunlaşdırmaq üçün ciddi cəbalar içindədir. O da bəlli olur ki, həmin sənəd diplomatın qeyd elədiyi 3 prinsip əsasında təsəvvür edilir. Bu isə əslində Azərbaycanın köklü maraqları ilə uzlaşmır, çünki ən azı, işğal faktını arxa plana keçirir, problemin Ermənistanın ərazi iddiasından deyil, Dağlıq Qarabağ əhalisinin “öz müqəddəratını təyinetmə” mübarizəsindən qaynaqlandığı haqda dünyada yanlış rəy formalaşdırır.

Az öncə “Yeni Müsavat” olaraq bu fikri inkişaf etdirərək yazmışdıq ki, Qərb tədricən Azərbaycanı həmin 3 prinsip əsasında “şotland variantı”na hazırlamaq istəyir. Yəni Qərb problemi Rusiyanın nəzarətindən çıxarmaq üçün Azərbaycanın köklü maraqları hesabına da olsa, öz ssenarisini işə salmaqda israrlı görünür. Burada ca əlavə edək ki, amerikalı həmsədr Ceynms Uorlikin bu ilin yayında irəli sürdüyü 6 bəndlik həll təklifi də özündə çox incə və hiyləgər şəkildə “şotland ssenarisi”ni ehtiva edir.

Bəzi siyasi şərhçilər də 3 prinsipin “şotland variantı”nın hüquqi təməli üçün kifayət etdiyini düşünürlər. Qərb isə bu prinsiplərin Parisdə legitimləşdirilməsində ən əvvəl ona görə israrlıdır ki, bəlli səbəblərdən gərgin münasibətlərdə olduğu Rusiyanı münaqişə tərəflərinə, regiona olduqca mühüm təsir və şantaj rıçaqlarından birindən məhrum eləsin. Söhbət Kreml tərəfindən özünə əlverişli məqamda münaqişə tərəflərindən birini savaşa qızışdırmaqdan gedir. Ancaq məntiqlə Azərbaycanla Ermənistan arasında güc tətbiq eləməmək öhdəliyi varsa (3-cü prinsip), o zaman belə təhdid avtomatik aradan qalxmış olur.

****

Azərbaycan və onun suverenliyi, ərazi bütövlüyü üçün ən təhlükəlisi isə əlbəttə ki, ölkəmizə sırınmağa çalışılan ikinci - öz müqəddəratı təyinetmə prinsipidir. Çünki nizamlamanın yekun mərhələsində həmin hüquqi prinsip Azərbaycanın ərazi bütövlüyünü alver predmetinə çevirə bilər.

**Əminik ki, Azərbaycan rəhbərliyi təhlükənin fərqindədir və Paris görüşündə o, ölkəmiz üçün “qırmızı xətləri” bir daha vasitəçi ölkələrin nəzər-diqqətinə çatdıracaq, Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaranmasına kiçicik belə hüquqi əsas yaradacaq istənilən məkrli sənədi imzalamaqdan vaz keçəcək.**

❑ Siyasət şöbəsi

# Ağ Evdə terror həyəcanı



**Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqtonda növbəti dəfə Ağ Evə hücum cəhdi olub. CNN telekanalının məlumatına görə, silahsız olduğu bildirilən bir gənc prezident iqamətgahına daxil olmağa cəhd edib.**

Onun Merilend ştatının Dominik Adesanya adlı 23 yaşlı sakini olduğu bildirilir. Həmin şəxs Ağ Evin hasarından atlayaraq, binaya daxil olmağa çalışıb, lakin gözətçi itlərinin hücumuna məruz qalıb. Hadisə anbaan kameralara düşüb.

İnsident nəticəsində həmin şəxs xəsarət alaraq xəstəxanaya yerləşdirilib. Onun motivləri isə hələlik məlum deyil.

Ötən ay da 2 sutka ərzində Ağ Evə 2 analoji hücumun qarşısı alınmışdı.

YENİ MÜSAVAT
N 262 (5971) 24 oktyabr 2014

# Arif Hacılı "təmizləmə" aparmayacağını bəyan etdi

## "Belə bir siyasətin Müsavat Partiyasında həyata keçirilməsi qeyri-mümkündür"

**Oktyabrın 25-də saat 10-da Müsavat Partiyası Məclisinin toplantısı olacaq. Toplantıda Məclisə boş qalan yerlərə, MNTK-ya və Divana seçkilər keçiriləcək. Müsavat Partiyasında qurultaydan sonrakı dövr ərzində gedən proseslər Məclisin toplantısının maraqlı keçəcəyini söyləməyə əsas verir. Dünən Müsavat başqanı Arif Hacılı ilə onun kabinetində görüşüb gedən partiyada qurultaydan sonra gedən proseslər, irəli sürülən iddia və ittihamlar, gözləntilər barədə suallarımızı ünvanladıq.**

***- Oktyabrın 25-də keçiriləcək Məclislə bağlı proqnozlarınız necədir, Məclisdə problemlər yaşana bilərmi? Keçən Məclisdə MNTK-da boş yerlərə namizədlərdən heç kim seçilə bilmədi. Bu dəfə də eyni vəziyyət təkrarlana bilərmi və belə vəziyyət partiyaya zərər vururmu?***

- 11 oktyabrda keçirilən Məclis normal, işgüzar keçdi. Təəssüf ki, ciddi seçki rəqabəti nəticəsində MNTK-ya boş qalan yerlərə seçilən olmadı və sərbəst Məclis üzvlüyünə verilən namizədlərin böyük əksəriyyəti seçkilərdə iştirak edənlərin əksəriyyətinin səsini alsa da Məclis üzvlərinin ümumi sayının əksəriyyətinin səsini ala bilmədi. Bütövlükdə isə Məclis kifayət qədər səmərəli oldu, hər hansı problemlər yaşanmadı. Düşünürəm ki, 25 oktyabrda keçiriləcək Məclisdə də problemlər yaşanmayacaq. Fırtınalar əsasən sosial şəbəkələrdə və mətbuatdadır. Partiyanın strukturları öz normal gündəlik fəaliyyətini davam etdirir. Yaxın zamanlarda strukturların formalaşması prosesi başa çatdıqdan sonra partiyanın fəaliyyəti daha çevik, daha dinamik olacaq.

***- Bir çoxlarında belə rəy var ki, MNTK tam formalaşan kimi həmin qurum sizin göstərişinizlə hərəkətə keçəcək, partiyada təmizləmələrə başlayacaq. Bugünlərdə Osman Kazımov tərəfindən partiyada təmizləmələrə başlanmalıdır təklifinin irəli sürülməsinin də bunun anonsu olduğunu düşünənlər var. Bu çağırışlarına münasibətiniz necədir? Cəza tədbirlərinə, təmizləmələrə başlayacaqsınız?***

- Mən insanların öz fikirlərini açıq surətdə ifadə edə bilməsini azad cəmiyyətin qurulması üçün vacib şərt sayıram. Plüralizmi, ictimai diskussiyaları demokratiyanın, təşkilatın inkişafı baxımından həmişə əhəmiyyətli hesab etmişəm. Təbii ki, heç bir partiya üzvü fərqli mövqeyinə, fərqli düşüncəsinə görə cəzalandırıla bilməz. Müsavatda buna heç vaxt yol verilməyəcək. Əksinə biz diskussiyalar şəraitini, plüralizmi, fikirlərin açıq şəkildə ifadə edilməsinə şəraitini həmişə yaxşılaşdırmağa çalışmışıq. Bu cür davranış qaydaları daha da inkişaf etdiriləcək. Mərkəzi Nəzarət Təftiş Komissiyası Müsavat Partiyasının ali orqanlarından biridir. Yaxşı haldır ki, uzun illər olan fasilədən sonra MNTK nəhayət fəaliyyətə başlayıb. Yəqin ki, növbəti Məclisdə MNTK-nın tərkibi tam şəkildə formalaşacaq. Bu qurum partiya içində olan narazılıqlarla bağlı şikayət ərizələrinə baxacaq və müvafiq qərarlar qəbul edəcək. Bizim MNTK-ya hər hansı göstəriş vermək səlahiyyətimiz yoxdur. MNTK müstəqil və yalnız qurultay qarşısında hesabat verən bir qurumdur. Ancaq hər halda MNTK-nın üzvləri də bizim partiyada silahdaşlarımızdır, onlardan da xahiş edəcəyik ki,

**"Müsavata daxil olan maliyyə vəsaitlərinin həcmi barədə məndə məlumat yoxdur, heç vaxt maliyyəyə sərəncam vermək hüququ olan görəv daşımamışam"**

heç kəsə fikirlərinə, işlətdiyi ifadələrə görə ağır cəza verməsinlər. Təmizləmə siyasəti aparılmayacaq. Belə bir siyasətin Müsavat Partiyasında aparılması qeyri-mümkündür. Müsavat Partiyasının içində fərqli düşünən insanlar var. Təəssüf ki, seçki kampaniyası kontekstində bu düşüncələrin gözünə bəzi təhqirlər, böhtanlar, qeyri-etik ifadələr qatışdı. Yəqin ki, bu məsələlər həm rayon təşkilatları strukturlarında, eyni zamanda MNTK-da müzakirə olunaraq müvafiq qərarlar qəbul ediləcək. Mən Müsavat Partiyasının başqanı kimi çalışacağam ki, cəzalar ağır olmasın. Müsavat Partiyasında ən ağır cəza partiya sıralarından çıxarılmaq cəzasıdır. Ancaq xəbərdarlıq edilməsi, töhmət verilməsi kimi cəzalar da var. Mən istərdim ki, xəbərdarlıq və töhmətə daha çox üstünlük verilsin.

***- Müsavat başqanının səlahiyyəti varmı MNTK-nın qərarı olmadan partiya üzvünü partiyadan xaric etsin?***

- Nəinki başqanın, heç partiya qurultayının da belə bir səlahiyyəti yoxdur. Partiya üzvünə hər hansı cəza vermək rayon təşkilatlarının, MNTK-nın və Divanın səlahiyyətidir.

***- Sizin barışdırıcı mövqedən çıxış etməyinizə, ötən həftə hər kəslə qucaqlaşmağa hazır olmaq barədə çağırışınıza narazıların bəzi təmsilçiləri ironiya münasibət bildirdilər. Eyni zamanda telekanalların apardığı birtərəfli anti-Müsavat təbliğatında da həmin şəxslər kəskin ittihamlarla çıxış edirlər. Bu ittiham və açıqlamaların içində həçmi Nizamnamə pozuntuları yoxdur?***

- Nizamnamə pozuntularının olub-olmamasını müəyyənləşdirmək səlahiyyətimə aid deyil. Bunu rayon təşkilatlarının müvafiq strukturları və MNTK araşdıracaq. Əgər müraciətlər olacaqsa, partiyanın yeni Divanı da bu məsələləri müzakirə edə bilər. Sadəcə, mən Müsavat Partiyasının hər bir üzvünün davranışlarına, fəaliyyətinə və taleyinə məsul olan bir vəzifə daşıyıram. Ona görə də hər kəsin fikirlərinin motivlərini axtarmağa, kəskin mövqelərin ortalığa çıxmasının səbəblərini araşdırıb bu səbəbləri aradan qaldırmağa çalışacağam.

***- Partiyadan çıxanlar barədə səsləndirdiyiniz "həmin şəxslər Rəsulzadənin ruhuna və müsavatçılığa xəyanət ediblər" açıqlamanızı narazılar Sizə qarşı istifadə edərək bildirdilər ki, partiyanın başqanı gərək partiya üzvləri haqqında bu cür ifadələr işlətməsin. Doğrudanmı başqan partiya üzvlərinin hərəkətinə münasibət bildirməməlidir?***

- Plüralizm hər kəsə, o cümlədən Müsavat Partiyasının başqanına aiddir. Hər kəs öz fikirlərini azad surətdə ifadə etmək hüququna malikdirsə, kimsə bu hüquqdan məhrum edilə bilməz. Ancaq öz düşüncə və dünyagörüşümə görə, bu məsələlərdə fərqli mövqeyim var. Mən partiya üzvləri haqqında hər hansı bir fikir işlətməmişəm. Partiyadan çıxmış adamlar haqda həmin fikirləri də 300 nəfərin qoşula biləcəyi daxili qrupda yazmışam. Partiyada mənə qarşı partiyadan çıxmış o adamlardan daha sərt mövqedə olan, daha ciddi təftişçilik mövqeyində olan adamlar var. Partiyadan çıxmağı doğrudan da indiki şəraitdə silahdaşları yarı yolda qoymaq, çətinlikdə silahdaşlardan ayrılmaq kimi dəyərləndirirəm. Daxili qrupdakı statusum da partiyadan istefaların qarşısını almağa yönəlib.

***- Səxavət Əlisoy və digər bir neçə narazılıq edənlər son vaxtlar verdikləri açıqlamalarda parlament və prezident seçkiləri dövrlərində seçki qərargahına ayrılmış pulların hesabatının verilməsini tələb edirlər. İttiham xarakterli bu tələblərə birdəfəlik son qoyulması üçün deyəcəkləriniz varmı?***

- Müsavat Partiyasına daxil olan maliyyə vəsaitlərinin həcmi barədə məndə məlumat yoxdur. Heç vaxt maliyyəyə sərəncam vermək hüququ olan görəv daşımamışam. Seçki kampaniyaları dövründə seçki qərargahına ayrılan maliyyə vəsaitləri barədə Müsavat Partiyasının başqanına, partiyanın müvafiq strukturlarına, eyni zamanda Mərkəzi Seçki Komissiyasına yazılı hesabat verilib.



**"Qurultayda mənə səs vermədiyini açıq bildirmiş qurultay nümayəndələrinin böyük əksəriyyəti ilə görüşmüşəm"**

***- Narazıların bəziləri isə bildiriblər ki, 100 illik Müsavatın şəffaf tərcümeyi-halına bu qurultayda qara ləkə düşüb. Üzvü olduğun partiya ilə bağlı bu cür danışmağı da plüralizm sayırsınız?***

- Müsavatın 8-ci qurultayı partiyanın tarixində şərəfli bir səhifədir. Bu qurultay həm Müsavatın, həm də bütövlükdə Azərbaycanın siyasi tarixində şərəfli bir səhifə kimi qalacaq. Bu qurultayda Azərbaycan tarixində ilk dəfə seçki kampaniyaları da təşkil olunmaqla alternativli qaydada başqan seçkiləri keçirildi. Müsavatın tarixində də belə bir şey olmamışdı. Çünki bundan əvvəl partiya başqanı olmuş hər kəs bu posta vahid namizəd olaraq seçilib. İkincisi, Azərbaycan tarixində ilk dəfə iki dəfədən artıq hər hansı bir vəzifəyə seçilməyə qoyulan yasaqlamaya əməl olundu. İsa Qəmbər öz namizədliyini irəli sürməməklə, Nizamnamə dəyişikliyi tələb edənlərə mənfi cavab verməklə yeni bir ənənənin başlanğıcını qoydu. Hesab edirəm ki, əslində bu qurultayın Azərbaycan tarixində qalması üçün bu iki nümunə kifayət də ola bilərdi. Lakin keçirilən seçkilərin demokratikliyi, bərabərhüquqluluğu, şəffaflığı da Azərbaycan cəmiyyəti üçün ciddi bir nümunədir. Keçirilən bu cür seçkilərin nəticələrini şübhə altına almaq təbii ki, yolverilməzdir və Müsavat Partiyasının mənafelərinə zərbədir.

***- Telekanalarda, mətbuatda və sosial şəbəkələrdə aparılan təbliğatı izləyəndə belə təəssürat yaranır ki, Müsavat Partiyası parçalanıb, artıq fəaliyyət göstərmir. Bu təbliğat sizcə hakimiyyət tərəfindən idarə olunan prosesdir?***

- Müsavat Partiyasının opponentləri çoxdur. Azərbaycan hakimiyyəti uzun illərdir Müsavat Partiyasına qarşı fəaliyyət göstərir. Müsavatı parçalamaq, dağıtmaq arzusu və istəkləri ilə yaşayır. Eyni zamanda da bu istiqamətdə konkret addımlar atır. Telekanallarda Müsavat Partiyası ilə bağlı bu cür təbliğat kampaniyasının aparılmasında qeyri-adi bir şey yoxdur. Təəssüf ki, bəzi partiya üzvləri Müsavatı düşmən hesab edən siyasi qüvvələrin partiyaya qarşı apardığı kampaniyada onların mövqelərindən istifadə etdiyini nəzərə almadan, bəzən düşünülməmiş, təsdiq olunmamış, dəlil-sübutu olmayan məsələləri ictimailəşdirir. Bu da təbii ki, Müsavatın mənafelərinə ziddir.

***- Narazıların onu da bəyan edirlər ki, şikayətlərinə veriləcək cavabı gözləyirlər. Onların şikayətləri araşdırılır? Onların atacaqları addım nədən ibarət ola bilər, sizcə birlikdə partiyadan istefa verə bilərlərmi? Bunun baş verməməsi üçün onlarla danışıqlar aparmısınızmı və ya aparacaqsınızmı?***

- MNTK təqdim olunan arayışla əlaqədar mənə də sorğu göndərib. Sorğuya cavab vermişəm. Arayışın mətni ilə də tanış olmuşam. Prosesə təsir etməmək məqsədilə bu barədə hər hansı bir rəy səsləndirmək istəmirəm. Bircə onu deyə bilərəm ki, məndə olan məlumata görə, MNTK bir çox partiya strukturlarına və arayışda adı çəkilən şəxslərə sorğular göndərib, peşəkar bir araşdırma prosesi gedir. Yəqin ki, yaxın zamanlarda yekunlaşaraq həm arayışın məzmunu, eyni zamanda ona verilən cavab barəsində arayış müəllifinə və Azərbaycan ictimaiyyətinə məlumat veriləcək.

Mən dəfələrlə həm partiya strukturlarındakı toplantılarda, həm mətbuat açıqlamalarımda onları müzakirəyə dəvət etmişəm. Ayrı-ayrı şəxslərlə görüşmüşəm. Müsavatın qurultayında mənə səs vermədiyini açıq bildirmiş qurultay nümayəndələrinin böyük əksəriyyəti ilə həm bir neçə nəfərlik qrup, həm də təkbətək görüşmüşəm. Onların mövqeləri, düşüncələri ilə tanış olmuşam. Onların demək olar ki, hamısı Müsavat Partiyasının ümumi ideoloji siyasi xəttini dəstəklədiklərini, qurultayın qərarlarını Nizamnamənin tələblərinə uyğun olaraq Müsavat Partiyasının ümumi iradəsi kimi qəbul etdiklərini və partiya strukturlarında fəaliyyətini davam etdirəcəklərini bəyan ediblər. Ayrı-ayrı şəxslər var ki, onlar partiya rəhbərliyi, nümayəndələri ilə təmaslardan yayınırlar. Bizim dəfələrlə dəvət etməyimizə baxmayaraq, partiya strukturlarında fəaliyyətlərini, öz vəzifə borclarını yerinə yetirməkdən imtina edirlər. Bu məsələlərdə bir daha əlaqədar da yəqin ki, partiyanın müvafiq strukturlarında müzakirələr aparılacaq.

***- Qubad İbadoğlu demişdi ki, ona Məclis sədri seçilməyə razı olmağı təklif ediblər, lakin qəbul eləməyib. Qubad bəyə bu cür təklifi siz vermisiniz, yoxsa başqa şəxs tərəfindən təklif olub?***

*(Davamı növbəti sayımızda)*

**Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 262 (5971) 24 oktyabr 2014

## Qurbanovların “vurulmasının” pərdəarxası...

# “Milyarderlər İttifaqı” Dərbənd rəhbərinə qarşı

**“Dağıstan rəhbərliyi Qurbanovların “kriminal klan" kimi təqdimatına çalışır. Arqument kimi isə onların ətrafına azərbaycanlıların sıx toplaşmasını gözə soxur. Bəs əslində vəziyyət necədir?"**

**Azərbaycanın baş nazirinin sabiq birinci müavini Abbas Abbasovun dəstəyi ilə ötən il Dağıstan rəhbərliyinə gətirilən Ramazan Abdulatipovun həmyerlilərimizə qarşı cəbhə açdığını əvvəlki reportajda yazmışdıq.**



Abdulatipov işə başlar-başlamaz Dağıstanın ədliyyə naziri Azadi Rəhimov tutduğu postdan uzaqlaşdırılıb. Ardınca Dağıstanda xüsusi nüfuzu olan, Dərbənd rayonunun Bələdiyyə Şurasının(icra hakimi) rəhbəri Qurban Qurbanovun tutduğu postdan uzaqlaşdırılmasına cəhd edib. Dağıstan prezidenti birbaşa efirdə seçki yolu ilə Bələdiyyə Şurasının rəhbəri postuna mandat almış Qurban Qurbanovu işdən çıxaracağını bəyan edib. Bundan sonra Dərbənd rayonunda Bələdiyyə Şurasında qanunsuz yoxlamalar başlayıb, ardınca Qurbanov həbs olunub, sonradan ev dustağı edilib. Q.Qurbanov hazırda da ev dustağıdır.

Ona qarşı təzyiqlər Dağıstanda yaşayan azərbaycanlılara kin-kidurət bəsləyənlərə də meydan verib. Dağıstanda milli məsələlərin qabardılmasında, xüsusilə azərbaycanlılara qarşı kampaniyalarda sosial şəbəkələrdən geninə-boluna istifadə olunur. Belə kampaniyaların avanqardı isə “Sadval” və Ləzgi-Avar Milli Təşkilatlarıdır.

Q.Qurbanovun “vurulması” kampaniyası Dağıstanda azərbaycanlılara bəslənən kin-küdurəti, siyasi ambisiya və şəxsi maraqları ortaya çıxarıb.

**Məsələ bundadır ki, Qurban Qurbanov uzun illərdir ki, Dərbəndə rəhbərlik edir.** Onun, ondan əvvəl isə atasının rəhbərliyi ilə rayon inkişaf edib. Qurbanovların idarəçiliyinin əsas istiqaməti əhalinin sosial-iqtisadi durumunun yaxşılaşmasına yönəldiyindən onların nüfuzunun artmasını şərtləndirib, müvafiq olaraq ümumilikdə azərbaycanlılar da hörmət bəslənilən topluma çevirib. Hazırda Dağıstan rəhbərliyi Qurbanovları “kriminal klan” kimi təqdimatına çalışır. Arqument kimi isə onların ətrafına azərbaycanlıların sıx toplanmasını gözə soxur. Bəs əslində necədir?

Dağıstandakı reallıqlardan xəbərdar olan hər kəs bilir ki, respublikada kriminal durum çox ağırdır. Dərbənddə olduğumuz günlərdə rayonun giriş-çıxışında postların qurulmasının, yol-patrul xidməti əməkdaşlarının zirehli jiletdə və avtomatlı gəzdiklərinin şahidi olduq. Rayona səfərimizdən 3 gün əvvəl, oktyabrın 16-da Dərbənddə keçirilən xüsusi əməliyyat zamanı “Yujdaq” qruplaşmasının 3 üzvü hüquq-mühafizə orqanları tərəfindən zərəsizləşdirilmişdi. Hündürmərtəbəli binalardan birinin zirzəmisində isə 25 kiloqram partlayıcı maddə aşkarlanmışdı. Dağıstanda hər gün güllə səsləri eşidilir, odlu silahla törədilən qətllər də adiləşib. Belə bir halda müəyyən maliyyə imkanlarına və iqtisadi rıçaqlara malik hər bir iş adamının ətrafında yaxınlarının toplaşması da təbiidir. Bu baxımdan respublikada belə bir şəraitin bərqərar olmasında suçu olmayan Q.Qurbanovu “klan başçısı” adlandırmaq sadəcə düzgün deyil. Üstəlik o, rayon Bələdiyyə Şurasına açıq seçkilər zamanı sədr seçilib. Bu məqam onun prezidentin istəyilə tutduğu postdan getməsinin qarşısını alır.












***

Abdulatipov Qurban Qurbanovun öz xoşuna seçildiyi postdan getməyəcəyini görüb onu qorxutmaq üçün administrativ yollara da əl atıb. İlkin olaraq Dərbənd rayonuna İqtisadi Cinayətkarlığa qarşı Mübarizə İdarəsinin və Hesablama Palatasının əməkdaşlarını yoxlamaya göndərib. Qurban Qurbanov məhkəməyə üz tutub. Məhkəmə hər 2 yoxlamanın qanunsuz və əsassız həyata keçirildiyini təsdiqləyib. Bundan sonra Abdulatipov Dağıstan Əmlak Nazirliyinin əməkdaşlarını Dərbənd rayonuna yoxlamaya yollayıb. Müfəttişlər Q.Qurbanovun K.Marks adına Dövlət Unitar Müəssisəsinin 56 hektar torpaq sahəsini sakinlərə qanunsuz payladığı qənaətinə gəliblər. Onlar belə bir qərara imza atanda “unudublar” ki, **Rusiya Federal qanununa görə yaşıl kartı olan torpaq(özəl mülkiyyət şəhadətnaməsi) sahələrinə kimsə iddia edə bilməz.** Bundan başqa həmin torpaqlar Dərbənd rayonun bələdiyyə torpaqları olaraq 2007-2008-ci illərdə sakinlərə paylanıb. Həmin vaxt torpaqlar rayon bələdiyyəsinin sərəncamında olub. 2010-cu ildə isə Rusiya Torpaq Məcəlləsinə dəyişiklik edilib və bələdiyyə torpaqları Əmlak Nazirliyinin sərəncamına verilib. Dünyanın heç bir ölkəsində qanunun geriyə qüvvəsi olmur. Rusiya Federasiyasında da, o cümlədən Dağıstanda da Abdulatipova qədər belə olub. İndi isə Dağıstan prezidenti qanunu öz istəyinə uyğunlaşdırmaq cəhdinə baş vurub...

**Q.Qurbanov faktiki olaraq onun, indiki durumda isə Əmlak Nazirliyi əməkdaşlarının əməllərinin qanunsuz hesab edilməsi üçün Dağıstan Arbitraj Məhkəməsinə müraciət edib. Hələlik yekun qərar yoxdur...**

***

Dərbəndə səfər zamanı həmyerlilərimizin kəndlərindəki 2 məktəbə də baş çəkməyə imkan tapdıq. Rayon mərkəzindən 25-30 kilometr aralıda yerləşən məktəblər yeni tikilib. Sinif otaqları kompüter, ən müxtəlif dərs ləvazimatı, əyani vəsaitlə, idman zalları da uyğun ləvazimatlarla təchiz olunub. Müəllimlərin əmək haqqı 400 dollardan başlayır, kommunal xərclərə 50 faiz güzəşt tətbiq olunur. Məktəbləri bitirən şagirdlər vahid dövlət imtahanı verir və topladığı bala uyğun Rusiyanın istənilən ali məktəbinin qapısını heç bir məhdudiyyət olmadan döyə bilir. Olduğumuz kənd məktəblərində müəllimlər məktəbi bitirən şagirdlərin 80 faizindən çoxunun ali təhsil müəssisələrinə daxil olduqlarını da dedilər.

Dərbənddə məktəb binalarının tikintisi Qurban Qurbanovun təşəbbüsü ilə həyata keçirilib. Azərbaycan dövləti soydaşlarımızın kompakt yaşadığı ərazilərdə

yerləşən məktəbləri ana dilimizdə olan zəruri kitablarla təmin edir. Dərbəndin Bələdiyyə Şurasının rəhbərinin iş prinsiplərinə bələd olanlar deyir ki, Q.Qurbanov ölkə rəhbərliyindən son illərə qədər məktəblərin tikintisi üçün icazəni çox asanlıqla ala bilib - başqa bələdiyyələrdə 30 milyon rubla başa gələn məktəb tikintisinə Qurbanov 15 milyonla başa çatdırır. Odur ki, Dərbənd rayonunda qısa müddətdə 42 məktəb, çoxsaylı uşaq bağçaları, digər sosial obyektlər tikilib. Bakı və Şəki ləhcələrinin sintezində danışan dərbəndlilər Qurban Qurbanovun atası, Səid Qurbanova da böyük ehtiramla anırlar. Deyirlər ki, həmyerlilərimizin ayaqda qalmasında mərhum Səid Qurbanovun, ondan sonra isə oğlunun böyük rolu var.

İşgüzar azərbaycanlı rəhbəri gözü götürməyənlər də çoxdur. Beləları əsasən milli məsələləri qaldırmaqla Qurbanovun gördüyü işlərə kölgə salmaq üçün dəridən-qabıqdan çıxırlar.

***

Dərbənd rayonu Dağıstanın “yağlı tikə”sidir, strateji nöqtə olduğundan hazırda bu ərazidə rəhbərlik uğrunda çarpışmalar gedir. Bu kampaniyanın arxasında Abbas Abbasov dayanır. Dərbənddə olarkən onun “Milyarderlər İttifaqı”nın “maşa”sı rolunda çıxış etdiyini də eşitdik. Əlbəttə ki, sabiq vitse-primyerin şəxsi maraqları da var.

**Bu isə prosesin təkcə Qurbanovlarla məhdudlaşmayacağını deməyə əsas verir. Dərbəndə nəzarət edən Dağıstana, digər tərəfdən də Rusiyadan Azərbaycana uzanan magistrala, neft və elektrik xətlərinə də nəzarət edir.**

❑ E.BALAXANILI
Bakı-Dərbənd-Bakı

YENİ MÜSAVAT
N 262 (5971) 24 oktyabr 2014

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Qarabağ məsələsində "böyük qardaş" dəyişir?

## Azərbaycan Ermənistanla Putinin yaradacağı vahid hərbi-siyasi birlikdə olmayınca Kreml "Qarabağ açarı"nı cibindən çıxarmayacaq; bəs Rusiya zəifləsə və ya çöksə, Qərb daha ədalətli arbitr ola biləcəkmi, Bakı qəfil "rotasiyaya hazırdırmı?

**Qarabağ danışıqlarında ümidlər indi də prezidentlərin Paris görüşünə bağlanıb. Bəzi təhlilçilər bu görüşü Qərbin uzun illər durğunluq dövrü yaşayan nizamlama prosesində nəhayət, təşəbbüsü öz əlinə almağın və Rusiyanın həll prosesinə təsir imkanlarını azaltmağın yeni fürsəti kimi təqdim edir. Belə qənaətlər də mövcuddur ki, hazırda Rusiya iqtisadi-maliyyə cəhətdən çətin dövrünü yaşadığı və getdikcə bu sahədə durumu daha da pisləşəcəyindən, ATƏT-in Minsk Qrupunun digər iki həmsədr ölkəsinin - ABŞ və Fransanın təşəbbüsü ələ alması tədricən asanlaşa bilər.**



**Lakin skeptik analitiklərin ehtimallarına görə, Rusiyanın mövqeyinin bölgədə və dünyada zəifləməsi ilə problemin ədalətli həlli sürətlənməyə də bilər. Səbəb münaqişədən digər qlobal güclərin də ilk növbədə öz maraqları üçün istifadə eləməsidir.**

Məsələn, Rusiyadakı Konstruktiv Siyasət Fondunun direktoru Abdul Nağıyeva görə, Qarabağ münaqişəsi müxtəlif tarixi mərhələlərdə həmişə regionda oynanılan "erməni kartı"nın tərkib hissəsi olub" (vesti.az). Kremlin konfliktin həllinə yanaşmasına toxunan politoloq deyir: "Heç kimə sirr deyil ki, Rusiya hərbi-siyasi əməkdaşlıq müqavilələri əsasında Ermənistanın təhlükəsizliyinin qarantıdır. Bu da danışıqlar prosesinə və İrəvanın Qarabağ məsələsində mövqeyinə təsir edən aparıcı elementdir".

Ekspertin qənaətincə, Moskva münaqişənin həllini Ermənistanla bahəm, Azərbaycanlın da daxil olduğu vahid hərbi-siyasi birlik çərçivəsində görür: "Hazırda isə hadisələrin belə inkişaf variantı nəzərdən keçirilmir və o səbəbə Kremldən "Qarabağ açarı"nə cibindən çıxaracağını gözləməyə dəymir".

Bundan ötrü isə təbii ki, Azərbaycan Putinin Avrasiya layihələrinə, ilk növbədə də Gömrük İttifaqına üzvlüyə "dobro" verməlidir. Lakin ekspert rəsmi Bakının belə bir qərar verəcəyinə şübhə edir: "Qərbdə Gömrük İttifaqını Rusiyanın patronajlığı altında MDB ölkələri arasında müttəfiqlik əlaqələrinin dərinləşməsində hansısa aralıq mexanizm kimi baxırlar. Azərbaycanla Ermənistanın bir ittifaqda olması onlara nə verəcək? Əlbəttə ki, yenidən "böyük qardaş" peyda olacaq və ümumi ailədə problem olmaması üçün necə yaşamağı diktə edəcək".

Maraqlıdır ki, Ermənistanda da bu ölkənin Avrasiya İqtisadi Birliyinə rəsmən qoşulması ilə Dağlıq Qarabağ probleminin həllinin sürətlənəcəyini düşünənlər, demək olar, yoxdur. Əksinə, tanınmış erməni politoloqu, Milli Təhlükəsizlik Xidmətinin sabiq rəhbəri və Dağlıq Qarabağ üzrə prezidentin keçmiş xüsusi nümayəndəsi David Şahnazaryan əmindir ki, sülh prosesi olduqca mürəkkəb duruma düşəcək və qəlizləşəcək: "Kreml danışıqlar prosesini bütünlüklə öz əlinə almağa çalışır. Ermənistan əlindən gələni eləməlidir ki, beynəlxalq format kimi ATƏT-in Minsk Qrupu saxlansın və üçlük tərəfindən irəli sürülmüş, İrəvanın qəbul elədiyi, Bakının isə tərəddüd elədiyi prinsiplər əsasında onun işində ciddi uğur əldə edilməsinə yardımçı olsun".

***

Bu arada iki əsas vasitəçi dövlətdən biri olan Rusiyanın yaxın gələcəyi ilə bağlı bədbin təxminlər artıb. "Neftin ucuzlaşması Rusiya büdcəsində defisit yaradır ki, bu da Putinin devrilməsi ilə nəticələnəcək". Belə bir açıqlamanı ukraynalı siyasətçi, sabiq baş nazir Yuliya Timoşenko verib. O, Putin rejiminin son çatdığını bildirib: "Putin ya bizi azad buraxmalı və öz yuvasına getməli, ya da birdəfəlik hakimiyyətini itirəcək. Hətta bu zaman Rusiyanın öz stabilliyini qoruyub saxlamaq sualını da vermək gərək deyil. Bu gün Putin geri çəkilməyə məcburdur. O, maksimum iki ay gözləyə bilər".

İqtisadi analitiklər isə sanksiyaların təsiri altında Rusiyanın maliyyə-iqtisadi böhrana girməsinə dair müxtəlif tarixlər səsləndirirlər - 2, maksimum 4 il. Söhbət sanksiyaların hazırkı səviyyəsinin qalması və neftin ucuzlaşması tendensiyası fonunda verilən proqnozlardan gedir.

***

Ancaq qeyd edildiyi kimi, bu, heç də o anlama gəlmir ki, Rusiyanın zəifləməsi avtomatik şəkildə Qarabağ probleminin həllini sürətləndirəcək. Əfsus ki, nikbin təxmin üçün əsaslar ciddi görünmür. Yəni arbitrin dəyişməsi avtomatik ədalətli sülh anlamına gəlməyəcək. Bu, ilk növbədə asılı olacaq Qərbin Azərbaycana və Ermənistana, ordakı hakimiyyətlərinə münasibətindən, Bakı və İrəvanın öz siyasi oriyentasiyanı nə dərəcədə çevik dəyişib demokratik dünyanın dostuna çevrilmə bacarığından. Üstəgəl, erməni lobbisi faktoru.

Təəssüflər olsun ki, bu istiqamətdə də Azərbaycan Ermənistandan ləng tərpənirmiş kimi görünür. Hər halda, təkcə xristian amilinə görə deyil, ümumbəşəri dəyərlərə saygı və bəzi başqa amillər səbəbindən də hiss olunur ki, Qərb Ermənistanı Azərbaycandan daha tez "doğmalaşdırmaq" niyyətindədir və bunu edəcək.

Rəsmi Bakı belə perspektivi indidən ciddiyə alıb real kontur-tədbirlər görmək barədə düşünməlidir ki, sonra gec olmasın. Unutmayaq ki, Avropa və Amerika Ermənistanı heç vaxt işğalçı ölkə kimi barmaqla göstərməyib. Halbuki, Krım, Abxaziya və Cənubi Osetiya məsələlərində Qərb qeyd-şərtsiz, Ukrayna və Gürcüstanın ərazi bütövlüyünü dəstəkləyir, Rusiyanı isə açıq şəkildə təcavüzkar adlandırır. Azərbaycana gələndə isə, üstəlik, Bakıya Qarabağ separatçıları üçün öz müqəddərаtı təyinetmə haqqı tanıtmaq istəyir.

**Doğrudur, Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti konfliktlə bağlı kifayət qədər ədalətli və obyektiv qətnamələr çıxarıb. Ancaq onların hamısı BMT-nin Qarabağa dair qətnamələri kimi hələ də kağız üzərində qalır. Çünki Qərbi təmsil edən əsas dövlətlər obyektiv arbitr olmağa tələsmirlər. Tələsdirmək isə həm də Bakıdan asılıdır.**

# Almaniya hökumətindən işğalçını məyus edən hesabat

## "Qarabağ ixtilafı dövlətlərarası münaqişədir"; "işğal altındakı ərazilərdə insanların durumu acınacaqlıdır..."

**Minsk Qrupunun üzvü olub həmsədrlikdə təmsil olunmayan Qərbin digər dövlətlərində biri - Almaniyanın Qarabağa dair mövqeyi təqdirəlayiq hesab oluna bilər. vestnikkavkaza saytının yazdığına görə, bunu son olaraq, Almaniya hökumətinin ixtilafla bağlı hazırladığı hesabat bir daha təsdiqləyir.**




Sənəd Almaniya xarici işlər naziri Frank Valter-Ştaynmayerin Ermənistana səfəri ərəfəsində hazırlanıb və ölkənin problemə prinsipial baxışını ifadə edir. Hesabatdan ən maraqlı və diqqətçəkən məqamlar:

məsələn, parlamentarilərin "rəsmi Berlin Dağlıq Qarabağ məsələsində münaqişə tərəfləri kimi hesab edir" sualına cavab belə olub: "Federal hökumət Dağlıq Qarabağ ixtilafına Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlətlərarası münaqişə kimi baxır".

Bununla da Almaniya aydın şəkildə ifadə edib ki, erməni diplomatiyasının illər boyu münaqişəni Azərbaycanın "Qarabağ xalqına" qarşı müharibə kimi təqdim eləmək səylərinin avropalılara hər hansı təsiri olmayıb. Üstəlik, başqa bir suala cavab olaraq AFR hökuməti yazır (Dırnaqlar mətnin orijinalına aiddir - S.Ş.): "Dağlıq Qarabağ Respublikası" adlandırılan qurumun "özünümüdafiə qüvvələri"nin 23 min əsgəri var. Onları 8 mini Ermənistan Respublikasının nizami ordusunun hərbi qulluqçularıdır. "Özünümüdafiə qüvvələri"nin əsas hissəsi başlıca olaraq yenə də Ermənistan əsilli "çağırışçılar" hesabına komplektləşdirilir".

Beləcə, Berlin açıq mətnlə bəyan edib ki, "özünü müdafiə ordusu" adlanan bir qüvvə arxasında Ermənistan nizami ordusunun gizləndiyi şirmadan başqa bir şey deyil.

Almaniya hökuməti həmçinin, Azərbaycan və Ermənistanın hərbi xərcləri ilə bağlı konkret statistik rəqəmləri müqayisəli şəkildə diqqətə çatdırıb. Rəqəmlərdən aydın görünür ki, büdcəyə faiz nisbətində işğalçı ölkə silahlanma xərcləri ilə bağlı Azərbaycanı xeyli qabaqlayır: "Belə ki, Azərbaycanın hərbi xərci 2009-cu ildə büdcənin 9,7%-ni, 2010 - 8,7%, 2011 - 13,5%, 2012 - 12,7%, 2013 - 11,4%-ni təşkil elədiyi halda, Ermənistanın "müdafiə" xərcləri 2009-cu ildə ölkə büdcəsinin 12%-ni, 2010 - 17,2% , 2011 - 16%, 2013 - 15,5% və 2014 -cü ildə 15,6% olub.

Rəsmi Berlin "Madrid prinsipləri" əsasında aparılan və faktiki dalana girən danışıqlarda aktual situasiyaya da toxunub: "Əgər erməni tərəfi Dağlıq Qarabağ ətrafında işğal olunmuş ərazilərin heç olmasa, bir qismini azad etməyə real hazırlıq nümayiş etdirsə, o zaman Almaniya federal hökumətin hesablamasına görə, bu, Azərbaycanın yerdə qalan Madrid prinsiplərinə razılaşması, o sırada Dağlıq Qarabağın erməni əhalisinə təhlükəsizliklə bağlı hüquqi qarantiya verməsində mərkəzi zəmin olacaq".

**Federal hökumət habelə Dağlıq Qarabağ və ona bitişik ərazilərdə yaşayana adamların həyat səviyyəsinin olduqca aşağı olduğunu qeyd edib. "Oradakı ağır şəraitdə yaşayan əhali elementar ictimai xidmətlərə yalnız məhdud çıxışı var" - hesabatda bildirilir. Alman hökuməti həmçinin, diqqətə çatdırır ki, erməni işğalı altında olan Dağlıq Qarabağda və ona bitişik ərazilərdə azərbaycanlı qəbiristanlıqları lazımi vəziyyətdə saxlanılmır və individuallığın formalaşması və yaddaş yerləri kimi yox ola bilər.**

YENİ MÜSAVAT
N 262 (5971) 24 oktyabr 2014

# Azərbaycanda gizli "Ebola" virusu daşıyıcıları var?




## Səhiyyə Nazirliyi Həcc ziyarətindən qayıdanlara xəbərdarlıq edir: "Ebola" virusunun inkubasiya dövrü 21 gündür və o, latent formada, gizli şəkildə inkişaf edir"

**Təhlükəli "Ebola" virusu dünyanı təhdid etməkdə davam edir. Beynəlxalq səhiyyə təşkilatlarının çarəsiz durumda qaldığı bir vaxtda "Ebola" sərhəd tanımadan daha geniş coğrafiyaya yayılmaqdadır.**

Bu günlərdə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) "Ebola" virusunun mümkün yayılmasına hazırlaşmalı olan 14 ölkədən ibarət siyahı yayıb. ÜST xəbərdarlıq edib ki, bu ölkələr virusla bağlı milli plan hazırlamalıdırlar. Həmin 14 ölkənin epidemiyanın və yüksək miqrasiya axınının müşahidə olunduğu dövlətlərlə ümumi sərhədləri var. ÜST-nin məlumatına görə, Qərbi Afrikada yayılmış "Ebola" virusundan artıq 4,5 mindən çox insan ölüb.

Bu virusu Qərbi Afrikada - Liberiya, Syerra-Lion, Qvineya, Nigeriya, Konqo və Seneqalda sürətlə yayılır. Yoluxma halları artıq ABŞ, İspaniya, Norveç, Avstraliya və digər ölkələrdə qeydə alınıb.

Xəstəliyə yoluxanların sayı 8997, ölənlərin sayı isə 4493 nəfərə çatıb.

ABŞ alimləri isə tibb işçilərinin "Ebola" virusundan qorunması istiqamətində araşdırmaları davam etdirirlər. "Ebola" virusunun yayılması ilə əlaqədar ABŞ-da tibbi heyət üçün qoruyucu vasitələr və xüsusi uniformaların istehsalı artıb.

ABŞ-da mövcud məhsulların sutkalıq istehsalını təmin etmək məqsədi ilə yeni işçilər götürülür.

Bundan başqa, ABŞ xəstəxanalarında xəstələrlə işləyən əməkdaşlar üçün texniki təhlükəsizlik üzrə təlimatlar hazırlanacaq.

Bu virus artıq ölkəmizin sərhədlərinədək irəliləyib. Belə ki, qardaş ölkə Türkiyənin İzmir, Kahramanmaraş və Konya vilayətlərində "Ebola" virusu şübhəsi ilə üç nəfər xəstəxanaya yerləşdirilib. Bu barədə Türkiyənin "Anadolu" agentliyi məlumat yayıb. Bununla, Türkiyədə "Ebola" virusu şübhəsi ilə xəstəxanaya yerləşdirilənlərin sayı beş nəfərə çatıb, onlardan dördü Həcc ziyarətindən qayıdan şəxslərdir.

Türkiyənin 36 vilayətində ölkədə baş verə biləcək "Ebola" virusuna yoluxma halları ilə bağlı 45 xüsusi xəstəxana ayrılıb.

Xüsusi təyinatlı xəstəxanalar əsasən beynəlxalq aeroportların mövcud olduğu vilayətlərdə ayrılıb. Həmçinin Ankarada 3, İstanbulda 2 belə xəstəxana ayrılıb.

Həcc mövsümünün başa çatması və zəvvarların vətənə qayıtması "Ebola"nın yayılma təhlükəsini bir qədər də artırıb. Əksər ölkələr kimi, Azərbaycanda da Həcc ziyarətindən qayıdan şəxslərə "Ebola" virusu ilə bağlı ciddi xəbərdarlıq edilib.

**Səhiyyə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Anar Qədirli** "Trend"ə bildirib ki, Azərbaycandan Həcc ziyarətinə getmiş zəvvarlar oradan qayıdarkən "Ebola" virusu ilə bağlı yoxlansaydılar belə, onlarda heç nə aşkar etmək mümkün olmayacaqdı. Çünki "Ebola" virusu ilə əlaqədar simptomlar üzə çıxmayanadək onun aşkar edilməsi ilə bağlı yoxlamalar heç bir səmərə vermir: "Ebola virusunun inkubasiya dövrü 21 gündür və o, latent formada, gizli şəkildə inkişaf edir. Bu dövrdə insanın qanını yoxladıqda belə, virus özünü büruzə vermir. Əgər büruzə versəydi, təbii ki, bu vaxta kimi onu lokallaşdırmaq, qarşısını almaq da asan olardı. Əgər bu xəstəliyə tutulmuş şəxs olubsa, bu, özünü yalnız 21 gündən sonra göstərə bilər. Ona görə də yalnız bu xəstəliyin simptomları üzə çıxdığı zaman tibbi müşahidələr aparıla, müayinələr də məhz o zaman nəsə göstərə bilər".

Ona görə də zəvvarlardan "Ebola" virusu təhlükəsinin hələ tam sovuşmadığına işarə edən nazirlik sözçüsü bildirib ki, onların səhhətində hər hansı ciddi narahatedici hal baş verərsə, mütləq yaşadıqları ərazi üzrə poliklinikalara müraciət etməlidirlər: "Azərbaycan zəvvarlarının Həcc ziyarətindən qayıtmaları vaxtını nəzərə alsaq, deyə bilərik ki, oktyabrın sonu - noyabrın əvvəlində kimdəsə bu virusun simptomları olsa, özlərini pis hiss etsələr, mütləq sahə həkimlərinə müraciət etməlidirlər. Hacılar bu günlərdə həddən artıq diqqətli olmalı, səhhətlərində hər hansı narahatedici simptomlar üzə çıxdıqda mütləq həkimə müraciət etməlidirlər. Bundan sonra əgər hər hansı ciddi problem müşahidə olunarsa, o zaman həmin xəstələr ixtisaslaşdırılmış klinikalara göndərilə bilərlər".

**Məsələ ilə bağlı Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) mətbuat xidmətinin rəhbəri Rəhimə Dadaşova** "Trend"ə bildirib ki, QMİ zəvvarların sağlamlığına görə yalnız onları Həcc ziyarətinə aparana qədər və orada olduğu müddətdə məsuliyyət daşıyır. Ziyarətdən qayıtdıqdan sonra isə onlar yaşadıqları ərazilərdə həkim yoxlamasından keçməlidirlər: "Bizdə olan məlumata görə, Həcc ziyarəti zamanı zəvvarlarda soyuqdəymədən başqa ciddi xəstəlik qeydə alınmayıb. Ondan sonrakı dövrdə isə biz zəvvarların hansısa xəstəliyə tutulub-tutulmamasını müəyyən edə bilmərik. Axı QMİ-nin hər hansı həkim briqadası və ya imkanları yoxdur ki, bunu müəyyən etsin. Xüsusən də, insanın "Ebola" virusuna yoluxmasını müəyyən etmək çox çətindir. Çünki bu xəstəlik gizli formada inkişaf edir, simptomları isə sonradan üzə çıxır. Zəvvarlar da bunu nəzərə alaraq, hər hansı təhlükəli şey hiss edərlərsə, mütləq müayinə və müalicə üçün yaşadıqları ərazi üzrə qeydiyyatda olduqları və ya digər tibb müəssisələrinə müraciət etməlidirlər".

**Xatırladaq ki, Türkiyədə "Ebola" virusuna yoluxduğuna dair şübhələr olduğundan xəstəxanalara yerləşdirilmiş 6 nəfərdən 5-i məhz Həcc ziyarətindən qayıdan şəxslərdir.**

❑ Nərgiz LİFTİYEVA

## Başsağlığı

**Müsavat Partiyası Nizami rayon təşkilatı Nizaməddin Quliyevə övladının vaxtsız vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**


## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

*Əyləncəli, sürətli, asan!*



Speak English

*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

✓ İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!
✓ Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!
✓ Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!
✓ Əla tələffüz və güvənlə danışmaq
✓ Real ingiliscə söhbətlər

BONUS
english EXPLOSION
dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*

## Beynəlxalq Təhsil Mərkəzi

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

*< Kiyev Dövlət Texniki Universiteti*
*< Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
*< Kremençuk Dövlət Universiteti*
*< Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
*< Kiyev Dövlət Dəniz Akademiyası*
*< Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
*< Tbilisi Dövlət Tibb Universiteti*
*< Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
*< Minsk Dövlət Universiteti*
*< Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
*< Qrodno Dövlət Universiteti*
*< Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
*< Volqoqrad Dövlət Aqrar Universiteti.*
*< Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A «Nərimanov» m-su**
**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**

## ORİJİNAL AKSESUARLAR

**Ucuz qiymətlərə, gözəl, keyfiyyətli hədiyyələr və ev üçün bəzək əşyaları**



ünvan
"SƏDƏRƏK" TİCARƏT MƏRKƏZİ
*3-cü zona, 15-ci sıra, 40 nömrəli mağaza*

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 262 (5971) 24 oktyabr 2014

# Əkiz bacısının başın kəsən qızla bağlı şok məlumatlar

## Pərvanə Nuriyeva: "Onun cinsi azlıq olduğu mənə təsir edirdi"

**Oktyabrın 22-də Bakıda bütün ölkəni sarsıdan bir olay baş verdi. Xətai rayonu, Xudu Məmmədov küçəsi 18, bina 1 "a" mənzil 39-da 20 yaşlı Günel Nuriyevanın başı kəsilmiş meyiti aşkarlandı. Sonradan məhkəmə tibb ekspertləri G.Nuriyevanın bədəni üzərində çoxsaylı bıçaq xəsarətləri də aşkarladılar. Bu qorxunc olaydan məlumat alan hər kəsi düşündürən bir sual vardı - musiqi məktəbinin tələbəsi olan qızı bu cür amansızlıqla kim qətlə yetirib?**




Pərvanə Nuriyeva







İlkin versiya kimi tələbənin onu sevən oğlan tərəfindən öldürülməsi nəzərdən keçirilib. Mənzilə oğrunun girdiyi və tələbə qızla rastlaşaraq onu öldürmək qərarına gəldiyi versiyası da araşdırılıb.

İstintaqçılar ilkin olaraq G.Nuriyevanın təmasda olduğu şəxslərin əhatə dairəsini müəyyən etmək üçün telefonunu axtarıblar. Lakin telefon G.Nuriyevanın qan gölməçəsində aşkarlandığı mənzildə tapılmayıb.

Həmin dəqiqələrdə onun bacısı Pərvanə Nuriyeva da qanlı olayın baş verdiyi mənzilin qarşısına gələrək içəri daxil olmaq istəyib. Lakin mənzilin qarşısında olan polis əməkdaşları onu içəri buraxmayıblar. O, mənzilə polis çağırmış əkiz bacısı ilə istintaqçıların mənzildə zəruri istintaq hərəkətlərinin başa çatdırılmasını gözləyiblər.

Nuriyevalar 3 bacıdırlar. Onların atası Etibar Nuriyev uzun illər "Aqrarsənaye" İstehsalat Birliyində çalışıb.

Şəki Sahibkarlıq Assosiasiyasının, Respublika Sahibkarlar Konfederasiyasının və Şəki bələdiyyəsinin üzvüdür. E.Nuriyevi tanıyanlar onun qızının belə bir qətl törətdiyinə inana bilmirlər. Maddi imkanları yaxşı olan E.Nuriyev hər 3 qızının əziyyət çəkmədən Bakıda təhsil almaları üçün qanlı olayın baş verdiyi ünvanda illər öncə mənzil alıb.

Bacılar dindirilərkən P.Nuriyevanın əkiz bacısı deyib ki, təhsil aldığı məktəbdən evə qayıdandan sonra mənzilin qapısını öz açarı ilə açaraq içəri daxil olub. Evin dağınıq və koridorda qan ləkələrinin olmasını görüncə qışqıraraq çölə qaçıb. Telefonundan Daxili İşlər Nazirliyinin 102 xidmətinə zəng vurub və gördüklərini danışıb. Həmin vaxt onun qışqırıq səsini eşidən binanın komendantı da Xətai Rayon Polis İdarəsinə zəng vurub. Ərazİyə gələn polis mənzildəki yataq otağında Günel Nuriyevanın boğazı kəsilmiş meyitini aşkarlayıb. İstintaq-əməliyyat qrupu hadisə yerini müayinə edərək G.Nuriyevanın qətili ilə əlbəyaxa olması qənaətinə gəliblər. Həmin dəqiqələrdə

Pərvanə Nuriyeva mənzilə daxil olmağa can atıb. Lakin onun və əkiz bacısının psixoloji travma almaması üçün içəri buraxmayıblar. P.Nuriyevanın qeyri-adi davranışları əkiz bacıları ayrı-ayrılıqda dindirən istintaqçıların diqqətindən qaçmayıb. Mənzilin qarşısında dayanan polis əməkdaşları da əkizlərdən birinin reaksiyalarının adekvat olmadığını müşahidə ediblər və bunu istintaqçılara deyiblər. İstintaqçılar isə 19 yaşlı bir qızın belə amansız qətli törədəcəyinə, həm də öz doğma bacısına qarşı edəcəyinə inanmaq istəməyiblər. Amma hər ehtimala qarşı bu versiyanı da yoxlamağa qərar veriblər.

Bir neçə çarpaz dindirmə P.Nuriyevanın acı etirafını ortaya çıxarıb. O, doğma bacısını cinsi azlıq nümayəndəsi olmasından şübhələndiyinə görə öldürdüyünü deyib. Bildirib ki, evə digər qızları gətirməsinə etiraz edib və bu əməllərinə son qoymasını tələb edib. Lakin bacısı onun xəbərdarlığına məhəl qoymayıb. Hadisədən bir qədər əvvəl isə yenidən bacılar bu mövzuda söhbətə başlayıblar. Həmin vaxt divanda uzanan G.Nuriyeva bacısından onun işlərinə qarışmamasını tələb edib. Onun əlində bıçaq üstünə gəldiyini görüncə isə digər otağa qaçmaq istəyib. Həmin vaxt P.Nuriyeva bacısına qolundan, ardınca isə belindən bir neçə bıçaq xəsarəti yetirib. Sonradan isə çapaladığını görərək əl-qolunu bağlayıb.

G.Nuriyeva istintaqçılara bacısının boğazını necə kəsdiyini də danışıb. Deyib ki, bacısı ilə mənzildə süpürləşmə zamanı stolun üstündən düşərək sınan vazanın qırığını götürərək onun boğazını kəsib. Soyuqqanlı qatil bunu bacısının ölümünə əminlik üçün etdiyini də açıqlayıb. Bundan sonra qanlı paltarlarını soyunaraq paltaryuyan maşına qoyub və heç nə olmamış kimi mənzili tərk edib. Öldürdüyü bacısının telefonunu da götürərək sim-kartını da sındırıb.

"Bacımın hərəkətləri məndə şübhə yaradırdı. Normal hərəkətlər etmirdi. Hər gün evə qızlar gətirirdi. Onun cinsi azlıq olduğu mənə təsir edirdi. Bu səbəbdən də tez-tez mübahisəmiz düşürdü. Sonuncu dəfə özümü saxlaya bilmədim, öldürmək məcburiyyətində qaldım"deyə, 19 yaşlı qız ifadəsində qanlı qətli törətdiyini etiraf edib.

**Faktla bağlı Xətai Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.2.4 (xüsusi amansızlıqla qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb.**

❑ **E.MƏMMƏDƏLİYEV**

# İŞİD-i dünya qadınları üçün cəlbedici edən əsrarəngiz səbəb

## Romantika, adrenalin axtarışı, yoxsa? Ora ərinin yanına gedənlər də var, "ər" axtarmaq üçün gedənlər də...

**"Yüzlərlə gənc qadın Qərb ölkələrini tərk edərək islamçılara qoşulmaq üçün Yaxın Şərqə gedir". Artıq bu xəbər yeni sayılmır və İngiltərənin nüfuzlu qəzeti "The Guardian" qəzeti dəfələrlə sözügedən mövzuda yazıb. Qəzetin bu barədəki məqalələrində daha öncə bildirilib ki, Yaxın Şərqə gedənlərin yaşı təxminən 14-15 arasıdır. Onlar əsasən Suriyaya, cihadçılara ərə gedib onlara uşaq doğmaq üçün gedirlər. Az sayda gənc qadın isə silaha sarılır. İlkin hesablamalara görə, gedən gənc qadın və qızları Avropanı, Şimali Amerika və Avstraliyanı tərk edib İŞİD-çilərə qoşulanların təxminən 10%-ni təşkil edir.**



Onlar ən çox Fransada qeydə alınıb. Məlumatlara görə, artıq 63 fransız qadın Yaxın Şərqdədir. Daha 60 qadın isə götür-qoy edir. İngiltərədən 50-yə yaxın qadın İŞİD-ə qoşulub. ABŞ-dan gedənlərlə bağlı konkret məlumat yoxdur. Bütün hallarda bu, qloballaşmış dünya üçün çox ciddi faktdır. Savadlı, intellektual qadınları bu terror təşkilatında nə cəlb edir? Macəra, romantika axtarışı, yoxsa bilmədiyimiz başqa nələr?

İlkin araşdırmalar üzə çıxarıb ki, əslində cihadçı qrupun sıralarında olan ABŞ, Fransa, Hollandiya, Kanada, Norveç və İsveçrə nümayəndələri olan qadınların ora üz tutmasında sosial medianın rolu böyükdür. Belə ki, müxtəlif sosial şəbəkələrdə yaradılan təhrikedici qruplar qadınların təşkilatlanmasında təkan rolunu oynayıb. Bundan başqa, internetdə bu qadınlara məsləhətlər, dəstək və səyahət təklifləri də verilir.

Bu məsələdə daha bir kateqoriya da "cihadçı gəlinlər"dir. Araşdırmalar sübut edib ki, bir çox situasiyalarda Suriyaya səyahəti qadınların ailələri təşkil edir. Ailələr qadınların İŞİD döyüşçüləri ilə ailə qurmasında maraqlı olurlar. Fransada yaşayan ailələr qızlarına elçi düşən suriyalı kişilərdən telefon zəngləri alırlar.

Terrorçuluq və təhlükəsizlik məsələləri üzrə "Center for Terrorism and Security Studies" Mərkəzinin əməkdaşı Mia Bloom deyir ki, qadınlara yeni "saf" "İslam dövləti"ndə "uşaq fabriki"ndən artıq rol ayrılmır. Lakin Suriyaya gedən qadınların istəyi yalnız ər axtarmaqla məhdudlaşmır. "Cihadçı gəlinlər" konsepsiyası əhvalatın yalnız bir hissəsini təşkil edir. Burada başqa amillər də var.

Yazının girişində qeyd etdiyimiz digər varianta - romantizm məqamına da diqqət yetirək. Ekspertlər hesab edir ki, cihadçı qadınlar Qərb dövlətlərində müsəlmanlara dəyər verilmədiyini, onların ictimai həyatın kənarında qaldığını deyirlər. Məsələn, onlardan biri, sabiq Hollandiya sakini, suriyalı Khadija deyib ki, hər zaman şəriət qanunları ilə yaşamaq istəsə də, Avropada bu, baş verə bilməzdi. Ona görə də İŞİD-ə qoşulduğunu bəyan edib.

Qərb mətbuatı yazır ki, burada misallardan biri olaraq Fransada İslam baş örtüyünə qoyulan qadağa göstərilir. Mətnlərin çoxunda Qurandan xeyli iqtibaslar gətirilsə də, İslam, Suriyadakı münaqişə və şəriət barədə dərin biliyə dəlalət edən əlamətlərin sayı olduqca azdır. Suriyaya yola düşən qadınların qərarı siyasi və şəxsi səbəblərə söykənir. Lakin bu qərarın qəbulunda sadəlövh romantizmin də rol oynadığını görmək olar.

Daha bir maraqlı məqam isə odur ki, əvvəllər Suriyaya müsəlman qadınlar əsasən İŞİD tərəfindən döyüşən həyat yoldaşlarının yanına gedirdilər. İŞİD-ə simpatiyası olan bəzi müsəlman qadınlar "cinsi cihad" üçün Suriyaya və İraqa gedir.

Qısa müddət bundan öncə dünya mətbuatında üç malayziyalı qadının İŞİD üzvlərinin cinsi tələbatını ödəmək üçün bu təşkilata qatılması barədə xəbər verilmişdi. Malayziya təhlükəsizlik orqanının məsul şəxslərindən birinin verdiyi məlumata görə, 30 yaşlı bir malayziyalı qadın dekabr ayında Türkiyəyə gələrək burada özünə sərhədi keçməyə kömək edəcək adam tapıb və beləcə Suriyaya gedib. Malayziyalı qadınlarla bərabər avstraliyalı və ingilis qadınların da eyni məqsəd üçün İŞİD-ə qatıldığı söylənir.

Adı çəkilməyən səlahiyyətli şəxslərdən biri İraqın Mosul şəhəri İŞİD tərəfindən ələ keçirildikdən sonra ailəli olmayan qadınların cinsi məqsəd üçün oraya göndərilməsi haqda əmr verildiyini bildirib.

Amma bu məsələnin miqyası böyüdükcə problemlər də böyüyür. Belə ki, İngiltərənin nüfuzlu "Deyli Meyl" ("Daily Mail") jurnalı İŞİD sıralarına qoşulan qadınlar barədə şok iddia ilə çıxış edib. Qəzetin iddiasına görə, terror təşkilatına qoşulan qadınlar fahişəxana idarə edirlər: "İŞİD-ə qoşulan qadınlar fahişəxanalar yaradaraq iraqlı qadınları burada istismar edir. Bunu edənlərin əksəriyyəti Böyük Britaniyadan gedən qadınlardır".

**Qəzet "İngilis cihadçı madamlar qaçırılan minlərlə iraqlı qadını İŞİD fahişəxanalarında idarə edir" başlıqlı yazıda Suriyanın Rakka şəhərində təşkilatın yalnız qadın terrorçulardan ibarət Əl Hansa dəstəsi yaratdığını xatırladaraq, bu vaxta kimi 3 min yezidi qadının əsir alındığını bildirib. Əsir götürülən 3 min qadının ingilis qadın terrorçular tərəfindən fahişəxanalarda istismar olunduğunu deyən qəzet bu pritonların terrorçulara xidmət etdiyini qeyd edib.**

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 262 (5971) 24 oktyabr 2014




# Uzaq səfərə hazırlaşanlara gözəl nümunə

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! İnsanın öz gündəlik həyatında, yaşayışında ən çox unutduğu məsələlərdən biri - bu dünyaya müvəqqəti gəlməsidir. İnsan unudur ki, bu dünyaya müvəqqəti gəlib və bu gelişinin də səbəbi əslində imtahanlardır. Bir gün çatacaq ki, insanın bu dünyadan köçmək anı gələcək.**

## Yol tədarükünü görmək zamanı

İstər əqli baxımından, istər nəqli baxımından, istər ağıla, məntiqə görə, istər Qurani-Kərim məntiqinə, Peyğəmbər (s) və onun pak Əhli-Beytinin (ə) mübarək məktəbinə görə, insan bir gün bu dünyanı tərk edəcək. Ən mühüm məsələ budur ki, həyatımızda bir hər hansı səfərimiz üçün, hər hansı kiçik yolumuz üçün çox ciddi hazırlıq görürük. Tutaq ki, bir mömin müqəddəs yerlərin ziyarətinə getmək istəyir. Görürük ki, insan başlayır hazırlıq görməyə. İlk öncə bu yolun uzunluğunu öyrənir, daha sonra səfərdə havanın necə olacağını öyrənir, gedəcəyi nəqliyyatı dəqiqləşdirir, qalacağı yeri müəyyənləşdirir və s. Bütün bunları müəyyən etdikdən sonra insan bunlara uyğun tədarük görməyə başlayır. Səfərə çıxanın hazırlığı, azuqəsi olmalıdır. Bütün məntiq, əqli və nəqli dəlillər bunu təsdiq edir. Yola çıxan insan gərək yola, səfərə uyğun olaraq öz tədarükünü görsün. Hər bir insan bunu birmənalı qəbul edir.

## İnsanın yekun səfəri - axirət səfəridir

Qarşıda hamımızı böyük bir səfər gözləyir. Bunu da hər bir kəs təsdiqləyir. Hər cür təfəkkürlü, hər bir düşüncəli insan bunu təsdiq edir ki, bu dünyada əbədi qalan deyil. İndi belə sual ortalığa çıxır. İnsan özünün kiçik və mahiyyətcə çox xırda olan səfərlərinə bu qədər hazırlıq görürsə, bu böyük səfərə necə hazırlaşsın?

Cənab Əbazər (r.ə) bir vaxt Məkkəyə müşərrəf olanda, Kəbənin yanında dayanır. Əbazəri (r.ə) artıq hamı tanıyırdı. Əbazər (r.ə) Məsum İmamlardan sonra (ə) ismətin ən yüksək dərəcələrinə gəlib çatan İlahi bəndələrdəndir. Əbazər (r.ə) nida edərək dünyanın dörd bir yanından gələn hacılara müraciət edərək bildirirdi: “Mənəm Cündəb ibn Cunadə əl-Ğəffari. Mənəm sizin xeyrinizi istəyən, sizə ürəyi yanan. Mənim yanıma gəlin...”. Əbazər (r.ə) hacılara bəzi sözlər demək istəyir. İlk öncə özünü onlara tanıtdırır. Tanıtdırır ki, insanlar onun əziz İslam Peyğəmbərinin (s) ən yaxın səhabəsi olmasını xatırlasın. Əbazər onlara ürəyinin yandığını bildirir. Camaat Əbazərin (r.ə) ətrafına toplaşır. Əbazər (r.ə) onlara buyurur: “Ey camaat, sizlərdən hər biriniz yola çıxmaq qərarına gəldikdə yol üçün lazım olan həddə azuqə tədarük görər və başqa çarəsi də yoxdur”.

Əbazər (r.ə) Həcc ziyarəti üçün dünyanın müxtəlif yerlərindən gəlmiş insanlara hamısının qəbul etdiyi bir həqiqəti xatırladır. Bundan sonra Əbazər (r.ə) öz fikrinin məğzini onlara çatdıraraq buyurur: “İndi ki, belədir, axirət səfəri azuqə tədarükü görülməyə daha layiqdir...”.

Yəni Əbazər (r.ə) onlara çatdırır ki, indi ki, adi bir yola çıxmaq üçün tədarük görürük, bu halda ki, hamımızı qarşıdan böyük bir səfər gözləyir, müqayisə edəndə böyük səfər üçün daha çox azuqə toplamalıyıq. Bu səfər ilə heç bir səfərin, heç bir yolun bənzədilməsi qətiyyən ola bilməz. Əgər yola çıxan zaman azuqə toplamaq bir qaydadırsa, həqiqi hazırlaşılası səfər - axirət səfəridir. Ardında Əbazər (r.ə) axirət səfəri üçün xüsusi hazırlaşılmasının səbəbini göstərir: “İnsanın yekun səfəri - axirət səfəridir”.

İnsanın yekun, həlledici səfəri məhz axirət səfəridir. Bundan sonra artıq başqa səfərlər olmayacaq ki, öncəki səfərdə buraxdığın səhvləri düzəldə biləsən. Hər baxımdan bu səfərə xüsusi önəm vermək lazımdır.

## Əcəl yetişəndə artıq çox gec olacaq

İmam Həsən (ə) səhabələrindən birinə belə moizə edərək, buyurur: “Axirət səfərinə hazır ol. Səfərinin azuqəsini əcəlinin yetişməsindən öncə tədarük gör”. İnsan diqqət etsə və xüsusi nəzər salsa, bu mübarək buyuruşda çox önəmli bir xəbərdarlığın olduğunu görər. İmam (ə) bizi xəbərdar edir. Xəbərdar edir ki, səfərimizə tədarük görmək üçün köç zamanını gözləməyək. Əgər köç zamanını gözləsək, bir də görəcəyik ki, artıq getmək vaxtı yetişib və bizim əlimizdə isə heç bir şey yoxdur. Çünki, insan köç zamanının nə zaman yetişəcəyini belə bilməz. Belə olan təqdirdə onun hazırlığı da olmayacaq. Bu, nə səfərdir ki, İmam Həsən (ə) bizə əcəl yetişməmişdən qabaq, ona hazır olmağı tövsiyə edir? Sanki xəbərdarlıq edirlər ki, bu, adi səfər deyil. Bu səfər, adi səfərlərdən qat-qat fərqli səfərdir. Belə isə, adi səfərlər üçün hazırlıq görürüksə, bu səfər üçün xüsusi hazırlıq görmək lazımdır. Bu səfərdə çoxlu çətinliklər, çoxlu təhlükələr var. İstəyirlər ki, bu sualı özümüzə verək - “bu səfərə nə qədər hazırıq?”.

## Həyatını axirət səfəri üçün hazırlığa həsr edənlər

Axirət səfərinə hazırlaşmaq istəyən insan, gərək bu səfərə layiqli hazırlıq görən nümunələrdən dərs götürsün. Təsəvvür edək ki, bir nəfər səfərə çıxır və bu yol üçün lazım olan azuqəyə bələd deyil. Bunun üçün nə etməlidir? Bunun üçün gərək həmin şəxs bu yolu rahatlıqla getmiş, lazımi azuqələri toplamış şəxslərdən yola tədarük ediləsi məsələləri öyrənsin. İslamın tarixində həyatını axirət səfəri üçün hazırlığa həsr etmiş bir sıra şəxslər olub. Onların zirvəsində dayanan şəxsiyyətlərdən biri - İmam Hüseyndir (ə). İmam Hüseynin (ə) bütün hazırlığı, bütün işləri, bütün tədarükləri, bütün mübarizəsi, çalışmalarının bütün cəmi tək bir məqsədə xidmət edirdi. İmam Hüseynin (ə) tək məqsədi - axirət tədarükü görmək idi.

## İmam Hüseyn (ə) tarixi gələcək sərsəmləmələrdən qorudu

İmam Hüseynin (ə) axirət tədarükünü dərk etmək üçün, onun Kərbəlasına nəzər salmaq zəruridir. Məhərrəm ayında İmam Hüseynin (ə) şəhadət karvanı Kərbəla adlanan göz yaşı və qan damlalarını yaşadan bir məkana gəlir. Bir məkandır ki, artıq sonradan cənab Hürr (r.ə) kimi tövbəkarlıq nümunəsi olan bir insanın sonuncu günahları burada başlayır. Əba Əbdillahı (ə) və şəhadət karvanını Kərbəla çölünə gəlməyə məcbur edirlər. Orada İmam (ə) dəfələrlə başqa yerə getmək üçün onlara imkan verilməsini istəyir. İmam (ə) istəyir ki, insanlar sonra deməsinlər ki, o, özü özünü ölümə apardı.

Məhərrəm ayının 7-si qurtarır, 8-i başlayır. Ömər Səd (lən) dörd min nəfərlik qoşunla Kərbəlaya daxil olur. Məhərrəmin 7-si hələ qoşun daxil olmayıb. Hələ elə bir vəziyyətdir ki, Zuheyr (r.ə) gəlir İmam Hüseynə (ə) deyir: “Ya Əba Əbdillah, icazə ver, döyüşə başlayaq”. İmam Hüseyn (ə) deyir: “Biz döyüşə birinci başlamayacağıq”. Tarixə düşməməliydi ki, İmam Hüseyn (ə) zorakılıq etdi. İmam Hüseynin (ə) şücaəti ilə yanaşı, tədbirliliyi də o qədər güclü idi ki, o, tarixi gələcək sərsəmləmələrdən qorumağa çalışırdı.

## “Ölüm, sənə afərin olsun”

Bəli, məhərrəm ayının 8-də Ömər Səd (lən) dörd minlik qoşunla Kərbəlaya daxil olur. Hürr Ömər Sədin (lən) rəhbərliyi altına keçir. Bu, onu göstərir ki, Ömər Sədin (lən) başında duran İbni Ziyad (lən) və Yezid (lən) yaxşı başa düşürdülər ki, onların etmək istədikləri cinayətləri əgər Hürrün öhdəsinə buraxsalar, ola bilər ki, Hürr buna imkan verməsin. Ona görə də artıq Məhərrəmin 8-dən Hürr öz sərbəstliyini itirir. Məhərrəmin 8-i elə bir gündür ki, İmam Hüseynin (ə) tarixə düşəcək bir cümləsi meydana gəlir. İmam Hüseyn (ə) deyir: “Ölüm, sənə afərin olsun. Mərhəba olsun ölümə!”. İmam Hüseyn (ə) ölümü salamlayır. Çünki, Əba Əbdillah (ə) artıq axirət azuqəsini kifayət qədər toplamışdı və artıq bu səfərə tam hazır idi.

Nə baş verir ki, Zəhra (s.ə) balası hicrətin birinci yüzilliyində ölümə “mərhəba” deyir? Bu, nə vəziyyətdir? Bu cümlə nədən meydana çıxır? Həmin gün Yezidin (lən) qoşunu İmama (ə) deyir: “Gərək Yezidə (lən) beyət edəsən”. İmam Hüseyn (ə) birmənalı şəkildə bəyan edir: “Mən Yezidə (lən) beyət etməyəcəyəm”. İmam (ə) dəfələrlə dediyi cümləni bir daha burada son olaraq bəyan edir. İmam (ə) onların təslim olmasının mümkün olmadığını bəyan edir.

## Şəhadət karvanının son imtahanları başlayır

Hər kəs bilir İmam Hüseyn (ə) kimdir. Bütün qoşun başçıları İmam Hüseyni (ə) çox yaxşı tanıyır və onun haqqında Peyğəmbərin (s) söylədiyi cümlələrdən xəbərdardırlar. İmam Hüseyn (ə) qarşısında duran Ömər Səd (lən) qoşununa üz tutaraq deyir: “Sonuncu zərbə ki, mənə vura bilərsiniz, ölümdür. Mərhəba olsun ölümə!”. İmam (ə) ölümü yeni bir şəkildə insanlara təqdim edir. Belə bir ölümə Əba Əbdillah (ə) afərin deyir. Əslində İmamın (ə) mərhəba söylədiyi bu ölüm - diriklikdir. İnsanlar yalnız bu cür ölərək yaşaya bilərlər. Ona görədir ki, İmam Hüseyn (ə) on dörd əsr bundan əvvəl şəhid edilsə də, bu gün də yaşayır.

İmam Hüseynin (ə) cavabı İbni Ziyada (lən) çatır. İbni Ziyad (lən) Ömər Sədə yazır ki, “bütün qoşununla İmam Hüseyni (ə) və onun ardıcıllarını mühasirəyə al. Onları susuzluğa giriftar eylə. Elə et ki, zərrə qədər də su içməyə suları olmasın”. Bu gündən eşq karvanının susuzluq anları başlayır. Artıq Zəhra (s.ə) balalarının susuzluq imtahanının başlayan anlardır. Artıq bir vəziyyətdir ki, hamı öz dəyərlərini ortalığa qoyub.

## İmam Hüseynin (ə) iki hədəfi

Kərbəla səhnəsində yeni çalarlar meydana çıxır - susuzluq imatahanı. Artıq bir vəziyyətdir ki, mühasirə bir tərəfdən, çoxminlik qoşun bir tərəfdən, susuzluq bir tərəfdən eşq karvanını əhatəsinə alıb. Hələ bu, mənzərənin tam tərəfi deyil. İbni Ziyad (lən) hansı qoşunu susuz qoymağı əmr edirdi? O qoşunu ki, burada qoca da var, burada ana da var, orada bala da var, orada xırda körpələr də var. Yəni, İbni Ziyad (lən) əslində Əhli-beyt (ə) körpələrini susuz qoymağı əmr edirdi.

Bu xəbər İmam Hüseynə (ə) gəlib çatanda, artıq anlayır ki, bəşərə dərs vermək vaxtıdır. Gəlib düşməndən Hicaza getmək üçün icazə vermələrini istəyir. İmam (ə) əslində istəyir ki, murdar Əməvi mahiyyətini insanlığa açıb göstərsin. İmamın (ə) Mədinədən Məkkəyə, Məkkədən Kufəyə gələn zaman qarşısında iki hədəfi var idi. Birinci hədəfi budur ki, haqqın nə olduğunu, kim olduğunu, necə olduğunu izah edir. İkinci məsələ isə budur ki, Əməvilərin murdar mahiyyətini ortalığa çıxardır.

## Dəyərlərin təbliği anı

İndi həmin səhnələrdəndir ki, İmam (ə) həqiqi dəyərləri təbliğ edir. Artıq bir vaxt yetişib ki, hər kəs nələrin baş verdiyini yaxşı başa düşür. Artıq tarixdə sabit olunur ki, Əməvilər hansı murdar mahiyyətə malikdir. Belə bir məqamda İmam (ə) onların geriyə - Hicaza qayıtmaları üçün imkan vermələrini istəyir. İmam (ə) bununla istəyir tarixə bir cümlə qoysun. Tarixə bu cümləni qoymaq istəyir ki, onlar nəinki döyüşmək istəmirdilər, nəinki birinci döyüşə başlamırdılar, hətta onlar geri qayıtmağa da hazır idilər.

İmam Hüseynin (ə) bu istəyini İbni Ziyada (lən) çatdırırlar. İbni Ziyad (lən) Şimr (lən) ilə bir məsləhətləşmə qurur. Bu məsləhətləşmənin nəticəsində, bunun yekununda Ömər Sədə (lən) bir məktub yazır. Məktubda deyilir: “Ömər Səd (lən), mən səni Kərbəlaya göndərməmişəm ki, Hüseyn ibni Əli (ə) ilə mübarizədən çəkinəsən. Mən səni ora göndərməmişəm ki, Hüseyn ibni Əliyə (ə) diri qalmağa bir imkan verəsən. Mən səni Kərbəlaya göndərməmişəm ki, mənə Hüseyn ibni Əli (ə) tərəfindən bəhanələr gətirəsən. Mən səni Kərbəlaya ona görə göndərməmişəm ki, sən məndən ona güzəşt istəyəsən. Əgər Hüseyn (ə) və yolçuları təslim olsalar, onları mənim yanıma zəlil halda göndər. Əgər təslim olmasalar, hücuma keç. Onların kəsilmiş bədən əzalarını göndər. Əgər bu işi icra etsən, səni böyük bir mükafat gözləyir”.

Bu səhnədə İmam Hüseynin (ə) və Yezidin (lən) hansı cəbhələri təmsil etdiyi tam ortalığa çıxır. Burada Yezidin (lən) şərəfsizliyinə artıq heç bir şübhə qalmır. Şəhadət karvanının da hansı bir zirvədə olduğu bu səhnədən açıq-aşkar görünür.

Allahım, əcəl yetişməzdən öncə bizlərə axirət səfərinə hazırlıq görməyi nəsib et!

Allahım, bizlərə İmam Hüseynin (ə) Kərbəla məktəbindən həyat dərsləri götürməyi nəsib et! Amin!

# Yeni qaydalar şadlıq saraylarına "toy tutacaq"

## Eyyub Hüseynov: "Mağar toylarına qayıtmağın vaxtıdır"

**Qafqaz Müsəlmanları İdarəsinin dəbdəbəli toy və yas mərasimlərinin keçirilməsi ilə bağlı müraciətinin ardından İqtisadiyyat və Sənaye Nazirliyi də vətəndaşları şadlıq sarayları ilə münasibətdə öz hüquq və vəzifələrini qorumağa çağırıb.**



Nazirlikdən yayılan məlumatda bildirilir ki, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq, istehlakçıların malları və xidmətləri sərbəst seçmək, keyfiyyətli və təhlükəsiz mallar və xidmətlər almaq, almaq istədiyi mallar və xidmətlər barədə dolğun və düzgün məlumat əldə etmək və s. hüquqları vardır.

Qanuna əsasən, istehlakçını keyfiyyətsiz və ya ona lazım olmayan çeşidli mal almağa və xidmət göstərilməsinə məcbur etmək qadağandır. İstehlakçıya hər hansı bir mal və xidmətin satışı digər mal və xidmətin alınması ilə şərtləndirilə bilməz. İstehlakçı satıcının süni surətdə yaratdığı dəstdən ona lazım olan malı almaq hüququna malikdir. Həmçinin şənlik məclisi təşkil etmək istəyənlərə hüquqlarının qorunması üçün aşağıda qeyd olunanlara diqqət yetirmələri tövsiyə olunur:

Məclislərin keçirilməsi üçün şadlıq evinə sifariş verilməzdən əvvəl obyektin vəzifəli şəxsi tərəfindən təsdiq edilmiş və göstərilən xidmətlərin adları, xassələri, qiymətləri və digər şərtləri əks olunmuş qiymət cədvəllərinin (menyunun) təqdim olunmasına;

- qonaqlara təqdim etmək istədiyiniz yeməklərin, alkoqollu və sərinləşdirici içkilərin, desertlərin və s. siyahısına yalnız müəyyən etdiyiniz malların daxil edilməsinə;
- Məclisdə səsləndirmək istədiyiniz musiqi, əyləncəli proqramlar, rəqs nömrələri, kəbin kəsilməsi və s. xidmətlərin siyahısının yalnız müəyyən etdiyiniz xidmətlərdən ibarət
- Məclisdə qonaqlara təqdim etmək istədiyiniz yeməklərin, alkoqollu və sərinləşdirici içkilərin, desertlərin və göstəriləcək xidmətlərin və s. konkret adı, miqdarı, qiyməti və s. əks olunmuş müqavilə bağlanılmasına;
- göstərilmiş xidmət müqabilində ödədiyiniz məbləği təsdiq edən ödəniş sənədlərinin (kassa çeki, qəbz) ödəniş edildikdən dərhal sonra təqdim olunmasına.

Məclislərin təşkili zamanı hüquqlarınızı pozan, o cümlədən sizi əlavə çeşiddə mal və ya xidmət almağa məcbur etməyə cəhd edən şadlıq evləri barədə 498-15-01 və ya 498-15-04 saylı telefonlarla İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinə və ya 195-2 telefon nömrəsi ilə Nazirliyin Telefon Məlumat Mərkəzinə müraciət etməyiniz xahiş olunur.











### "Qanun istehlakçının yox, biznesmenin tərəfindədir"

Qeyd edək ki, "Yeni Müsavat" qəzeti təxminən iki ay öncə bu mövzunu manşetə çıxararaq, yas mərasimlərindən sonra toy mərasimlərində də israfçılığın aradan qaldırılması ilə bağlı çağırış etmiş, vətəndaşları toy mafiyasının əlindən qurtarmağın yollarını göstərmişdi. Görünən odur ki, artıq bu deyilənlər gerçəkləşmək üzrədir.

Şadlıq sarayları ilə bağlı məsələnin gündəmdə olduğu bir vaxtda "Yeni Müsavat" bu tipli ictimai iaşə obyektlərində vətəndaşların hansı hüquqlarının pozulduğunu araşdırıb.

Şadlıq saraylarında təqdim olunan menyunu və qiymətləri öyrənmək məqsədilə Bakıda yerləşən məşhur şadlıq saraylarına baş çəkdik. İlk üz tutduğumuz **"Oazis"** restoranında qiymətlər 35 manatdan başlayır və 55 manata qədər yüksəlir. Təqdim olunan menyuda isə 80 növ yemək, içki və sair qida məhsulları yer alır.

**"Golden Ring"** - menyunun qiyməti 35-80 manat arasında dəyişir.

**"Yaxt-klub"** restoranında isə göstərilən xidmətdən asılı olaraq menyu 90-110 manatdan başlayır. Burada şadlıq məclisi gəmidə təşkil olunur. Menyu isə digər şadlıq saraylarından o qədər də fərqlənmir.

**"Holliwood"** şadlıq sarayında bir nəfərlik yerin qiyməti isə "Holliwood"dakı restoranları da geridə qoyub. Menyuda qeyri-adi heç bir yemək olmasa da qiymətlər 120-150 manat arasında dəyişir.

**"Su səsi"** restoranında da vəziyyət bundan fərqli deyil. Qiyməti 55-100 manat arasında dəyişən menyularda əsas fərq təqdim olunan içkilərin keyfiyyətindən və markasında asılıdır.

Söhbət əsnasında məlum oldu ki, adlarını qeyd etdiyimiz şadlıq saraylarının heç biri müştəri ilə müqavilə bağlamır. Minlərlə manat pul şifahi danışıq əsasında ödənilir və heç bir ödəniş qəbzi və ya çek verilmir.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov** bildirdi ki, istehlakçıların hüquqlarını qorumaq üçün dəfələrlə şadlıq evləri ilə məhkəmə mübahisələri olub, ancaq çox zaman bunu lazımınca həyata keçirməyə nail olmamışıq: "Bunun əsas səbəbi ondan ibarətdir ki, şadlıq evləri ilə sifarişçilər ilə arasında bir qayda olaraq heç bir müqavilə bağlanmır. Kimin üzərinə hansı öhdəliklər düşür, kimin vəzifələri nədir- bunlar yazılı şəkildə müəyyənləşdirilmir. Ona görə də, məhkəmə iddiaları qaldıran zaman heç bir nəticə əldə etmək olmur. Minlərlə manat pul ödənilir, ancaq heç bir müqavilə, yazılı öhdəlik yoxdur. Öhdəlik olmayan yerdə isə hər zaman qanun pozuntusu və narazılıq olur. Digər tərəfdən sifarişçilərin ödədikləri pul müqabilində onlara heç bir rəsmi sənəd, qəbz verilmir. Bütün bunlar isə vergi orqanlarının gözü qarşısında baş verir".

**Şadlıq saraylarında verilən yeməklərin keyfiyyətinə gəlincə, ekspert dedi:** "Hazırda elə bir vəziyyət yaranıb ki, istehlakçıların heç bir hüququ yoxdur ki, gedib mətbəxdə yeməklərin keyfiyyətinə nəzarət eləsin. Digər tərəfdən istehlakçı ekspert deyil, qidanın keyfiyyətini tam təyin edə bilmir. Qanunlar isə yol vermir ki, hansısa dövlət orqanının nümayəndəsi iş vaxtından sonra, toy gedən zaman şadlıq sarayına daxil olub monitorinq aparsın. Heç bir dövlət orqanının buna icazəsi yoxdur və hər hansı məmur bunu edərsə, onu 5000 manata qədər cərimə gözləyir. Qanun istehlakçının yox, biznesmenin tərəfindədir. Şadlıq sarayları istehlakçının seçim hüququnu pozulur, yeməklərin hansı ardıcıllıqla gəlməsini sifarişçi deyil, restoran rəhbərliyi müəyyənləşdirir".

**Menyuların qiymətlərinin həddindən artıq şişirdilmiş rəqəmlərlə ifadə olunduğunu deyən Eyyub Hüseynov bu məsələnin dövlətin nəzarətinə götürülməsinin vacibliyini vurğuladı:** "Təklif edirəm ki, vətəndaşlar mağar toylarına keçsinlər və restoranları boykot eləsinlər".

❑ Nərgiz LİFTİYEVA




# Ölən əsgərin atası fəryad qoparır

## Şirazi Alıyev: "Oğlumun qətlində məmur qohumunun əli var"

**2013-cü ilin dekabrından 10-dan 11-nə keçən gecə Naftalan rayonunda yerləşən N saylı hərbi hissədə əsgər Orxan Alıyev müəmmalı şəkildə dünyasını dəyişib. Hərbi-tibbi ekspertiza əsgərin yataqdan qalxmadığını, onun hipertrafik kardiomiopatiyadan öldüyü rəyini verib. Dünyasını dəyişən əsgərin valideynləri ekspertizaya inanmır, övladlarının öldürüldüyünü deyir.**

Oktyabrın 23-də O. Alıyevin valideynləri Prezident Administrasiyası qarşısında aksiya keçiriblər. Onun atası Şirazi Alıyev musavat.com-a açıqlamasında bildirib ki, uzun zamandır hər bir dövlət orqanına müraciət edib. Heç birindən də müsbət cavab ala bilməyib: "Mənim Prezident Administrasiyasına gəlməyimin səbəbləri var. Buna məcburam. Getmədiyim, müraciət etmədiyim yer qalmayıb. Hərbi prokurorluq işə qeyri-ciddi yanaşır. Zakir Qaralovun gədtərşini yerinə yetirmirlər".

Ş.Alıyevin sözlərinə görə, oğlunun qətlə yetirilməsi ilə bağlı bütün dəlil və sübutlar var: "Əlimdə hər bir sənəd var. Şahidlərin səs yazıları, danışıqlarının nüsxəsi var. Bunları istintaqa təqdim etməyimə baxmayaraq, onlar bu məsələni araşdırmayıblar. İşə xitam veriblər. Bu işdə şahid olanlardan biri məktəbli bir qızdır. Müstəntiq onu ailəsindən xəbərsiz dindirib. Hətta ona təzyiqlər edilib ki, danışmasın. Əks təqdirdə onun üçün yaxşı olmayacaq. Mən əminəm ki, oğlumu öldürüblər. Bu məsələnin arxasında ya yüksək vəzifəli bir məmurun qohumu var, ya da lazımi şəxslərə böyük məbləğdə pul verilib. Çünki məsələ bir yolla ört-basdır edilir.

Mənim oğlum xidmət etdiyi müddət ərzində, həmin hərbi hissədə məndən rüşvət alıblar. Oğlumun yerini dəyişməmək üçün hərbi hissə komandiri məndən 800 manat alıb. Oğlumun təhlükəsizliyi üçün isə bölük komandiri Ayaz Baxışov məndən 300 manat alıb. Bütün bu dediklərimin sübutu var. Məndə bütün dəlillər var və bunları istintaqa təqdim etmişəm. Bu ölkədə qanun var, amma kağız üzərində. Əgər elə olmasaydı mənim oğlumun qatilləri tapılardı. Araşdırma getmir. Bizi inandıracaq heç nə yoxdur. 30-a yaxın insan bu məsələyə görə dindirilməli idi. Amma heç biri dindirilməyib.

Prezident Administrasiyasında Fuad Ələsgərovla görüşməli idik. Amma son anda onunla yox, müavini ilə görüşdük. Mənsurov soyadlı şəxs bizi qəbul elədi və hərbi prokuror Xanlar Vəliyevlə telefon bağlantısı yaratdı. Tapşırıq verdi ki, bizi qəbul eləsin və məsələyə ciddi yanaşsın. O, da bizi qəbul edəcəyini dedi.

**Amma bizə qarşı kobudluq da edildi. Qapıda dayanan polis əməkdaşı bizi təhqir etdi. Vətəndaş şikayət üçün Prezident Administrasiyasına gəlir, orada dayanan polis isə onları təhqir edir. Bu hansı qanuna sığır? Bu nə olan şeydir?"**

❑ Məhəmməd TÜRKMƏN
Foto müəllifindir

YENİ MÜSAVAT

Son səhifə

N 262 (5971) 24 oktyabr 2014

# Həkimlərə çay və kofe qadağası

Britaniya qraflığı olan Lesterşirdə həkimlərə iş vaxtı çay və ya kofe içmək qadağan edilib. Bu barədə lenta.ru saytı "The İndependent"ə istinadən xəbər verir. Tibb müəssisələrinin rəhbərliyi bunu xəstələrin xahişinə əsasən qəbul edib. İnsanlar bildiriblər ki, müayinə və qəbul zamanı əllərində qaynar içki tutan həkimlər tənbəl və sayğısız insan təəssüratı yaradırlar. Həkimlərə bu qadağa barədə elektron məktub vasitəsilə xəbər veriblər. Bir çox həkimlər bu qadağanı ədalətsiz və qeyri-insani adlandırıblar. Onlar yerli KİV-lərdə öz hüquqlarını qorumaq üçün kampaniyaya başlayıblar. Amma həkimləri imic məsələsinə nəzarət edən Mişel Skoun bildirib ki, bu yeni qayda ancaq isti içkiləri nəzərdə tutur. Çünki bu içkilər insanları daha da tənbəlləşdirir, işdən ayırır və sair. O deyib ki, həkimlər istədikləri vaxt soyuq su içə bilərlər.





## Dünyanın ən bahalı pitsası

Pitsa deyib, yan keçməyin. Düzdür, onu hər yerdə satın almaq olar. Amma İtaliya aşpazı olan Renato Viola pitsanın dəyərini artırmaq qərarına gəlib və özünün pitsa reseptini hazırlayıb. Bu pitsanı kralların masasına belə qoymaq olar. Pitsanın tərkibində 3 növ kürü, matsarello pendiri, habelə bir çox bahalı təamlar olub. Bundan əlavə, pitsaya sous kimi elit konyak növü sayılan Remy Martin Louis da qatılır. Pitsaya hətta elə-belə duz yox, Avstraliyanın narıncı rəngli duzu vurulur. Diametri cəmi 20 sm olan pitsanın dəyəri isə 8400 dollardır.



## Əqrəb sancdı, 83 min dollar ziyana düşdü

ABŞ-ın Arizona şəhərində yaşayan Marsie Edmondsu (52) əqrəb sancıb. Yaxınlıqdakı Chandler Sağlamlıq Mərkəzinə müraciət edən xəstəyə çoxlu sayda dərman verilib və sağlamlığına qovuşub. Amma Marsieyə xəstəxanadan 83 min 46 dollarlıq hesab qəbzi gəlib. Qadın bildirib ki, xəstəxanada ona verilən iki doza dərmanın Meksikadakı qiyməti cəmi 100 dollardır: "Hesabın 57 min dollarını sığorta şirkəti ödəyəcək. Yerdə qalanını nə edəcəm, bilmirəm".

# Bu da yuxu otağı



Yaponiyada yorğun və yuxu həsrətində olan şəxslərin yatması üçün yuxu otaqları istifadəyə verilib. Otellərdən fərqli olaraq, insanlar bu otaqlarda bir və ya bir neçə saat qalaraq həmin müddətin pulunu ödəyirlər. Yuxu otaqlarına müraciət edənlərin böyük əksəriyyətini evində azyaşlı uşağı olan şəxslər təşkil edir. Onlar gecə saatlarında yuxuya həsrət qaldıqları və ofisdə də yata bilmədikləri üçün sözügedən xidmətdən maksimum istifadə edirlər. Bir saatlıq yuxu otağının məbləği 5 dollardır. Otaqlarda həzin musiqi, rahat atmosfer var. Hətta orada müştərilər bəlli saatdan sonra onları oyatmaq üçün xidmət sahibinə müraciət də edirlər. Bunun üçün əlavə 1 dollar məbləğində vəsait ödəmək lazımdır.

## Döyüş multfilmlərinə baxanlar... qorxaq olur



Son illər sayı sürətlə artan və balaca uşaqları da öz maraq dairəsinə alan döyüş cizgi filmləri dünyada həyəcan yaradır. Belə ki, İsveç alimləri bu filmlərin uşaq psixologiyasına ciddi zərbə vurduğu qənaətindədir. Onların fikrincə, bu filmlərin təsiri altında böyüyən uşaqlarda aqresiya ilə yanaşı, qorxaqlıq da olur. Daim bu sayaq cizgi filmlərinə baxan 50 uşaq üzərində keçirilən müşahidədən sonra məlum olub ki, onlar hətta valideynlərinin də cizgi filmlərdəki qorxulu qəhrəmanlar kimi onları döyəcəyindən ehtiyatlanırlar.



## 4 yaşlı uşaq iki maşını "yandırdı"

Türkiyənin Rizə şəhərində 4 yaşındakı bir uşaq alışqanla oynayan vaxt əmisinin maşınını yandırıb. Maşınla yanaşı əmisinin maşın udan lotereya bileti də yanıb. Bu səbəbdən də əmisi udduğu maşını ala bilmir. 17 min dollar dəyərindəki maşınına qovuşa bilməyən İsmayıl Dəmirçi qismətinə düşən maşına ehtiyatdakı başqa bir vətəndaş sahib olacaq. Uşağın atası, İsmayıl Dəmirçinin qardaşı Mehmet Dəmirci mövzuyla bağlı açıqlamasında bildirib ki, hələ də qardaşının danlağından qurtula bilmir: "Evimizdə təmir işləri getdiyi üçün bütün sənədləri maşına yığmışdıq. Amma mənim 4 yaşındakı oğlum eyni vaxtda 2 maşını yandırıb. Qardaşım hələ də mənə sitəm edir". Balaca Bedirxanın isə ağzını bıçaq açmır.




**QOÇ** - Əgər qəlbinizdə kiçicik bir iman işığı varsa, gün ərzində Allaha zidd hərəkətlər etməyin. Əksinə, Yaradandan tövbə və bağışlanma diləyin. Heç kimin qəlbinə dəyməyin. Saat 16-19 aralığı çox uğurludur.

**BUĞA** - Təxminən saat 13-ə qədər mübahisə və qalmaqallar gözlənildiyindən özünüzü qoruyun. Sonrakı müddətdə isə vəziyyət qismən sabitləşəcək. İşlə bağlı məsuliyyətinizi dərk edin.

**ƏKİZLƏR** - Ailə üzvlərinizlə bağlı yaranmış problemləri özünüzə dərd etməyin. Hər şeyi taleyin axarına buraxın. İndi sizə onlara qarşı mülayim mövqe nümayiş etdirmək lazımdır. Səhhətinizə fikir verin.

**XƏRÇƏNG** - Hər mənada uğurlu gündür. Göy qübbəsi müdafiənizdə durduğu üçün ovqatınız xoş olacaq, xüsusən də sevgidə. Günün ikinci yarısında şəxsi büdcənizi artırmaq üçün şans qazanacaqsınız.

**ŞİR** - İş yoldaşlarınızla, qonşu və qohumlarınızla mülayim davranın. Hətta təqsirkar qarşı tərəf olsa da, təmkin göstərib neytrallığınızı qorumağa çalışın. Müştərək fəaliyyətdən uzaq olun.

**QIZ** - Ulduzların düzümü riskdən uzaq olmağı tövsiyə edir. Əks təqdirdə cəhdləriniz boşa çıxacaq. Nahar ərəfəsində isə perspektivli danışıqlarda iştirakınız gözlənilir. Pul barədə qənaətcil olun.

**TƏRƏZİ** - Ailə-sevgi münasibətlərini qaydasına salmaq üçün gözəl fürsətdir. Öz eşqinizi izhar etmək istəyirsinizsə, bir an da vaxt itirməyin. Pul məsələlərində isə ehtiyatlı olun.

**ƏQRƏB** - Mənfi yüklü Ayın bürcünüzdəki neqativ mövqeyi fəaliyyət sahəsində uğurlarınıza mane olmayacaq. Amma yeni münasibət qurmaq, qlobal problemləri həll etmək, uzaq səfərə çıxmaq üçün uğurlu deyil.

**OXATAN** - Bu gün ilk növbədə sağlıq durumunuza diqqət yetirməlisiniz. Astroloji göstəricilər daxili orqanlarınızda problemlərin baş qaldıracağını göstərir. Qalan işləriniz normal olacaq.

**OĞLAQ** - O qədər də əlverişli gün deyil. Nəzərdə tutduğunuz ciddi planları təxirə salın. Qarşılıqlı münasibətlər zəminində ehtiyatlı olun. Sizə aidiyyatı olmayan məsələlərə müdaxilə etməyin.

**SUTÖKƏN** - Fəaliyyətlə bağlı yeni gedişlər etmək üçün imkan qazanacaqsınız. Bu yönümdə müttəfiqlərinizin köməyindən maksimum yararlanmağa çalışın. Bu gün ziyarətə getmək, dua oxumaq sizə rahatlıq gətirəcək.

**BALIQLAR** - Göy qübbəsi daha çox şəxsi büdcənizdə artım olacağını vurğulayır. Odur ki, bütün enerjinizi məhz deyilən istiqamətə yönəltməyə çalışın. Axşama yaxın aldanma ehtimalınız da var.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 2.5 milyon dollarlıq alt paltarı da varmış



Viktoriya Sekretin moda nümayişində bu günə qədər görünməmiş bir hadisə baş verib. 2013-cü il kolleksiyası Nyu-Yorkda tanıdılarkən insanları şoka salan bir fakt üzə çıxıb. Braziliyalı maneken Alessandra Ambrosionun geyindiyi 2.5 milyon dollarlıq alt paltarı gecəyə damğasını vurub. Alt paltarının üzərində yaqut, almaz kimi 5 min 200 ədəd dəyərli daş var.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.600